Внедрение электронных средств в библиотеки оказалось неизбежным. Точно так же, появление электронной библиотечной работы и электронного библиотековедения неизбежны. Именно поэтому в последнее время во всех странах решение этого вопроса находится в центре внимания видных ученых. С этой точки зрения большой интерес вызывают позиции и американского ученого Питера Дьяксона и видных российских ученых В.В.Шрайберга, В.Г.Столярова, А.И.Земского, В.А.Пухова, О.Л.Лавзыкина и д.р. [5]

Упомянутые выше ученые, проведение электронных исследований и проводимые исследования, соответственно, «электронную библиотечную работу» и «создание электронного библиотековедения» оценивают как требование времени. Однако считают нужным обсуждение вопроса о том, быть ли электронным библиотекам автономными, или же частью, отделом, разновидностью традиционных библиотек.

Правда, и классические библиотековеды, и информатики в связи с возникновением в последнее время в библиотеках структурных изменений, а так же в связи с появлением новых видов обслуживания выдвигают различные мысли. Одни из них считают правильным наличие электронной библиотечной работы и электронного библиотековедения, другие рассматривают электронную библиотечную работу и электронное библиотековедение не как самостоятельный предмет, а как часть целостного фундаментального библиотековедения.

Проявляя такт и уважение к этим мыслям видных ученых и специалистов мира, опирающимся на практики в области библиотечной работы последнего времени, необходимо вести серьезные целенаправленные

---

[5] *Научные и технические библиотеки, 2002, №1, с.123-126; 2005, №2, с.94-102.*

научные поиски, результаты которых могут быть ориентированы в будущее.

Если проявить большое научное значение прогнозирования и развитие науки, во внедрение информационных технологий в практической деятельности, а так же учитывая даже те незначительные недостатки, которые обнаруживаются в процессах компьютеризации, в чуде современного мира – интернета, можно придти к однозначному выводу о том, что значения библиотек, вырост некоторых исчисляется пятью тысячами лет, не только снижается, а напротив, вырастает. Интегрируя с новыми электронными средствами, они превращаются в самый значительный атрибут информационного общества. Вместе с тем, происходящие между традиционным и электронным библиотековедением процессы и те изменения, порою невидимые, недоступные человеческому глазу, еще не до конца осознанные – именно они оказывают существенное воздействие на психологию, познавательному росту и интеллектуальному уровню человека.

Проводимые наблюдения, закономерности развития наук подтверждают вечность источников наук, неограниченность их действий ни во времени, ни в пространстве, они бесконечны по своим функциям и задачам *(Андре Берфе, французский писатель).*

С этой точки зрения и в связи со структурными изменениями, происходящим в современных библиотеках, с такими явлениями, как обновление, возникновение новых идей, взглядов, понятий и теорий, а так же в связи с наблюдаемыми в современной библиотечной работе изменениями, требующими новых наследований и обобщений (закономерности работы электронной библиотечной работы, особенность их изучения и обобщения, создание новых систем обслуживание и др.) значительно вырастают задачи и возможности библиотековедения. Оптимально используя эти возможности, библиотековедение достигло значительных успехов. Новые процессы, возникающие в современных библиотеках оказывают воздействие на возникновение электронного библиотековедения.

Получивший широкий простор внедрение электронных средств сделало неизбежным возникновение электронной библиотечной работы и электронного библиотековедения.

Анализ состояния библиотек и изменений в библиотечной работе за последние годы показывает, что действительно возникло новое электронное библиотековедение, изучающее работу электронной библиотечной работы и новой библиотечной работы.

Русские библиотековеды Б.А.Гулихов и О.И.Ловрин «электронной библиотечной работе» и «электронному библиотековедению» дают следующее определение:

- электронное библиотечное дело – это практика реализации библиотечных функций через электронную среду.

- электронное библиотековедение - это вид специального библиотековедения, изучающего специфики реализации библиотечных функций через электронную среду.[6]

Несмотря на то, что предлагаемые авторами реформы, основывающиеся на опыте библиотек последних лет, вызывают некоторый интерес, но эта проблема все еще не нашла своего решения в библиотековедческой науке.

В настоящее время, учитывая формирование в мировой библиотековедческой науке единой, стабильной идеи и позицию профессиональных библиотековедов и библиотекарей, защищающих вечность, целостность, полноту, пройденный библиотековедением большой исторический путь, необходимо отдавать предпочтение библиотековедению как целостной фундаментальной науке. Имея великое историческое прошлое, и неизменно опираясь на практику библиотечной работы и выводы, сделанные в процессе научных исследований, библиотековедение сохранило свою целостность, обрело статус вечности.

По нашему мнению, библиотековедение – единая фундаментальная наука. Всеми фундаментальными науками принят принцип исторического эволюционного развития. Этот подход приемлем и для библиотековедения.

Структурные изменения, происходящие в структуре библиотек, могут сохраняться и на структуре библиотековедения. В связи с тем, что новшества в структуре библиотековедения, принятые, сохранение электронных средств их представление в пользование читателям, встал практический вопрос изучение следующих направлений:

1. Общечеловеческую основу библиотековедения;
2. Теория формирования библиотечно-информационной массы;
3. Теория библиотечно-информационной системы поиска;
4. Теория библиотечно-информационного обслуживания читателей;
5. Теория информации библиотечной работы, а так же экономики информации и ее управление.
6. Библиотечная работа должна изучаться как составная часть информации и библиотековедения, в качестве их исторической и других сфер.

В каждом разделе библиотековедения можно создавать раздел традиционного библиотечного отдела и раздел работы электронных

---

[6] *Гулихов В.А. Ловрин О.Л. Библиосфера, 2007, №4, с.3-6.*

средств. Например, в библиотечном фонде должно быть два книжных фонда, фонд периодической печати и фонд электронных средств. Поскольку, библиотека является единым фондом, то библиотековедческая наука изучает этот фонд, книги, как целостное, гибридное и смешанное явление, разрабатывает рекомендации для организационных исследований и получения обобщающих выводов.

Сохраняется вечность и цельность библиотековедения как фундаментальной науки, каждый раздел обогащается новыми идеями, гипотезами, понятиями. Интегрируясь с информатикой, интенсивно развиваясь в тесной связи, оно обогащается, глобализируется, превращается в общечеловеческую науку.

Таким образом, понятие электронное библиотековедение воспринимается не как особый фон, определенный предмет, а как составная часть библиотековедческой науки, опирающегося на великую научную теорию, историческую практику и методологию.

Всему сказанному, в частности, современному библиотековедению можно дать следующее определение:

Библиотековедение – гуманитарная наука изучающая историю библиотек, закономерность процессов развития библиотечной деятельности, их характер, особенности и структуру. Оно изучает социальные функции и проблемы организации общественного использования печатной продукции, электронных книг и электронных средств, исследует, изучает и систематизирует, обогащает теоретическими идеями, изучающая закономерности развития библиотечных процессов, систематизируя, обогащая своими выводами историю библиотечного дела в обществе, особенности, характер, структуру, социальные функции библиотек, последующая проблемы организации общественного пользования печатают продукцией, электронными средствами (электронные библиотеки).

Уважаемый читатель! Поскольку данная статья нуждается в широком научном обсуждении, просьба высказать о ней свои мысли и предложения.

## ЛИТЕРАТУРА

### *1. На Азербайджанском языке*

*1. Kramer S.S. Tarix Şumerdən başlanır. Bakı, 2009, 280 s.*
*2. Kazımi P.F. İnformasiya mühəndisliyi. Bakı, 2011, 235 s.*
*3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. I hissə.- Bakı, 2001, 398 s.*
*4. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. II hissə.- Bakı, 2003, 314 s.*

*5. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı, 2006, 312 s.*

*6. Xələfov A.A. Kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. Bakı, 2010, 186 s.*

*7. Xələfov A.A. Kitabxanaçılıq fikirlərinin meydana gəlməsi, təşəkkülü və inkişafı // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktik jurnal, 2010, № 2, s.7-19.*

*8. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktik jurnal, 2010, № 1, s.9-14.*

*9. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik: 3 hissədə (III hissə. XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi). Bakı, 2010, 432 s.*

*10. Xələfov A.A. Kitabxana və kommunikasiya // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktik jurnal, 2011, № 1(4), s.4-16.*

*11. Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı tarixindən (1947-2011-ci illər) // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktik jurnal, 2010, №1, s. 9-14.*

***2. На русском языке***

*12. Библиотеки в обществе знаний (Двухязычный азербайджанско российский проект). Баку, 2006, 516 с.*

*13. Библиотековедение: научно-практический журнал, 2011, №6.*

*14. Викторовна Н.Б., Абрамович Л.К. Сбор и сохранение цифровой информации: правовые аспекты // Библиотековедение: научно-практический журнал. Москва, 2011, № 6, с.34-44.*

*15. Глухов В.А. Электронные библиотеки. Организация, технология и средства доступа // Науч.-техн. информ. Москва, 2000, №10, с.1-8.*

*16. Глухов В.А., Лаврик О.Л. Электронное библиотечное дело // Библиосфера, 2007, № 4, с.3-6.*

*17. Джаксо П. Что такое электронное библиотековедение? // Науч. и техн.б-ки, 2002, №1, с.123-126.*

*18. Джиго А.А. Электронные ресурсу в информационно-телекоммуникационной среде // Библиотековедение, 2011, № 6, с.32-33.*

*19. Земсков А.И. Электронные библиотеки: учеб. для вузов / А.И.Земсков, Я.Л.Шрайберг. М.,2003, 351 с.*

*20. Карташов Н.С., Скворцов В.В. Общее библиотековедение. М., 1996, 90 с.*

*21. Карташов Н.С. Сравнительное библиотековедение // Российское библиотековедение: опыт моногр. исслед. М., 2003, с.331-347.*

*22. Константинович В.К. Учебно-методическое сопровождение бакалаврской управленческой подготовки библиотечно-информационных кадров в контексте формирования профессиональных компетенций // Библиотековедение: научно-практический журнал, 2011, № 6, с.110-116.*

*23. Столяров Ю.Н. Электронное библиотековедение // Науч.и техн. б-ки, 2005, №2, с.94-102.*

*24. Шира Дж.Х. Введение в библиотековедение. М., 1983, 256 с.*

*25. Шрайберг Я.Я. Библиотеки-электронная информация и меняющееся общество в информационном веке. М., 2006, 35 с.*

## KİTABXANAŞÜNASLIĞIN MÜASİR PROBLEMLƏRİ

**A.A.XƏLƏFOV**
**axelefov@mail.ru**

### XÜLASƏ

**Açar sözlər:** *kitabxanaşünaslıq, elektron kitabxanaşünaslıq, çap məhsulu, elektron kitab.*

*Məqalədə kitabxana informasiya cəmiyyəti şəraitində kitabxanaşünaslığın qarşısında duran müasir problemlər geniş şərh edilmiş, yeni elmi-nəzəri ideyalar ümumiləşdirilmiş, "Elektron kitabxana işi", "elektron kitabxanaşünaslıq" və onların nəzəri-praktiki təhlili, kitabxanaşünaslığın tərkib hissəsi kimi öyrənilməsi əsaslandırılmışdır.*

## MODERN LIBRARY SCIENCE

**A.A.XALAFOV**
**axelefov@mail.ru**

### SUMMARY

**Key words:** *library, electronic library, printed, e-book.*

*The article is widely considered the problem of library science in the information society, summarizes news cientificand practical ideas, «electronic library work»,«electronic libraryscience», accordingtotheir scientificand practical analysis, and proved to be an integral part of the library.*

*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq-informasiya fakültəsinin*
*65 illik yubileyi qarşısında*

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ İNKİŞAF YOLLARINDA

**Azad QURBANOV**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı,***
***fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent***
***azadbey@mail.ru***

**Knyaz ASLAN**
***Bakı Dövlət Universiteti***
***Kitabşünaslıq və nəşriyyat işi***
***kafedrasının müdiri,***
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***knyazaslan@mail.ru***

**Açar sözlər:** *ali kitabxanaçılıq təhsili, kitabxanaçılıq-informasiya fakültəsi, kitabxanaşünaslıq, biblioqraiya, kitabşünaslıq*

*Məqalədə Azərbaycan Respublikasında ali kitabxanaçılıq təhsilinin əsasının qoyulması, BakI Dövlət Universitetində kitabxanaçiliq şöbəsinin və müstəqil kitabxanaçiliq fakültəsinin yaradılması məsələləri geniş şərh edilmiş, son zamanlar Kitabxanaçılıq-informasiya fakültəsinin elmi-pedaqoji və tədris sahəsində qazandığı uğurlar ümumiləşdirilmiş, aparılan islahatlar haqqında məlumat verilmişdir.*

Son zamanlar Azərbaycan Respublikasında ali təhsil sisteminin Bolonya prosesinə qoşulması ilə əlaqədar ölkə ali məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universitetində bir sıra mühüm işlər görülməkdədir. Bu ali təhsil və elm ocağında aparılan köklü islahatlar, tədris və elmi-tədqiqat sahəsində qazanılan nailiyyətlər çoxsaylı professor-müəllim heyətini və tələbə kollektivini yeni-yeni qələbələrə ruhlandırır. Əminliklə demək olar ki, əsas mahiyyəti Avropa universitetlərinin inteqrasiyasına qoşulmaq olan Bolonya prosesində səriştəli pedaqoqlarımızın peşəkarlığı sayəsində tələbələrimizin

qazanacaqları biliklər onların seçdikləri ixtisaslar üzrə yüksək səviyyəli kadrlar kimi yetişmələrinə yardımçı olacaqdır.

Bu gün fəxrlə deyə bilərik ki, məhz universitetimizin rektoru, millət vəkili, akademik Abel Məhərrəmovun təşəbbüsü və gərgin əməyi sayəsində BDU-nun sürətlə iinkişaf edən, yenidən qurulan fakültələri, kafedraları, laboratoriyaları özünün səriştəli mütəxəssisləri, müasir texnoloji avadanlıqları ilə dünyanın ən qabaqcıl elm və təhsil məbədləri ilə rəqabət aparmaq qüdrətinə malikdir. Dünya ölkələrinin bir çox ictimai-siyasi xadimlərinin, elm, təhsil və mədəniyyət nümayəndələrinin Bakı Dövlət Universitetinin fəxri doktorları seçilməsi də bu doğma elm-təhsil ocağının zəngin milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaqla yanaşı beynəlxalq aləmə, Avropanın mənəvi-intellektual həyatına hərtərəfli inteqasiyasına əsaslı zəmin yaradır.

Elə son zamanlarda aldığımız xoş xəbər bu fikri bir daha təsdiqləyir: Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşən Beynəlxalq Ali Təhsil və Elmlər Akademiyası (International Academy of Sciences and Higher Education (İASHE) postsovet dövlətlərində İASHE-nin rəsmi partnyoru olan Ümumi Ukrayna Akademik Birliyi (Kiyev-Odessa) ilə birgə postsovet məkanına daxil olan ölkələr arasında elmi analitika üzrə regional yarışmanın test proqramını reallaşdırmışdır. İASHE-nin "Elmi analitika üzrə kontinental, milli və regional yarışmalar və dünya çempionatı" layihəsi çərçivəsində keçirilən bu yarışmanın nəticələrinə görə Bakı Dövlət Universiteti ayrı-ayrı reytinqlər üzrə aparıcı yerləri tutmuşdur. Belə ki, Azərbaycan ali təhsil müəssisələrinin flaqmanı "Ali Təhsil Müəssisələrinin elmi-tədqiqat sahəsində aktivliyi" nominasiyası üzrə 1-ci, "Ali Təhsil Müəssisələrinin elmi-tədqiqat sahəsində effektivliyi" nominasiyası üzrə 2-ci, "Gənc alim və tələbə gənclərin elmi-tədqiqat sahəsində aktivliyi" nominasiyası üzrə 3-cü, nəhayət, "Gənc alim və tələbə gənclərin elmi tədqiqat sahəsində effektivliyi" nominasiyası üzrə 21-ci yeri tutub. Eyni zamanda, İASHE-nin Ekspertlər Şurası Bakı Dövlət Universitetini beynəlxalq qızıl nişanəsi olan "Sokrat Medalı" ilə təltif etmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsi Bakı Dövlət Universitetinin aparıcı humanitar fakültələrindən biridir.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi 1947-ci ildə «Respublika mədəni-maarif müəssisələri üçün kadr hazırlamaq haqqında» xüsusi qərar qəbul etdi. Bu dövlət sənədində 1947-48-ci tədris ilində Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsinin təşkil edilməsi və onun gələcəkdə ayrıca fakültəyə çevrilməsi qərara alınmışdı.

Beləliklə, 1947-48-ci tədris ilində universitetin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsi fəaliyyətə başladı və birinci il şöbəyə 16 tələbə – 5 oğlan və 11 qız qəbul edildi. Bu şöbənin təşkili respublikamızın

mədəni həyatında mühüm əhəmiyyətə malik idi. Belə ki, şöbənin açılması mədəniyyətin mühüm tərkib hissəsi olan kitabxanaların yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edilməsi üçün əsaslı zəmin yaradır, kitabxana işinin inkişafına təkan verirdi. Şöbənin məhz universitetdə açılması isə tədris prosesinin uğurlu təşkilinə səbəb olmaqla yanaşı, kitabxanaçılıq ixtisasının, kitabxanaçılıq sənətinin perspektiv inkişafına da şərait yaradırdı. Belə ki, yalnız hərtərəfli elmi-pedaqoji kadrlara malik olan universitet mühitində kitabxanaşünaslıq-biblioqrafiya ixtisasının xüsusiyyətlərinə uyğun olaraq müxtəlif fənlərin tədrisini təşkil etmək imkanı var idi.

Belə bir fakt da əlamətdardır ki, SSRİ-də ilk universitet kitabxanaçılıq təhsili məhz Azərbaycan Dövlət Universitetində təşkil edilmişdir. Təcrübə göstərir ki, kitabxanaçı kadrların mədəniyyət insti-tutlarında və pedaqoji institutlarda deyil, universitetdə hazırlanmAsının olduqca böyük üstünlükləri vardır. Beşillik tədris planı ilə işləyən universitetlərdə kadr hazırlığının keyfiyyətini yüksəltmək, əsaslı və ictimai elmlərə dərindən yiyələnmiş geniş profilli kadrlar hazırlamaq üçün şərait olduqca əlverişlidir.

1947-1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsinin yaranmasında Azərbay-canın tanınmış elm və mədəniyyət xadimlərinin, o sırada 1944-1950-ci illərdə bu ali təhsil ocağının rektoru olan görkəmli fizioloq alim, Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Abdulla Qarayevin, 1945-ci ildən respublika Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri vəzifəsində işləyən görkəmli yazıçımız Süleyman Rəhimovun mühüm rolu olmuşdur.

Professor A.Xələfov yazır ki, həssas insan və yetkin bir ziyalı olan Süleyman Rəhimov da kitab və kitabxana işini mədəni inkişafın mühüm sahəsi kimi çox yüksək qiymətləndirir, mütaliəni xalqın şüurlanmasının əsas vasitələrindən biri hesab edirdi. O, demək olar ki, hər il Kitabxanaçılıq fakültəsinin tələbələri ilə görüşür, bu sahədə yüksək ixtisaslı kadrların yetişdirilməsinə, cavan alimlərin hazırlanmasına qayğı göstərirdi. Xüsusi vurğulamalıyıq ki, məhz Süleyman Rəhimovun mədəni-maarif müəssisələrinə başçılıq etdiyi dövrdə – 1945-1953-cü illərdə kitabxana işinin hərtərəfli inkişafı, xüsusilə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana şəbəkəsinin artması, kitab fondlarının çoxalması, əhaliyə kitabxana xidmətinin təkmilləş-dirilməsi sahəsində ciddi müvəffəqiyyətlər əldə edilmişdi. Bu da maraqlı faktdır ki, Süleyman Rəhimov Kitabxanaçılıq şöbəsinin ilk müəllimlərindən biri kimi tələbələrə «Azərbaycanda kitab tarixi» fənnindən mühazirələr oxumuş, kitab mədəniyyətimizin formalaşmasına öz töhfələrini vermişdir.

Respublikamızda ali təhsilli kitabxanaçı kadrlara olan böyük tələbat nəzərə alınaraq 1955-ci ildə Kitabxanaçılıq şöbəsinin qiyabi Azərbaycan

bölməsi təşkil olundu və birinci il həmin bölməyə 12 tələbə (2 oğlan, 10 qız) qəbul edildi. Beləliklə, zəngin iş təcrübəsinə malik olan kitabxanaçılar istehsalatdan ayrılmadan ali ixtisas təhsili almaq imkanı qazandılar.

1959-cu ildə isə qiyabi Kitabxanaçılıq şöbəsinin rus bölməsi yaradıldı və ilk dəfə buraya 16 tələbə (1 oğlan, 15 qız) qəbul edildi. Zaqafqaziyada yeganə olan bu bölmədə Gürcüstan, Ermənistan və Dağıstandan gələn gənclər də yüksək kitabxanaçı-biblioqraf ixtisasının sirlərinə yiyələnməyə başladılar.

Kitabxanaçılıq şöbəsi 1947-ci ildən 1958-ci ilədək Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərdi. Professor A.Xələfov yazır ki, müharibədən sonrakı illərdə bu fakültənin yanında Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, şərq dilləri və ədəbiyyatı, incəsənət, məntiq-psixologiya, jurnalistika və kitabxanaçılıq şöbələri vardı. Burada məşhur alimlərimizdən Əli Sultanlı, Cəfər Xəndan, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Hadi Mirzəzadə, Cəfər Cəfərov, Əliheydər Qəhrəmanov, Bəxtiyar Vahabzadə, Pənah Xəlilov, Mehdixan Vəkilov, Abbas Zamanov və başqaları dərs deyirdilər.

1958-ci ildə BDU-da ayrıca Şərqşünaslıq fakültəsinin yaranması qərara alınmışdı. Lakin burada təhsil alan tələbələrin sayı az olduğundan rektorluq Kitabxanaçılıq şöbəsini də müvəqqəti olaraq bu fakültənin nəzdinə verməyi qərara almışdı. O vaxt Kitabxanaşünaslıq kafedrasının müəllimləri bu məsələyə narazılıqlarını bildirsələr də, onların etirazı nəzərə alınmadı və beləliklə, Kitabxanaçılıq şöbəsi 1958-ci ildən 1962-ci ilədək Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərdi.

Həqiqət naminə demək lazımdır ki, Filologiya fakültəsindən fərqli olaraq Şərqşünaslıq fakültəsinin profili Kitabxanaçılıq şöbəsinin profilinə uyğun gəlmədiyinə görə kitabxanaşünaslıq və biblioqrafiya elmi ilə bağlı olan məsələlər burada lazımi səviyyədə müzakirəyə çıxarıla və həll edilə bilmirdi. Bundan başqa yeni fakültədə əvvəlki ictimai mühit, yaradıcılıq atmosferi, qaynar elmi həyat yox idi. Bu uyğunsuzluq gündən-günə hiss edildiyindən 1958-ci ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi vəzifəsinə seçilən A.Xələfov və onun məsləkdaşları şöbədəki durğunluğu aradan aqldırmaq üçün yollar arayırdılar. Onlar müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması və ya şöbənin yenidən Filologiya fakültəsinin nəzdinə qaytarılması uğrunda mübarizəyə başlamışdılar. Gənc baş müəllim A.Xələfovun mübarizliyi və professor Ə.Abdullayevin dəstəyi ilə universitetin rektorluğu 1962-ci ilin sentyabrında Kitabxanaçılıq şöbəsinin yenidən Filologiya fakültəsinin nəzdinə qaytarılması haqqında qərar qəbul etmişdi.

Sovet Ittifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 22 sentyabr 1959-cu ildə qəbul etdiyi «Ölkədə kitabxana işinin vəziyyəti və onu

yaxşılaşdırmaq tədbirləri haqqında» qərarında yüksək ixtisaslı kitabxanaçı kadrların, xüsusilə elmi, elmi-texniki, ali məktəb kitabxanaları üçün mütəxəssis kadrların hazırlanması zəruri hesab edilmişdi. Bu qərara uyğun olaraq yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasının qənaətbəxş olmamasını, universitetin Kitabxanaçılıq şöbəsinə tələbə qəbulunun azlığını nəzərə alan hökumət Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta Ixtisas Təhsili Komitəsinə mütəxəssis kitabxanaçı kadrların hazırlanmasının yaxşılaşdırılması haqqında tədbir görməyi məsləhət bilmişdi.

Təhsil Komitəsi Bakı Dövlət Universitetində kitabxanaçı kadrların hazırlanması vəziyyətini yoxlayıb müzakirə etmək üçün xüsusi komissiya yaratmışdı. Komissiya universitetin Şərqşünaslıq fakültəsi yanında Kitabxanaçılıq şöbəsinin işini yoxlamış, burada tələbə kontingentinin tərkibini, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının elmi potensialını araşdırmışdı. Yoxlama zamanı məlum olmuşdu ki, son illər kafedraya gənc qüvvələr cəlb olunmuş, respublikamızda ilk dəfə olaraq kitabxana işinin tarixinə dair dissertasiya müdafiə edilmiş, kitabxanaşünaslıq üzrə elmlər namizədi yetişmişdir. Kitabxanaçılıq şöbəsinin yetirməsi Abuzər Alı oğlu Xələfov 1962-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1933-cü illər)» mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdı.

Kitabxanaçılıq şöbəsinin bu göstəricilərini və elmi potensialını nəzərə alan komissiya əyani və qiyabi şöbələri birləşdirib müstəqil fakültə yaradılmasını məqsədəuyğun hesab etmişdi.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın göstərişinə əsasən 1962-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta Ixtisas Təhsili Komitəsi həmin il sentyabrın 1-dən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi nəzdindəki Kitabxanaçılıq şöbəsinin əyani və qiyabi bölmələrinin birləşdirilməsi və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması haqqında əmr verdi.

Maraqlıdır ki, 1947-ci ildə universitetin Filologiya fakültəsi yanında Kitabxanaçılıq şöbəsinin açılması haqqında əmri bu ali təhsil ocağının rektoru kimi imzalamış akademik Abdulla Qarayev düz 15 il sonra – 1962-ci ildə artıq Təhsil Komitəsinin sədri kimi müstəqil Kitabcxanaçılıq fakültəsinin yaradılması haqqında əmrə də qol çəkdi. Həmin əmr əsasında isə Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, geologiya-minerolo-giya elmləri doktoru, professor Şəfaət Mehdiyev 1962-ci ilin sentyab-rında öz əmrini imzaladı. Buə əmrə əsasən həmin il oktyabr ayının 1-dən universitetdə ayrıca Kitabxanaçılıq fakültəsi təşkil olunurdu.

Rektorun əmri ilə Kitabxanaçılıq şöbəsinin yetişdirməsi, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi, tarix elmləri

namizədi Abuzər Alı oğlu Xələfov Kitabxanaçılıq fakültəsinin ilk dekanı vəzifəsinə təyin edildi.

Göründüyü kimi, Kitabxanaçılıq fakültəsinin yaradılmasında və inkişafında akademiklər Abdulla Qarayevin, Şəfaət Mehdiyevin, gənc müəllim Abuzər Xələfovun və başqalarının çox önəmli xidməti olmuşdur. Onlar kitab mədəniyyətinə və kitabxana işinə yüksək qiymət verir, kitabxanaçı kadrların hazırlanmasına respublikamızın mədəni tərəqqinin əsas amillərindən biri kimi baxır, kitabxanaşünaslıq və biblioqrafiyanın inkişaf etdirilməsinə, bu sahədə elmlər namizədləri və elmlər doktorlarının yetişdirilməsinə böyük qayğı göstərirdilər.

Kitabxanaçılıq fakültəsinin sonrakı illərdə əldə etdiyi nailiyyətlər, qəbul planının ilbəil artması, müəllim kadrlarının çoxalması, elmi elmi kadrlarının səviyyəsinin yüksəldilməsi məhz həmin qayğının təzahürü kimi qiymətləndirilməlidir.

Gənc dekan A.Xələfovun təşəbbüsü ilə 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin axşam şöbəsi yaradıldı. Axşam şöbəsinin təşkili Bakıda və Sumqayıtda yaşayıb işləyən kitabxanaçıların ali təhsil almaları üçün əlverişli şərait yaratdı. A.Xələfovun səyi nəticəsində respublikamızın kitab ticarəti müəssisələrinin yüksək ixtisaslı mütəxəssis kitabşünas-biblioqraf kadrlara olan tələbatı nəzərə alınaraq 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin nəzdində yeni bir şöbə – Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi təşkil edildi.

Belə vacib bir şöbənin yaradılması mədəniyyətimizin mühüm sahələrindən olan kitabşünaslığın inkişafına mühüm töhfə idi. Azərbaycan Nazirlər Sovetinin qərarı ilə 1963-1964-cü tədris ilində kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisası üzrə axşam və qiyabi şöbələrinə, 1968-1969-cu tədris ilindən isə gündüz şöbəsinə tələbə qəbulu başlandı. Respublikamızın görkəmli kitabşünasları və kitab ticarəti mütəxəssislərinin bu vacib işə cəlb edilməsi nəticəsində Kitabxanaçılıq fakültəsinin təcrübəli kollektivi bu sahədə kadr hazırlığının təşkilində mühüm nailiyyətlər qazandı.

Təxminən 20 il uğurla fəaliyyət göstərən həmin şöbə, təəssüf ki, Azərittifaqda işləyən, fəqət kitab mədəniyyətindən xəbərsiz olan özündənrazı məmurların laqeydliyi ucbatından bağlandı. 1990-cı illərdə fakültənin dekanı, professor A.Xələfov yenidən yuxarı təşkilatlara müraciət edərək, kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisasına böyük tələbat olduğunu əsaslandırmış və bu şöbənin bərpasına çalışdı. Bu məsələnin müsbət həllində Azərbaycan Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin sədri, tanınmış jurnalist Rəşid Mahmudovun xüsusi rolu oldu. Belə ki, məhz onun yaxından köməyi sayəsində respublika hökuməti bu barədə müsbət qərar çıxardı.

Beləliklə, həmin şöbənin yenidən bərpa olunması istiqamətində professor A.Xələfovun uzun illər ərzində apardığı gərgin mübarizə öz

bəhrəsini verdi. Hazırda fakültədə Kitabşünaslıq və nəşriyyat işi kafedrası fəaliyyət göstərir.

Ümumiyyətlə, 1962-2012-ci illərdə Kitabxanaçılıq-informasiya fakültəsinə 3 dekan – 1962-1970; 1979-1993-cü illərdə tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov; 1970-1979-cu illərdə Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Hüseyn oğlu Əliyev; 1993-2012-ci illərdə tarix elmləri doktoru, professor Xəlil İsmayıl oğlu İsmayılov başçılıq etmişdir. 2012-ci ildən Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı fizika-riyaziyyat elmləri namizədi, dosent Azad İsa oğlu Qurbanovdur.

Hazırda Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycan Respublikasında kitabxanaşünas-informasioloq, kitabşünas və nəşriyyat redaktoru ixtisasları üzrə kadr hazırlayan yeganə fakültədir.

Kitabxanaçılıq-informasiya fakültəsində 050215 – Kitabxanaçılıq və informasiya, 050205 – Kitabşünaslıq ixtisasları üzrə bakalavr kadrlar; HSM 150017 – Kitabxanaşünaslıq, HSM 150020 – Biblioqrafiyaşünaslıq, HSM 150023 – Kitabxana fondlarının formalaşması və istifadəsi, HSM 060005 – Nəşriyyat işi və redaktəetmə ixtisaslaşmaları üzrə isə magistr kadrlar hazırlanır.

Fakültənin maddi-texniki bazası, elmi-pedaqoji potensialı tədrisin dünya standartları səviyyəsində təşkilinə imkan verir.

Fakültədə 4 kafedra – Kitabxanaşünaslıq; Biblioqrafiyaşünaslıq; Kitabxana resursları və informasiya-axtarış sistemləri; Kitabşünaslıq və nəşriyyat işi kafedraları fəaliyyət göstərir.

Kitabxanaçılıq-informasiya fakültəsində tədrisin təşkili və elmi-tədqiqat işlərinin aparılması ilə bacarıqlı elmi-pedaqoji kollektiv məşğul olur. Fakültədə 3 elmlər doktoru, professor, 13 fəlsəfə doktoru, dosent və 13 müəllim çalışır.

Kitabxanaçılıq-informasiya fakültəsi öz fəaliyyəti dövründə 5 min nəfərdən artıq yüksək ixtisaslı kadr hazırlamışdır.

Azərbaycan Respublikasının müstəqiliyi və informasiya cəmiyyəti şəraitində kitabxana işində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin daha geniş imkanlara malik olduğu nəzərə alınaraq 2003-cü ildə Kitabxanaçılıq fakültəsinin adı dəyişdirilmiş və "Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılmış, onun maddi-texniki bazası yaxşılaşdırılmış və kadr potensialı gücləndirilmişdir. Kitabxanaçılıq-informasiya ixtisasının hazırkı dövrün tələbatına uyğun şəkildə yeniləşməsində ABŞ-ın İllinoys və Urbana-Şampeyn universitetlərinin, Fransanın Nitsa Universitetinin Lion Ali Məktəbinin, Belçikanın Namur Ali Kitabxanaçılıq Məktəbinin, eləcə də Rusiya ali məktəblərinin təcrübələrindən geniş istifadə edilmişdir.

Fakültə 2008/2009-cu tədris ilindən Boloniya prosesinə qoşulmuşdur.

Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin kadr hazırlığı sahəsindəki fəaliyyəti həm kəmiyyət, həm də keyfiyyət cəhətdən yaxşılaşmış, bakalavriatura və magistratura təhsil pillələri üzrə 2500-ə yaxın kadr hazırlanmışdır.

Hazırda fakültədə bakalavr pilləsi üzrə 430, magistratura pilləsində isə 40 nəfər tələbə təhsil alır, 5 aspirant və 18 dissertant elmi axtarışlarını davam etdirir.

Müstəqillik şəraitində təhsil sahəsində aparılan islahatların əsas məqsədi müstəqil Azərbaycan Respublikasının təhsil sisteminin dünya standartları səviyyəsinə qaldırılması məsələsini həll etməkdir. Bu mühüm işdə Fakültə Elmi Şurası kollektivin əsas istinad nöqtəsi kimi fəaliyyət göstərir, onun işini istiqamətləndirir.

Kitabxanaçılıq-informasiya fakültəsində yüksək ixtisaslı kadrların hazırlanmasında, elmi-tədqiqat və metodiki işlərin aparılmasında, pedaqoji kadrların seçilib, yerləşdirilməsində 1962-ci ildən yaradılan Fakültə Elmi Şurasının rolu böyükdür.

Kitabxanaçılıq fakültəsinin Elmi Şurası fəaliyyət göstərdiyi müddətdə şərəfli yol keçmiş, fakültənin tarixində həlledici rol oynamışdır. Fakültədə elə bir tədris, elm və tərbiyə işi olmamışdır ki, Elmi Şuranın müzakirəsindən kənara qalsın. Elmi Şura fakültə tədris planının, fənn proqramlarının, metodik vəsaitlərin, ixtisas kursu, seçmə kurs və ixtisaslaşma proqramlarının, istehsalat təcrübəsi proqramlarının müzakirə və təsdiqində, elmi-tədqiqat işlərinin istiqamətinin müəyyənləşdirilməsində, dissertasiya işi və buraxılış işi mövzularının təsdiqində fakültənin ali orqanı kimi mühüm işlər görür. Elmi Şura eləcə də fakültədə təlim-tərbiyə işlərinin məqsədyönlü aparılmasına, tədris prosesinin keyfiyyətinin daha da yüksəldilməsinə istiqamət verir. Dekan və fakültəyə qəbul edilən bütün müəllimlər Elmi Şurada seçilməli olduqlarından professor-müəllim heyətinin komplektləşdirilməsində, seçilib yerləşdirilməsində Elmi Şuranın rolu olduqca böyükdür.

Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurası respublikamızda kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslığa dair yeganə elmi mərkəz olduğundan burada tez-tez kitabxana işinin inkişafına, əhaliyə kitabxana xidmətinin aktual problemlərinə dair məsələlər müzakirə edilir, məruzələr dinlənilir, elmi tövsiyələr hazırlanır.

1960-1970-ci illərdə Elmi Şuranın fəaliyyətində əsas yerlərdən birini müstəqil Kitabxanaçılıq fakültəsi üçün fərdi tədris planının təsdiqi tutmuşdur. Bu plan üç dəfə 1970, 1980 və 1990-cı illərdə tərtib və təsdiq edilmişdir. Bunlar o zaman Sovet İttifaqı miqyasında keyfiyyətli tədris planları kimi qiymətləndirilmişdir. 1990-cı illərdə Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən ölkədə çoxpilləli təhsil sitseminə keçilməsi ilə əlaqədar olaraq fakültə Elmi Şurası iki dəfə "Bakalavr" tədris planını, son illərdə isə

"Magistr" tədris planını müzakirə və təsdiq etmişdir. Elmi Şura son dövrlərdə yeni Təhsil Qanununa uyğun olaraq bütün fənn proqramlarının yenidən işlənib hazırlanmış variantlarını müzakirə və təsdiq etmişdir.

Məlum olduğu kimi, yüksəkixtisaslı kadrların hazırlığının strategiyası hesab edilən tədris planlarının hazırlanması və tətbiqi dövrün tələblərinə, elmi-texniki tərəqqinin səviyyəsinə və ixtisasın gələcək perspektivlərinə əsaslanır. Mövcud olduğu 65 il ərzində Kitabxanaçılıq-informasiya fakültəsində 9 tədris planından istifadə edilmişdir. İlk tədris planı 1947-ci ildə tərtib edilmişdir. Bu plan Sovetlər Birliyində ilk universitet tədris planı idi. 1955-ci ildə kitabxanaşünas-biblioqraf ixtisası üzrə ilk universitet tədris planı, 1970-cı ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin yeni tədris planı, 1984-cü ildə ilk dəfə olaraq ölkə üzrə Kitabxanaçılıq fakültəsinin fərdi tədris planı təsdiq edildi.

Azərbaycanın müstəqilliyi illərində Təhsil Qanununun tələblərinə uyğun olaraq, bakalavr pilləsi üzrə tədris planı işlənib hazırlandı. 1996-ci ildən Təhsil Nazirliyi tərəfindən təsdiq edilən ixtisas standartı meydana gəldi. Hazırda Bolonya prosesi ilə əlaqədar tədris planları yenidən işlənmişdir və bu tədris planında dünya kitabxanaçılıq təhsilinin ən mühüm nailiyyətləri öz əksini tapmışdır.

Hazırda Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurasının tərkibinə dekan dos. A.İ.Qurbanov (sədr), kafedra müdirləri prof. A.A.Xələfov, prof. X.İ.İsmayılov, dos. N.İ.İsmayılov, dos. K.İ.Aslan, dos. E.Y.Əhmədov, dos. M.Ə.Məmmədov, fakültənin aparıcı müəllimlərindən prof. B.V.Allahverdiyev, dos. S.M.Rzayev, dos. A.M.Əliyev, dos. N.M.Mehrəliyeva fəl. dok. X.T.Ağayeva (elmi katib), tələbə həmkarlar təşkilatının nümayəndəsi E.İbrahimli daxildir.

Kitabxanaçılıq-informasiya fakültəsində tələbələrin elmi-tədqiqat vərdişlərinin formalaşmasında Tələbə Elmi Cəmiyyəti mühüm rol oynayır.

Fakültədə yüksəkixtisaslı kadr korpusunun hazırlanmasında 65 illik fəaliyyət təcrübəsi olan TEC çox mühüm rol oynayır.

Hələ 1949-cu ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının nəzdində «Kitabxanaşünaslıq və biblioqrafiya» adlı ilk tələbə elmi dərnəyi yaradılmışdır. 1962-ci ildə müstəqil Kitabxanaçılıq fakültəsi yarananda həmin dərnəyin bazasında Tələbə Elmi Cəmiyyəti təşkil olunmuşdur.

1960-cı illərin ikinci yarısından etibarən Kitabxanaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin beynəlxalq əlaqələri yaranmağa başlamış, sonrakı dövrlərdə bu proses daha dinamik xarakter almışdır. Tələbə Elmi Cəmiyyəti bu dövrlərdə Moskva, Sankt-Peterburq, Kiyev, Daşkənd Mədəniyyət İnstitutları ilə, Vilnüs Dövlət Universitetinin, Tbilisi Pedaqoji İnstitutunun müvafiq şöbələri ilə əlaqələr yaratmış, BDU-nun Kitabxanaçılıq fakültəsinin tələbələri həmin institut və universitetlərin təşkil etdiyi elmi konfranslarda,

həmin institutların tələbələri isə Kitabxanaçılıq fakültəsinin təşkil etdiyi konfranslarda fəal iştirak etmişlər.

1982-ci ildə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin təşkil etdiyi Beynəlxalq Elmi Konfransda həmin universitet və institutların tələbələri də yaxından iştirak etmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri müntəzəm keçirilən Respublika Tələbə Elmi Konfranslarına ənənəvi olaraq Tələbə Elmi Cəmiyyətinin xətti ilə qoşularaq fəallıq göstərmiş, bir sıra mühüm göstəricilərə imza atmışlar. Ayrı-ayrı dövrlərdə fakültənin əlaçı tələbələrindən Mirzəməmməd Novruzov, Rasim Süleymanov, Nadir İsmayılov, Kərim Tahirov, Knyaz Aslan, İradə Həmidova və başqaları belə elmi tədbirlərdə aktual mövzularda məruzələrlə çıxış etmiş, müxtəlif dərəcəli diplomlara layiq görülmüşlər.

Azərbaycanın müstəqilliyi illərində fakültədə Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti yeni dövrün tələblərinə uyğun olaraq yenidən qurulmuşdur.

Hazırda Tələbə Elmi Cəmiyyəti özündə 4 dərnəyi birləşdirir: «Kitabxanaşünaslıq», «Biblioqrafiyaşünaslıq», «Kitabşünaslıq», «Kitabxana resursları və informasiya-axtarış sistemləri». Dərnəklərdə müxtəlif mövzularda məruzələrin müzakirəsi ilə yanaşı, elmi disputların, olimpiyadaların, müsabiqələrin keçirilməsi və s. kimi üsullardan geniş istifadə edilir.

Baş müəllim Akif Cəfərovun rəhbərlik etdiyi fakültə Tələbə Elmi Cəmiyyətinin bakalavriatura və magistratura pillələri üzrə 160-dan çox üzvü vardır.

Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq təhsili üzrə elmi-tədqiqat mərkəzi kimi formalaşmışdır. Fakültədə elmi-tədqiqat işləri istiqamətində həyata keçirilir:

Namizədlik və doktorluq dissertasiya işlərinin hazırlanması və müdafiəsi;

Monoqrafiyaların çap edilməsi;

Müvafiq sahələr üzrə tədris-metodik nəşrlərin hazırlanması və çap edilməsi;

Elmi və elmi-kütləvi xarakterli məqalələrin yazılması və dərc edilməsi.

Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq üzrə elmi fikrin ilk mərkəzi 1947-ci ildən yaradılmış «Kitabxanaşünaslıq və biblioqrafiya» kafedrası olmuşdur. Bu proses əvvəlcə tədris materiallarının hazırlanması ilə başlamış, 60-70-ci illərdən ciddi tədqiqatlarla davam etmişdir. Qeyd olunan sahələrin müstəqil elmi istiqamət kimi formalaşması Kitabxanaçılıq fakültəsinin ilk ali ixtisas təhsilli müəllimlərinin fədakar elmi əməyinin nəticəsində mümkün olmuşdur.

Aparılan araşdırmalar göstərir ki, 65 il ərzində fakültənin əməkdaşlarının 2500-dən çox elmi əsəri çap olunmuşdur. Kafedralar üzrə

aparıcı mövqe Kitabxanaşünaslıq kafedrasına məxsusdur. Belə ki, bəhs edilən dövrdə Kitabxanaşünaslıq kafedrasının əməkdaşlarının 1100-dən çox müxtəlif xarakterli elmi işi çap olunmuşdur. Biblioqrafiyaşünaslıq kafedrası üzrə əməkdaşların 500-ə yaxın əsərinin çap olunduğu müəyyən edilmişdir. Kitabşünaslıq və nəşriyyat işi kafedrasında professor-müəllim heyətinin 400-ə yaxın əsəri işıq üzü görmüşdür. Kitabxana resursları və informasiya-axtarış resursları kafedrasında isə bu rəqəm 400-ü keçmişdir.

Kitabxanaşünaslıq kafedrası üzrə aparılan tədqiqatların nəticəsi olaraq qədim dövrdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixi kompleks şəkildə öyrənilmişdir. Eyni zamanda ayrı-ayrı sahəvi kitabxanaların yaranması, inkişaf mərhələləri, müxtəlif regionlarda kitabxana işinin tarixi və təşkili məsələləri, müxtəlif kitabxana proseslərinin təşəkkülü və inkişaf qanunauyğunluqları, müstəqil tədqiqat işlərinin obyektinə çevrilmişdir. Azərbaycanda kitabxanaşünaslıq üzrə elmi-tədqiqat işlərinin təşkili və istiqamətləndirilməsi sahəsində Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun xüsusi xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə son 50 ildə Azərbaycan kitabxanaşünaslıq məktəbi formalaşmışdır. Yüksəkixtisaslı kitabxanaşünas alimlər korpusunun formalaşması da məhz kitabxanaşünaslıq kafedrasının fəaliyyəti ilə bilavasitə əlaqədar olmuşdur. Bu tədqiqatların nəticəsində professor Abuzər Xələfovun 250-ə yaxın elmi əsəri çap olunmuşdur. Son illərdə kafedranın alimlərindən Knyaz Aslanın, Mehmanəli Məmmədovun, Elçin Əhmədovun, Pərviz Kazıminin səmərəli elmi-tədqiqat fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Nəticə etibarilə Azərbaycanda müxtəlif tipli və növlü kitabxanaların, o cümlədən Naxçıvan Muxtar Respublikasında kitabxana işinin, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində kitabxana işinin, kitabxanaların metodik-təminat sisteminin, kənd əhalisinə kitabxana xidmətinin, neft sənayesi üzrə mütəxəssislərə kitabxana-informasiya xidmətinin, uşaq və məktəb kitabxanalarının, kitabxanalararası abonomentin, ayrı-ayrı kitabxanaların tarixinin və müasir vəziyyətinin tədqiqi məhz bu kafedranın elmi-tədqiqat fəaliyyətinin nəticəsi olaraq həyata keçirilmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrası müvafiq sahə üzrə elmi fikrin mərkəzi kimi xüsusi mövqeyə malikdir. Kafedranın əməkdaşlarının elmi-tədqiqat istiqaməti Azərbaycan biblioqrafiyasının tarixinin, təşkili və idarə olunmasının elmi əsaslarının müəyyənləşdirilməsi, mövcud biblioqrafik resurslardan səmərəli istifadənin optimallaşdırılmasına təsir edən konsepsiyanın hazırlanmasından ibarətdir. Bu istiqamətdə aparılan tədqiqatların bir qismi Azərbaycan biblioqrafiyasının tarixinin köklü şəkildə öyrənilməsi ilə bağlıdır. Tədqiqatların digər istiqaməti ayrı-ayrı kitabxana və informasiya orqanlarının biblioqrafik fəaliyyətinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədardır. Son illərdə Biblioqra-

fiyaşünaslıq kafedrasında aparılan tədqiqatların ayrıca istiqaməti kimi biblioqrafik resursun yerləşməsi və ondan səmərəli istifadə məsələlərinin tədqiqidir. Kafedranın professor-müəllim heyətinin yaradıcılığının kəmiyyət xarakteristikası baxımından təhlili göstərir ki, Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyev, görkəmli biblioqraf-alim Əşrəf Xələfov, dosent Nadir İsmayılov və başqaları daha səmərəli fəaliyyət göstərmişlər. Professor Zöhrab Əliyevin yaradıcılığında mərkəzi mövzu Azərbaycan biblioqrafiyasının tarixinin tədqiq edilməsidir. O, bu istiqamətdə dissertasiya müdafiə etmiş, bir neçə dərslik və dərs vəsaiti, onlarla elmi məqalə çap etdirmişdir. Dosent Əşrəf Xələfov isə Azərbaycan ədəbi biblioqrafiyasının, onun ilk qaynaqları olan təzkirələrin biblioqrafik informasiya mənbəyi kimi tarixini və mahiyyətini tədqiq edən nüfuzlu alimdir. Dosent Nadir İsmayılovun elmi-tədqiqat fəaliyyəti Azərbaycanın kitabxana-biblioqrafiya resurslarının təşəkkülü, inkişafı, yerləşməsinin müasir vəziyyəti və ondan səmərəli istifadə edilməsi yolları ilə bağlıdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı kafedralarından biri də Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasıdır. Kafedranın elmi-tədqiqat istiqaməti kitabxanaların informasiya resurslarının tədqiqi və ondan istifadənin səmərəli yollarının müəyyən edilməsidir. Bu istiqamətdə tədqiqatların təşkili sahəsində kafedra müdiri, tarix elmləri doktoru, professor Xəlil İsmayılovun, eləcə də aparıcı mütəxəssislərdən dos. A.Əliyevin, dos. S.Xələfovanın, baş müəllim S.Mustafayevanın və başqalarının fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Onlar müvafiq istiqamətdə 100-dən çox elmi əsər, o cümlədən monoqrafiya, dərs vəsaiti və elmi məqalələr nəşr etdirmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı kafedralarından biri də Kitabşünaslıq və nəşriyyat işi kafedrasıdır. Kafedranın elmi-tədqiqat istiqaməti Azərbaycan kitab mədəniyyətinin tarixi və müasir vəziyyətinin öyrənilməsi, nəşriyyat işinin təşkili məsələlərinin tədqiq edilməsidir. Bu istiqamətdə aparılan tədqiqatlarda professor Bayram Allahverdiyevin fəaliyyyti daha çox diqqəti cəlb edir. Onun yaradıcılığında Orta əsr Azərbaycan kitabının xüsusiyyətləri, Azərbaycan texniki kitabının tarixi, dünya kitabçılıq işinin tarixi və s. məsələlər mühüm yer tutur. Son zamanlar kafedra müdiri dos. Knyaz Aslanın nəşriyyat işinin və redaktor sənətinin müasir problemləri, ədəbiyyat növlərinin redaktəsi ilə bağlı apardığı araşdırmaların nəticəsi kimi nəşr etdirdiyi elmi əsərlər aktuallıq kəsb edir. Bundan başqa kafedranın əməkdaşlarından dos. N.Mehrəliyeva, dos. Ş.Quliyeva, fəlsəfə doktoru V.Musalı, fəlsəfə doktoru Ə.Bayramov və b. kitabşünaslığın, nəşriyyat işinin və redaktənin ayrı-ayrı istiqamətləri üzrə ciddi araşdırmalar aparırlar.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi beynəlxalq əlaqələr sahəsində zəngin təcrübəyə malikdir. Fakültə fəaliyyətə

başladığı ilk vaxtlardan etibarən SSRİ-nin nüfuzlu elm, təhsil mərkəzləri ilə əlaqələr yaratmağa başlamış və bu əlaqələr tədrisin keyfiyyətini və mütəxəssis hazırlığınının səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Fakültənin Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Daşkənd Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Vilnyüs Dövlət Universiteti, Tbilisi Dövlət Pedaqoji İnstitunun Kitabxanaçılıq fakültələri ilə sıx elmi əlaqələri və əməkdaşlığı olmuşdur. Bu elmi əlaqələrin yaradılmasında, inkişafında böyük rolu və müstəsna xidmətləri olmuş alimlər arasında professor Abuzər Xələfovun, professor Zöhrab Əliyevin, professor Xəlil İsmayılovun, professor Bayram Allahverdiyevin, dosent Rasim Kazımovun və başqalarının xüsusi rolu olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsi respublika daxilində də müvafiq elm, təhsil və mədəniyyət ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Bu baxımdan fakültənin M.F.Axundov adına Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası və digər respublika əhəmiyyətli kitabxanalarla əlaqələri daim inkişaf etmişdir. Fakültənin bu əlaqələri, respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra daha da intensivləşmişdir.

Bu sahədə Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin (prezidenti prof. A.A.Xələfovdur) və Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının (prezidenti prof. X.İ.İsmayılovdur) böyük rolu olmuşdur. Təsis olunduğu vaxtdan dərhal sonra hər iki qurum dünyanın bir çox ölkələrində fəaliyyət göstərən kitabxana təşkilatları, beynəlxalq təşkilatlar ilə sıx işgüzar əlaqələr qurmağa başlamışdır.

Son zamanlar akademik Abel Məhərrəmovun rəhbərliyi ilə universitetdə böyük quruculuq işləri və təhsil islahatının aparılması, universitetin beynəlxalq nüfuzunun artması, maddi-texniki bazasının möhkəmləndirlməsi və s. kimi təqdirəlayiq tədbirlər Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivini də yeni nailiyyətlər qazanmağa səfərbər edir. Olduqca xoşdur ki, rektorluğu dövründə akademik Abel Məhərrəmov həmişə Kitabxanaçılıq-informasiya fakültəsinə xüsusi qayğı göstərmiş, onun inkişafı naminə konkret əmrlər və sərəncamlar imzalamışdır. Məsələn, 1999-cu ildə məhz onun əmri ilə respublikamızda ilk dəfə olaraq Əməkdar elm xadimi, professor Abuzər Xələfovun rəhbərliyi ilə Kitabxanaşünaslıq kafedrasının nəzdində "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyası yaradılmış, bu laboratoriya BDU Elmi Kitabxanasının kompüterləşdirilməsində və elektron kataloqun yaradılmasında çox böyük işlər görmüşdür.

Qədirbilən kollektivimiz bu faktı da ehtiramla xatırlayır ki, 2004-cü ildə məhz akademik A.Məhərrəmovun əmri ilə informasiya cəmiyyətinin tələbləri nəzərə alınmaqla Kitabxanaçılıq fakültəsinin adı dəyişdirilərək

"Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılmış, tədris planına kitabxana-informasiya texnologiyasına, kitabxana işinin kompüterləşdirilməsinə, elektron kitabxanaların, elektron kataloqların yaradılmasına və s. dair yeni fənlər daxil edilmiş, eyni zamanda fakültənin qəbul planı sabitləşmiş, maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir.

İnformasiya cəmiyyəti şəraitində dünyada baş verən qlobal proseslər, informasiya-kommunikasiya texnologiyalarının həyatın bütün sahələrinə, o cümlədən kitabxana işinə nüfuzu və təsiri Kitabxanaçılıq-informasiya fakültəsinin fəaliyyətinə də təsir göstərməkdədir. Son zamanlar fakültəmizin tədris və elmi həyatında bir sıra müsbət dəyişikliklər baş vermiş, müəyyən islahatların başlanğıcı qoyulmuşdur. Hər şeydən öncə yeni dekanlıq öz fəaliyyət planını akademik A.Məhərrəmovun apardığı islahatlar proqramına uyğun şəkildə qurmaq üçün tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə səylə çalışır. Tədrisdə yeni innovasiyaların tətbiqi, tədrisin informasiya təminatının ödənilməsi, Bolonya prosesinin tələblərinə ciddi əməl olunması, biliyin qiymətləndirilməsinin, şəffaflığının və ədalətliliyinin artırılması, peşə hazırlığının yüksəldilməsi və s. kimi mühüm məsələlər bu istiqamətin tərkib hissəsinə daxildir. Artıq bu sahədə bir sıra konkret irəliləyişlər diqqəti cəlb etməkdədir.

Əsas məsələlərdən biri fakültənin tədris planlarının və proqramlarının yeniləşməsi ilə bağlıdır. İlk növbədə yeni tədris ilindən magistratura təhsil pilləsində Bolonya prosesinin tətbiqi ilə bağlı olaraq tədris planının dəyişdirilməsi nəzərdə tutulur. Bununla bağlı bir neçə aydır ki, dekan və kafedra müdirləri dövrün və zamanın tələbindən irəli gələn yeni fənlərin tədris planına əsaslandırılmış şəkildə daxil edilməsi üçün xeyli iş görmüşlər.

Əlbəttə, Azərbaycanda tədris prosesi dinamik inkişaf etdiyindən kitabxana-informasiya fəaliyyətində informasiya cəmiyyətinin sosial sifarişi ilə baş verən yeniliklər bakalavriat tədris planında da dəyişikliklər aparılmasını tələb edir. Artıq dekanlıq və kafedra müdirlərii bu istiqamətdə işlərin operativ şəkildə görülməsi məqsədilə ciddi hazırlıq işlərinə başlamışlar.

Tədrisin texniki baza təminatının yaxşılaşdırılması da gündəlikdə duran vacib problemlərdəndir. Bu ilin sonunadək fakültəmizdə fəaliyyət göstərən tədris laboratoriyalarının müasir kompüter və digər texniki avadanlıqlarla təchiz olunması, fakültədə xüsusi hibrid kitabxananın yaradılıb istifadəyə verilməsi dekanlığın həyata keçirməyi planlaşdırdığı tədbirlər sırasındadır.

Bu yaxınlardfa fakültəmizdə "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın aktual problemləri" adlı elmi seminar yaradılmış, Azərbaycan kitabxanaşünaslıq elminin banisi, Əməkdar elm xadimi, professor A.Xələfovun sədrliyi ilə xüsusi təşkilat komitəsi fəaliyyətə başlamışdır. Respublikamızda analoqu olmayan bu seminarın tezliklə təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də nüfuz qazanacağını əminliklə söyləmək olar.

Bununla yanaşı, artıq fakültənin 4 kafedrasında – Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Kitabxana resursları və informasiya-axtarış sistemləri, Kitabşünaslıq və nəşriyyat işi kafedralarında mövcud olan elmi seminarların fəaliyyəti gücləndirilmiş, bu qurumlarda aparılan elmi tədqiqat işlərinin keyfiyyətinə və aktuallığına nəzarətin təmin olunması üçün konkret tapşırıqlar verilmişdir. Bu günə qədər keçirilən elmi seminarlar özünün yüksək səviyyəsi ilə diqqəti cəlb edir.

Eyni zamanda Bakı Dövlət Universitetində yeni reytinq sisteminin tətbiq olunması nəzərə alınaraq professor-müəllim heyətinin elmi tədqiqat işlərinin nəticələrinin nüfuzlu elmi jurnallarda çap olunması, əməkdaşların beynəlxalq konfranslarda iştirak etməsi, fakültəmizdə respublika və beynəlxalq miqyaslı elmi konfrans və seminarların keçirilməsi də yaxın gələcəkdə gerçəkləşdirilməsi nəzərdə tutulan vacib məsələlərdəndir.

Bir vacib məqamı da vurğulamalıyıq ki, dekanlıq fakültə müəllimlərinin peşə səviyyəsinin artırılması istiqamətində işlərin görülməsi üçün də müəyyən hazırlıq tədbirləri aparır. Bu baxımdan fakültənin beynəlxalq əlaqələrinin təmin edilməsi, Türkiyənin, Rusiyanın, İranın təhsil və informasiya müəssisələri ilə təcrübə mübadiləsinin aparılması, qarşılıqlı yaradıcılıq ezamiyyətlərinin təşkili, eləcə də yaxın gələcəkdə xarici ölkələrin ali təhsil ocaqları ilə tələbə mübadiləsinə nail olunması nəzərdə tutulur.

Son aylarda fakültəmizin sosial-mədəni həyatında canlanma baş vermişdir. Müəllim və tələbə kollektivinin birgə səyi ilə Azərbaycan xalqının tarixi və əlamətdar günlərinin qeyd edilməsi, xüsusilə 8 Mart - Beynəlxalq Qadınlar Günü, Xocalı soyqırımı, Novruz bayramı, 31 Mart - azərbaycanlıların soyqırımı və s. kimi günlərələ bağlı mədəni-kütləvi tədbirlərin keçirilməsi gənclərin mənəvi tərbiyəsində mühüm rol oynayır. Yeri gəlmişkən, Novruz bayramı münasibətilə keçirilən müsabiqədə Kitabxanaçılıq-informasiya fakültəsinin Bakı Dövlət Universiteti üzrə 2-ci yeri qazanması yeni uğurların başlanğıcı kimi dəyərləndirilə bilər. Eyni zamanda fakültə əməkdaşlarının ad günlərinin, yeni kitab təqdimatlarının, qazanılmış nailiyyətlərin qeyd olunması, habelə müxtəlif bilik və idman yarışlarının keçirilməsi də müəllim və tələbə həyatına rəng və məna çalarları qatır.

Bu ilin sentyabrında Azərbaycanda yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasının – Bakı Dövlət Universitetində Kitabxanaçılıq şöbəsinin açılmasının 65, müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılmasının isə 50 yaşı tamam olur. Bu illər ərzində fakültəmiz böyük və şərəfli inkişaf yolu keçmiş, 6 mindən artıq yüksək ixtisaslı-peşəkar kitabxanaçı-informasioloq kadrları hazırlamışdır. Fakültənin hazırladığı kadrlar demək olar ki, respublikamızın bütün kitabxanalarında fəaliyyət göstərir, kitabxana işinin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində yenidən qurulmasında, əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində yaxından iştirak edir. Bu

dövrdə respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafı sahəsində olduqca böyük uğurlar qazanmasında Kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı və ilk dekanı professor Abuzər Xələfovun səmərəli fəaliyyətini xüsusi vurğulamaq lazım gəlir. Onun xidməti sayəsində yüksək ixtisaslı kitabxanaçı-informasioloq kadrların hazırlanması istiqamətində böyük nailiyyətlər qazanılmış, bu fakültə kitabxanaçılıq təhsilinin və elminin ən qabaqcıl mərkəzlərindən birinə çevrilmişdir.

Prof. Abuzər Xələfov Azərbaycanda kitabxana işi sahəsində ilk namizədlik və doktorluq dissertasiyası müdafiə etmiş, milli kitabxanaşünaslıq elmi məktəbinin banisi olmuş, özünün ardıcıllarını yetirmişdir.

Fakültənin yaradıcısı və ağsaqqalı prof. A.Xələfov müstəqillik illərində respublikamızın və BDU-nun ictimai həyatında yaxından iştirak etmiş, “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununu hazırlayan işçi qrupunun rəhbəri, “Təhsil Qanunu”nun işçi qrupunun üzvü, Bakı Dövlət Universitetinin Nizamnaməsini hazırlayan komissiyanın üzvü olmuşdur.

Yüksək ixtisaslı kitabxanaçı-informasioloq kadrların hazırlanmasında, kitabxanaşüanslıq elminin inkişaf etdirilməsində, kitabxanaşünaslığa dair ilk milli dərsliklərin yaradılmasında xidmətlərinə görə prof. A.Xələfov “Şöhrət” ordeni ilə təltif edilmiş, “Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi”, “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adlarına layiq görülmüşdür. 2008-ci ildən isə o, Prezident təqaüdçüsüdür. 2011-ci ildə prof. A.Xələfovun 80 illik yubileyi respublika və beynəlxalq miqyasda geniş qeyd edilmiş, bu yubiley bütövlükdə Bakı Dövlət Universitetinin və ölkəmizin mədəniyyət bayramına çevrilmişdir.

Professor A.Xələfovun uzun illər ərzində yaratdığı ənənələr bu gün uğurla davam etdirilir. Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi bu ənənələri daha da inkişaf etdirmək və BDU-da həyata keçirilən təhsil islahatlarına yeni tədris və elmi nailiyyətlərlə cavab vermək üçün öz potensialından daha səmərəli istifadə etməyə cəy göstərir.

Biz bütün bu nailiyyətlərə görə, eləcə də Kitabxanaçılıq-informasiya fakültəsinin daha da inkişaf edib çiçəklənməsi üçün öz qayğı və diqqətini əsirgəməyən, kollektivin kadr siyasətinin formalaşdırılmasına və gücləndirilməsinə hərtərəfli kömək göstərən, təhsil islahatlarının uğurla həyata keçirilməsi üçün hər cür şərait yaradan möhtərəm rektorumuz akademik Abel Məhərrəmova qədirbilən professor-müəllim heyəti və tələbə kollektivi adından ürəkdən minnətdarlığımızı bildiririk!

Doğma universitetimizin daha da çiçəklənməsi naminə bu şərəfli yolda hər kəsə yeni-yeni uğurlar arzulayırıq!

# БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА НА ПУТИ РАЗВИТИЯ

**Azad QURBANOV**
***Bakı Dövlət Universiteti***
***azadbey@mail.ru***

**Knyaz ASLAN**
***Bakı Dövlət Universiteti***
***knyazaslan@mail.ru***

***Ключевые слова:*** *высшое библиотечное образование, библиотечный-информационный факультет, библиография, библиотековедения, книговедения*

*В статье рассмотрены основные направления создания и развития высшего библиотечного образования в Азербайджане. Здесь же обобщены материалы развития по научно-педагогическом и учебном направлениях библиотечно-информационного факультета Бакинского Государственного Университета.*

# THE LIBRARY-INFORMATION FACULTY THE BAKU STATE UNIVERSITY IN WAYS OF DEVELOPMENT

**Azad QURBANOV**
***Bakı Dövlət Universiteti***
***azadbey@mail.ru***

**Knyaz ASLAN**
***Bakı Dövlət Universiteti***
***knyazaslan@mail.ru***

**Keywords:** *Educational of higher library science, the library-information faculty, bibliography, librarianshipibrary science, bibliology*

*The article deals with the main directions of the creation and development of higher education libraries in Azerbaijan. It also summarizes the development of materials for science teaching and learning areas of the library and information department of Baku State University.*

# СОХРАНЕНИЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ В БИБЛИОТЕКАХ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ УКРАИНЫ: ПРОБЛЕМЫ И ИХ РЕШЕНИЕ

**И. ЖУРАВЛЕВА**
***директор Центральной научной библиотеки (ЦНБ) Харьковского национального университета имени В. Н. Каразина, председатель секции по организации и хранения информационных ресурсов НМБК МОН молодежи и спорта Украины***
irina.kazimir@mail.ru

***Ключевые слова:*** *Бибилиотечное обслуживание, национальная достаяние, современное информационная обслуживание, сохранения национального населения.*

*В статье рассмотрены основные проблемы научных библиотек высших учебных заведений Украины по сохранению книжных памятников, освещена деятельность секции по организации и хранения информационных ресурсов Научно-методической библиотечной комиссии НМБК МОН молодежи и спорта Украины. В библиотеках вузов Украины собраны уникальные коллекции, библиотеки вузов постоянно решают проблемы сохранности и доступности фондов. Проанализирована деятельность библиотек в этом направлении за последние пять лет. Представлен проект электронной коллекции книжных памятников **«e-Scriptorium»: редкие издания для учебного процесса и научных исследований»**.*

Развитие науки и образования в современном обществе, основанном на знаниях, невозможно без деятельности университетов, большинство же стратегических задач современного университета тесно связано с деятельностью его научной библиотеки.

Библиотеки высших учебных заведений Украины – это информационная основа образовательного и научно-исследовательского процессов, творческая лаборатория, от ресурсов и услуг которой во многом зависит качество обучения и научных исследований. Современные вузовские библиотеки ассоциируются с такими понятиями, как «новые технологии», «знание», «автоматизация», «информатизация».

С 90-х годов XX века в вузовских библиотеках Украины началась систематическая работа по созданию электронных каталогов, а в сети Интернет появились сайты библиотек. В течение двадцати лет библиотеки прошли сложный путь и накопили достаточный опыт в автоматизации как отдельных библиотечных структур, так и библиотеки в целом.

Постоянно обеспечивая учебный и научно-исследовательский процессы, осваивая работу с новыми информационными технологиями, библиотекари высших учебных заведений не оставляют без внимания проблемы, связанные с безопасностью и сохранностью своих фондов.

В настоящее время все больше вузовских библиотек Украины не только работает со студентами, аспирантами, профессорско-преподавательским составом, научными работниками своих вузов, но и предоставляет свои фонды и информационные ресурсы для использования всем желающим, начиная с учащихся старших классов.

Еще в 2002 г. заведующая отделом редких книг и рукописей Научной библиотеки МГУ имени М. В. Ломоносова И. Л. Великодная отмечала, что «... в момент внедрения компьютерных технологий в наши библиотеки перед всеми нами стояла основная задача - создание электронного каталога на новые поступления. Эту задачу выполнили, наверное, все (для справки: в Харьковском зональном методическом объединении на конец 2011 г. в электронные каталоги внесено около 4 млн. записей. Так, электронный каталог и электронный заказ в ЦНБ доступен читателям через Интернет круглосуточно. На 1.01.2012 в ЭК ЦНБ ХНУ имени В.Н.Каразина содержится 700 тыс. названий и более 900 тыс. экземпляров). Теперь же перед библиотеками стоят цели более сложные – описать и создать электронные каталоги на свои старые редкие фонды ... Создание единой базы данных редкого фонда ВУЗовских библиотек - вот цель и задача XXI века» [1, с.11].

Сегодня библиотеки в Украине уже представляют читателям в сети Интернет полнотекстовые варианты книг, в том числе и редкие издания, так, как, например, это делает Научная библиотека имени М.А.Максимовича Киевского национального университета им. Т.Шевченко. Благодаря полученному гранту в библиотеке проходит работа по оцифровке старопечатных книг. На сайте библиотеки в цифровом репозитарии Old Printed Books *www.rarelib.undp.org.ua/ukr* [2] выставлены полнотекстовые версии старопечатных книг. Специалисты уже практически перестали спорить о том, что для долговременного хранения информации приоритетным является процесс микрофильмирования, а для предоставления ее читателю – оцифровка. Создание полнотекстовых копий книг является трудоемким, но необходимой мерой не только для обеспечения доступа читателей к раритетам, но и для сохранения оригиналов, особенно тех изданий, которые крайне нуждаются в реставрации.

Общий фонд библиотек вузов составляет 122 094 555 экземпляров. Фонд редких и ценных изданий в научных библиотеках вузов Украины составляет более 1 млн. экземпляров.

В основном книжные памятники мирового и общенационального значения, коллекции уникальных изданий хранятся в научных библиотеках классических университетов. Среди них – рукописи, архивные документы, инкунабулы, палеотипы, восточнославянские первопечатные издания, книги гражданской печати XVII – первой половины XIX в., личные и семейные библиотеки, прижизненные издания произведений классиков науки, литературы, искусства, редкие и ценные периодические издания, книги с автографами, ценные издания регионального значения.

История и фонды каждой библиотеки уникальны. Фонды библиотек классических университетов формировались на протяжении нескольких веков. Три университетские библиотеки Украины получили за последние десять лет статус библиотеки национального достояния.

**2002 год.** Фонд рукописей, старопечатных книг, редких изданий и фонд «Буковинензия» Научной библиотеки Черновицкого национального университета имени Юрия Федьковича признан научным объектом, составляющим национальное достояние (см. «Постановление Кабинета Министров Украины» № 472-р от 19 сентября 2002 г.). Общий фонд НБ Черновицкого национального университета имени Юрия Федьковича насчитывает около 2,6 млн. экземпляров. В отделе редких и ценных книг, которое было основано в сентябре 1986 года хранится около **70 тыс. экз.:** инкунабулы, палеотипы, отечественные и иностранные старопечатные издания, личные архивы. **Хронология коллекций: XIII в. – XX вв. [3].**

**2004 год.** Фонд старопечатных, редких изданий и рукописей Научной библиотеки Одесского национального университета имени И.И.Мечникова становится объектом национального достояния *(см. «Постановление Кабинета Министров Украины» № 124 от 22 сентября 2004 г.).* В фонде старопечатных, редких изданий и рукописей Научной библиотеки Одесского национального университета имени И. И. Мечникова находится более **100 тыс. единиц хранения,** в том числе: старопечатные (издания XV-XVIII вв.), редкие и ценные издания XIX–XX вв., периодические издания XVII-XX вв., частные коллекции, принадлежавшие выдающимся ученым, государственным деятелям, профессорам университетов, рукописные и архивные материалы [4].

**2008 год.** Решением Кабинета Министров Украины от 21 октября 2008 г. (№ 1345-р), по представлению министра образования и науки И.А.Вакарчука, фонд рукописных, старопечатных и редких книг Научной библиотеки Львовского национального университета имени Ивана Франко включен в Государственный реестр научных объектов, составляющих национальное достояние. Отдел рукописных, старопечатных и редких книг имени Ф.П.Максименко Научной библиотеки Львовского

национального университета имени Ивана Франко был основана в 1905 г., сегодня он насчитывает более **120 тысяч единиц хранения**: рукописи, документы на пергаменте и инкунабулы, палеотипы, отдельные коллекции [5].

Руководители библиотек, уже получивших такой важный статус, подчеркивают: «Научный объект, который составляет национальное достояние – это уникальный объект, не поддающийся воспроизведению, потеря или разрушение которого будет иметь негативные последствия для развития науки и всего общества. Решение комплекса проблем, связанных с сохранением и изучением этого объекта – важной составляющей культурного и информационного потенциала народа, – **обеспечит доступность документального наследия прошлого для нынешнего и будущих поколений. Вместе с тем, надлежащее его функционирования позволит ученым Украины и мира ознакомиться с широким кругом ценных для истории мировой цивилизации источников»[**4].

В мае 2010 г. согласно плану МОН Украины на 2010 год (Письмо МОН Украины № 1/9-58 от 04.02.2010 «Об организации и проведении конференций и семинаров по проблемам высшего образования и науки в 2010 году») на базе Центральной научной библиотеки Харьковского национального университета имени В.Н.Каразина совместно с Научной библиотекой Киевского национального университета имени Т.Г.Шевченко была проведена Международная научно-практическая конференция «**Библиотеки высших учебных заведений Украины на пути к мировому информационному пространству».** В работе научно-практической конференции приняли участие 255 представителей руководящего состава и специалистов вузовских библиотек, книготорговых фирм, издательств, фирм-разработчиков информационных технологий из Украины, России, Польши, США, преподаватели Харьковского национального университета имени В.Н.Каразина. Участники конференции поддержали обращение Центральной научной библиотеки ХНУ имени В.Н.Каразина о ходатайстве перед Министерством образования и науки Украины о присвоении **фонду рукописей, редких и ценных изданий XII-начала XX веков** ЦНБ ХНУ имени В.Н.Каразина статуса научного объекта, составляющего национальное достояние Украины.

В библиотеке Каразинского университета хранится коллекция изданий XII–XX веков (61 777 экз.), коллекция книг по искусству (65918 экз.), издания XIX века (около 400 тысяч), кроме того – большая коллекция периодических изданий XVIII–XIX в. [6]. Фонд состоит из рукописных документов, начиная с XII в. (956 единиц хранения). Среди рукописей – «Универсалы» украинского гетмана И.Мазепы (1704 г.), «Летопись» Грабянки (нач. XIX в., материалы по истории Украины XVII–

XVIII вв.); иисьма И.Франко к писательнице Н.Кобринской (1884–1886 гг); коллекция польских рукописей, 24 греческие рукописи, 24 восточных рукописи (11 арабских, 9 турецких, 1 персидская, 2 рукописи индийского происхождения, одна из них – на пальмовых листьях). Фонд иностранных изданий насчитывает более 700 000 экземпляров на основных европейских языках. Среди восточнославянских книжных памятников – собрание книг кириллической и гражданской печати, прижизненные издания классиков науки и литературы, личные библиотеки профессоров Харьковского университета: А.А.Потебни, Н.Ф.Сумцова, Д.М.Синцова, Н.И.Криштафовича и др. В библиотеке хранятся издания типографии Харьковского университета, основанной в 1804 г. Среди них – и первые в Украине журналы и газеты, вышедшие из типографии университета: «Харьковские известия» (1817–1823), «Харьковский Демокрит» (1816), «Украинский вестник» (1816–1820), «Украинский журнал» (1823–1825).

Сохранение уникальных коллекций ставит перед библиотеками серьезные проблемы. Все библиотеки вузов Украины проводят работу по сохранению фондов. В библиотеках проводятся переучеты документов, которые завершаются актами проверок. Продолжаются исследования личных коллекций и отдельных редких изданий, издаются библиографические указатели, каталоги. Активизировалась работа по выявлению редких изданий и создания отделов, работающих с ними.

В 2009 г. ЦНБ ХНУ имени В.Н.Каразина стала участницей проекта «Электронные библиотеки Украины: Центры знаний для университетов Украины» и представила в Интернет университетский репозитарий *(http://dspace.univer.kharkov.ua/?locale = uk).* В электронном архиве размещаются статьи ученых, сотрудников и студентов университета, авторефераты, труды ученых, работавших в предыдущие годы (с сохранением авторского права) [8].

Каждая из библиотек, работающая с редкими изданиями, с целью сохранения оригиналов пытается тем или иным путем решать проблемы их копирования. В конце 2008 г. ХНУ имени В. Н. Каразина приобрел для библиотеки компактный книжный сканер ATIZ Book Snap с программным обеспечением Book Drive Capture и Book Drive Editor, со специальной V-образной базовой подставкой под книги (так называемую, «книжную колыбель»). Раскрытие книги – до 120°. Сканер работает с помощью цифровой фототехники (две цифровые камеры Canon Powershot G9), выполняет полноцветное сканирование книг, охватывает 2 страницы книги одновременно. Скорость оцифровки – до 500 страниц в час. Заслушав на заседании Совета по научной и методической работе библиотеки доклад о том, какие издания надо оцифровывать в первую очередь, Совет принял решение переводить в электронную форму редкие

издания, находящихся в крайне плохом состоянии и в единственном экземпляре и издания, которые нужны исследователям и используются в учебном процессе факультетов. Интерес к истории Харьковского университета является постоянным не только у преподавателей и студентов Харькова, но и в ученых из разных городов и стран. Поэтому формирование электронной коллекции изданий по истории университета также является приоритетной. Сначала оцифровываются первые издания Харьковского университета – списки студентов, уставы, доклады, отчеты.

Решением Коллегии Министерства образования и науки Украины от 22 ноября 2007 г. Центральная научная библиотека Харьковского национального университета имени В.Н.Каразина возглавляет секцию Научно-методической библиотечной комиссии МОН молодежи и спорта Украины по организации и хранения информационных ресурсов в библиотеках вузов [7].

Цель и задачи члены секции видят в следующем:

- Изучить современное состояние сохранности документов на традиционных и новых носителях в библиотеках вузов Украины;
- Лоббировать интересы библиотек вузов по участию их в Государственной программе «Библиотека XXI»;
- Организовывать семинары, мастер-классы для библиотекарей вуза с участием ведущих специалистов Украины, России и специалистов других стран, работающие в направлении сохранения фондов и изданий на различных информационных носителях;
- Способствовать деятельности библиотек по организации научно-исследовательской работы в области сохранения информационных ресурсов;
- Содействовать сотрудничеству между библиотеками и организациями в изучении вопросов сохранения информационных ресурсов.

Секция предложила научным библиотекам вузов Украины принять участие в создании репозитария (электронного архива) открытого доступа **«e-Scriptorium»: редкие издания для учебного процесса и научных исследований** *(http://escriptorium.univer.kharkov.ua/?locale=uk).*

Эту работу было предложено начать библиотекам классических университетов Киева, Львова, Одессы, Донецка, Харькова, которые одновременно являются методическими зональными центрами библиотек высших учебных заведений III и IV уровней аккредитации. Но к проекту могут присоединяться и библиотеки других университетов Украины, где хранятся редкие издания. Уникальные фонды пользуются, прежде всего, спросом при подготовке специалистов в области филологии, истории, философии. Возможность использования читателями электронных версий этих изданий будет не только способствовать учебному процессу и

научным исследованиям, но и даст возможность библиотекам сохранить оригиналы редких изданий. Репозитарий откроет преподавателям, студентам и аспирантам доступ к электронным версиям ценных изданий не только своей библиотеки, но и других, что, практически, невозможно сделать другим способом. Было предложено создать репозитарий на базе сервера Центральной научной библиотеки Харьковского национального университета имени В.Н.Каразина, который имеет достаточно ресурсов для содержания такой базы данных. Налаживание программной оболочки, разработку структуры репозитария и сопровождение взяли на себя специалисты ЦНБ. Репозитарий **«e-Scriptorium»: редкие издания для учебного процесса и научных исследований»** создан в программном обеспечении DSpace 1.7. На конец мая 2012 г. в электронном архиве представлено 320 полнотекстовых вариантов редких и ценных изданий.

Перед всеми библиотеками остро стоит проблема обеспечения физической сохранности уникальных изданий и одновременно возрастает проблема обеспечения доступа к информации, содержащейся в них. И именно для вузовских библиотек наиболее актуален вопрос не только описания, сохранения, но и использования редких фондов как в учебных целях, так и в научных.

Надеемся, что университетский открытый архив книжных памятников поможет сохранить оригиналы книжных памятников, введет их в научный оборот. Цифровые копии соберутся в единую электронную коллекцию, что позволит исследователям изучать культурное и историческое достояние, которое хранится в научных библиотеках высших учебных заведений Украины.

Центральная научная библиотека ХНУ имени В.Н.Каразина в 2012 г. стала партнером и шестым участником из библиотек Украины в уникальной электронной библиотеке – «Мировая цифровая библиотека».

**ЛИТЕРАТУРА**

*1. Великодная И.Л. Редкие фонды: проблемы сохранности, изучения и использования / И. Л. Великодная // Редкие фонды в научных библиотеках высших учебных заведений: Проблемы сохранности, изучения и использования в XXI веке: докл. Междунар. конф., 22-25 окт. 2002 г., Москва.– М., 2002. – С. 4–12.*

*2. Old Printed Books http [Електронний ресурс]. – Режим доступу: //www.rarelib.undp.org.ua/ukr/. – Заголовок з екрану.*

*3. Національне надбання – фонд цінних та рідкісних книг [Електронний ресурс]. – Режим доступу: http: // library. chnu. edu. ua / ? page = /ua/05proekt/04frk . – Заголовок з екрану.*

*4. Фонд стародруків, рідкісних видань і рукописів Наукової бібліотеки Одеського національного університету імені І. І. Мечникова [Електронний ресурс]. – Режим доступу : http : // www . lib. onu. edu. ua / u /natsnadban/ . – Заголовок з екрану.*

*5. Національне надбання [Електронний ресурс]. – Режим доступу: http://library.lnu.edu.ua/bibl/ – Заголовок з екрану.*

*6. Звіт 2010 рік / Харк. метод. об'єднання б-к вищих навч. закл.; ЦНБ [ХНУ імені В.Н.Каразіна]. – [Х., 2011.] – 85 с.*

*7. Лист НМБК МОН УКРАЇНИ №06-77 від 10.06.2008 р. «Склад Секцій Науково-методичної бібліотечної комісії МОН» [Електронний ресурс]. – Режим доступу // www. library. univ. kiev. ua / ukr / for _ lib / legal.php3 . – Заголовок з екрану.*

*8. eKhNUIR: Електронний архів Харківського національного університету імені В.Н.Каразіна [Електронний ресурс]. – Режим доступу: http://dspace.univer.kharkov.ua/?locale=uk . – Заголовок з екрану.*

*9. Рекомендації НМБК [Електронний ресурс]. – Режим доступу: http://www.library.univ.kiev.ua/ukr/title4.php3 . – Заголовок з екрану.*

## UKRAYNANIN ALİ MƏKTƏB KİTABXANALARINDA MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ (PROBLEMLƏR VƏ HƏLLİ YOLARI)

**İ. JURAVLYOVA**
**V.N. Karazina adına Xarkov Milli Universitetinin**
**Mərkıəzi Elmi kitabxanasının direktoru**
*irina.kazimir@mail.ru*

***Açar sözlər:*** *kitabxana fəaliyyəti, milli sərvət, müasir informasiya xidməti, milli irsin mühafizəsi*

*Məqalədə Ukraynada fəaliyyət göstərən Ali məktəb kitabxanalarının yaranması, fəaliyyəti və inkişafı tarixi xronoloji qaydada şərh edilir. Xüsusilədə Xarkov univerasitetinin mərkəzi elmi kitabxanası, kitabxana fondunda mühafizə edilən əlyazma və nadir çap kitablarının mühafizəsi və müasir texnologiyaların tətbiqi ilə təbliği məsələləri əhatə olunub. Bu kitabxana Ukrayna dövləti tərəfindən "milli sərvət" statusu almışdır.*

# PRESERVATION OF CULTURAL HERITAGE IN THE LIBRARIES OF HIGHER EDUCATION IN UKRAINE: PROBLEMS AND THEIR SOLUTION

**I. ZHURAVLEVA**
**director of central scientific library (csl) of kharkov national university karazin, chairman of the section on organization and storage of information resources nmbk mon youth and sport**
irina.kazimir@mail.ru

***Key words:*** *Bibiliotechnoe service, national dostayanie, modern information services, preservation of the national population.*

## SUMMARY

*In the article the basic problems of scientific libraries height ¬ the higher educational establishments of Ukraine for the Conservation of books monument no ny Cove, highlight the activities of the section on organization and storage of informaqi onnyh Resources Research and Methodological Library Commission NMBK MON Youth and Sport . The libraries of universities in Ukraine properra HN unique collections, libraries, universities ever decide to samplle, we preservation and availability of funds. Tel analyzed activities of libraries in this area over the past five years. before becoming a county project of electronic collection of rare books «e-Scriptorium»: rare books for the educational process and scientific research. "*

# TÜRKMƏNİSTANDA KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİ

**KAZIMİ P.F.**
***Tarix üzrə fəlsəfə doktoru***
***pkazimi@mail.ru***

*Türkmən xalqının kitab və kitabxana mədəniyyəti qədim tarixə malikdir. Bu mədəniyyətin inkişafının böyük bir hissəsi islam mədəniyyəti dövrünü əhatə edir. Məqalədə Türkmən xalqının kitabçılıq və kitabxanaçılıq işi tarixi inkişafda təsvir olunur.*

***Açar sözlər:*** *kitab mədəniyyəti, kitabxana mədəniyyəti, Şərqi Türküstan, Orta Asiya, Kiçik Asiya, Qafqaz arealı, türk xalqları.*

Türkmənistan qədim türk yurdudur. Bu ərazidə türk xalqlarının tarixi məskunlaşması, köç etməsi, iri mədəni mərkəzlər yaratması ən qədim dövrlərdən diqqəti cəlb etmişdir. Çin müəllifi Yustyan eramızdan əvvəl I minillikdə Ürgənc şəhərinin qədim Künyaurgənc dövlətinin paytaxtı olması və öz dövrünə görə kifayət qədər iri iqtisadi və mədəni mərkəz olması barədə məlumat verir. Əbu Reyhan Biruni bu şəhərdə böyük kitabxanaların olması barədə yazır. Ehtimal olunur ki, Avestanın əlyazmaları və zoraastrizmin digər yazılı ədəbi nümunələri bu kitabxanalarda saxlanılırdı.

İlk ərəb yürüşləri zamanı Ürgəncin mədəni irsinin bir hissəsi dağıdıldı. Lakin çox çəkmədən Xarəzmin elmi və mədəni ənənələri yeni islam dini mədəniyyətinə təsir göstərməyə başlayır. VIII əsrdən başlayaraq Xarəzm sivilizasiyasının ümumislam mədəniyyəti ilə qovuşması baş verir. 995-ci ildə mərkəzləşdirilmiş Xarəzm dövləti yaradılır, bu isə öz növbəsində elm və mədəni inkişafa təkan verir. Nəticədə IX-X əsrlərdə Xarəzmi nisbəsi ilə islam dünyasında çox sayda ədəbiyyat, elm, dövlət xadimi ortaya çıxır.

Ərəb coğrafiyaçıları əl-İstəxri (850-934), əl-Məqdisi (946-....) X əsrdə bu əraziləri gəzmiş və insanların elmə, maarifə bağlı olması haqqında öz əsərlərində yazmışlar.

Məşhur səyyah Yaqut əl-Həməvi (1179-1229) bir çox ölkələr gəzmiş, məşhur kitabxanalarda tədqiqatlar aparmışdı. O, Künyaurgənc şəhərini Mavərənnəhrin ən üstün şəhəri, hətta Buxara və Səmərqənddən də üstün müsəlman mədəniyyətinin ən önəmli mərkəzlərindən biri hesab edir. Tatar yürüşlərinə qədər elm və ədəbi mühit inkişaf edir. Bu inkişafı V.V.Bartold da öz tədqiqatında təsdiq edir.

Xarəzmşah əl-Məmun 817-ci ildə Mərv şəhərindən Bağdada gələrkən özü ilə Xarəzmin nüfuzlu alimlərini də gətirir. Bunlardan biri Türkmənistan

mənşəli Əbu Cəfər Məhəmməd ibn Musa əl-Xarəzmidir (850-ci ildə vəfat etmişdir) ki, o, Bağdad şəhərində Xəlifənin yaratmış olduğu "Dar ül-Elm"ə rəhbər təyin edilir. Ömrünün sonuna qədər əl-Xarəzmi burada fəaliyyət göstərmiş, riyaziyyat və astronomiyaya dair qiymətli əsərlər yaratmışdır.

Bağdad hakimi Bəha əd-Dövlənin vəziri Şapur ibn Ərdəşirin 991-ci ildə təsis etdiyi "Dar ül-Elm" də fəaliyyət göstərən Əbu Bəkir əl-Xarəzmi (935-1002) Türkmənistan mənşəli olmuş və uzun müddət bu elm müəssisəsinin kitabxanasına rəhbərlik etmişdir.

Bağdad şəhərində bir çox alim və zadəganlar özləri də böyük kitabxanalar yaratmışlar. Belə şəxslərdən biri də Məhəmməd ibn Mənsur əl-Xarəzmi olmuşdur. O, 1066-ci ildə Bağdadda "Xəzinət ül-Kütüb" adlı kitabxana yaratmışdı. Onun nəzdində mədrəsənin kitabxananın zəngin fondundan istifadə imkanları yaradırdı və həmin kitabxana islam alimi imam Əbu Hənifin (699-767) məzarının yaxınlığında yerləşdiyinə görə oxucularının da sayı kifayət qədər çox olmuşdu.

"Dar ül-Elm" adlanan Akademiyalar tədricən islam dünyasının müxtəlif iri şəhərlərində yaradılmağa başlanır. Türkmənistan ərazisində 1000-ci ildə Künyaurgənc şəhərində dövrünün böyük xeyriyyəçisi Xarəzmşah Abu-l-Abbas Məmun ibn Məmun (1004-1074) tərəfindən yaradılır. Bu akademiya Qahirədə VI Fatimi xəlifəsinin yaratmış olduğu akademiyadan 5 il əvvəl yaradılmış və Orta Asiya ərazisində ilk dəfə məhz burada yaradılmışdır ki, bu da Künyaurgənc şəhərinin bu dövrdə son dərəcə əhəmiyyətli bir elm və mədəni mərkəz olduğunu ifadə edir.

S.P.Tolstov hesab edir ki, X əsrdə Xarəzmşah Əbu Said Əhməd ibn Muhamməd dövründə Künyaurgəncdə riyaziyyat və astronomiya sahəsində mükəmməl bir məktəb formalaşmış və bu məktəb Bağdad akademiyalarının yaradılmasında da mühüm rolu oynamışdır.

XX əsrin 30-40-cı illərində Türkmənistan ərazisində uzunmüddətli arxeoloji qazıntılar aparan S.P.Tolstov (1907-1976) iddia edir ki, bu ərazidə islama qədərki elmin və mədəniyyətin qalıqları yox edilmişdir. Lakin arxitektura texnologiyalarına dəqiqliklə riayət etmək, Biruni dövrünün təqvimi, astronomiya terminlərinin dəqiqliyi, Torpaqqalada təbii və mineral rənglərin tətbiqi, şüşə emalı sübut edir ki, bütün bunlar həndəsənin, triqometriyanın, astronomiyanın, topoqrafiyanın, kimyanın, mineralogiyanın inkişafı olmadan mümkün ola bilməzdi.

1010-cu ildə Xarəzmşah II Məmun Əbu Reyhan Birunini Künyaurgəncdə yaradılmış Akademiyaya dəvət edir. Bir sıra digər dövrünün nüfuzlu alimləri ilə birlikdə Biruni həyatının böyük bir hissəsini bu akademiyada fəaliyyət göstərərək keçirir. 1017-ci ilə, yəni Mahmud Qəznəvinin işğalına qədər Biruni Künyaurgənc şəhərində yaşayır və Xarəzmşah dövlətinin nüfuzlu şəxslərindən birinə çevrilir.

Tədqiqatçılar təəssüflə qeyd edirlər ki, Künyaurgəncdəki II Məmun akademiyası kitabxanasının kitab fondu haqqında dəqiq məlumat qorunub saxlanılmamışdır. Lakin ehtimal olunur ki, Əbu Reyhan Biruni və İbn Sina kimi görkəmli alimlərin fəaliyyət göstərdiyi akademiyanın kitabxanasında yerli alimlərlə yanaşı, islam dünyasının elmi mənbələri də mövcud olmuşdur. Belə ki, qərb istiqamətində Rey şəhərindən (indiki Tehran) o tərəfə getməmiş Biruni, Bağdad və Bəsrə alimlərinin əsərləri ilə tanış olmuş və onlar haqqında fikirlərini öz əsərlərində qeyd etmişdir.

1017-ci ildə Künyaurgənc şəhərinin Qəznəvilərin hakimiyyəti altına keçməsi ilə bir çox alimlər islam dünyasının müxtəlif elm və mədəni mərkəzlərinə dağıldılar və bununla da Əbu Reyhan Biruni Qəznə şəhərinə köçməli oldu. Kitabxana fondunun da bir hissəsinin oraya aparılması ehtimal olunur.

Moğolların yürüşünə qədər akademiyanın fəaliyyətini davam etdirməsi haqqında da ehtimallar mövcuddur. Belə bir rəvayət yaranmışdır ki, "Künyaurgənc düşmən hücumu zamanı toplanıb Allaha dua edirlər ki, "Dar ül-Elmdə" olan alimlər düşmənlərlə üz-üzə gəlməsinlər! Bu zaman möcüzə baş verir. Qırxmolla təpəsindəki saray çevrilir və oradakı alimlər yerin içinə batırlar. Düşmənlər şəhəri işğal edəndən sonra insanları toplayıb soruşurlar ki, burada bir saray var idi və biz onu zəbt etməliydik, o necə oldu? Cavab verirlər ki, burada saray olmayıb, biz buranı səpin üçün hazırlamışıq. Düşmənlər inanaraq oradan gedirlər. Alimlər isə hələ də sağdırlar. Cümə günləri ibadətdən sonra Qırxmolla təpəsinə gələrsizsə, onların səsini eşidə bilərsiz".

Bu rəvayətdə Türkmənistanın hələ min il bundan əvvəl yaradılmış akademiyasında yaşamış və işləmiş alimlərə böyük hörmət və ehtiramın ifadəsi görünür.

Xarəzmşahların IV sülaləsinin nümayəndəsi Ələddin Tekeş ibn İl-Arslan dövrünün elmli, xeyriyyəçi və mədəniyyətin himayəçisi olmuşdur. Bağdad xəlifəsi Müstəqsirin məşhur Bağdad kitabxanasının müdiri tarixçi Tacəddin ibn Əndab ibn as-Sayi (1275-ci ildə vəfat edib) "Cami əl-müxtəsər" kitabında Ələddin Tekeş haqqında yazır: O, Xarəzmdə (Künyaurgəncdə) Hənifi təriqəti üçün mədrəsə açdı və onun nəzdində zəngin bir kitabxana təsis etdi. Onun ixtiyarında Xarəzm, Xorasan, Rey və əl Çabalın digər əyalətləri var idi. Tekeş 1200-ci ildə vəfat edir və onun oğlu Qütbəddin Məhəmməd atasını mədrəsənin nəzdində sağlığında tikdirmiş olduğu məqbərədə dəfn edir.

Xarəmşahlar Səlcuqilərin Mərv şəhərində yaratmış olduğu zəngin kitabxanalardan xəbərdar idilər və həmin ənənələri Ürgəncdə də yaşadır, kitabxanalarının fondunu daim zənginləşdirirdilər. Ələddin Tekeş kitabxanasında tədqiqat aparan Fəxyoxin Əbu Abdulla Məhəmməd ibn Ömər Ər-Razi (1210-cu ildə vəfat edib) Cami al-Ülum" kitabını məhz burada tamamlamışdı.

Xarəzmşah Tekeş görkəmli dövlət xadimi Nizam əl-Mülkün oğlu Məsud ibn Əlini saraya çağırdı və sonralar onu Xarəzmşahın vəziri təyin etdi.

İmam Şixabəddin Əbu Seyid İmran əl-Xibaki Künyaurgənc türkmənlərinin XII əsrin sonu XIII əsrin əvvələrində görkəmli dövlət xadimi idi. O, Xarəzmşah Məhəmmədin (1200-....) məsləhətçisi olmuş, İbn əl-Asir, Cebeyni, Zəkəriyyə Qəzvininin verdiyi məlumata görə “dinin və dövlətin sütunu” idi.

İmam Şixabəddinin yaratmış olduğu zəngin kitabxana hələ öz dövründə şöhrət tapmışdı. Xarəzmşahın ağır zamanlarında İmam Şixabəddin köç etmək məcburiyyətində qalmış və öz kitabxanasını özü ilə aparmışdır. Bu da bizə onun kitabxanalarına nə qədər bağlı bir şəxsiyyət olduğunu göstərir. Moğol yürüşləri zamanı İmam Şıxabəddin və oğlu Tacəddin öldürülür və kitabxana qarət edilir. Bu kitabxananın aqibəti haqqında sonrakı tarixi dövrdə məlumat verilmir. Türkmən xalqı belə tarixi şəxsiyyətləri milli yaddaşında daim qorumuş və ehtiram etmişdi. Aşkabad şəhərinin cənub-qərbində Şixabəddin əl-Xibəki və onun oğlu Tacəddin üçün hələ XIV əsrdə Məqbərə yaratmış və onun xidmətləri unudulmamışdır.

Məlum olduğu kimi, Künyaurgənc şəhərində X-XII əsrlərdə çox sayda mədrəsələr fəaliyyət göstərirdi ki, onların da nəzdində kitabxanaların fəaliyyət göstərməsi şübhəsiz idi. Türkmən xalqının elm və mədəni tarixində bu şəhərin müstəsna rolu olmuşdur. Təsadüfi deyil ki, 2005-ci ildə UNESKO Künyaurgənc şəhərini dünya mədəni irs siyahısına daxil etmişdir.

Türkmənistan ərazisində dövlətçilik, elm, təhsil və mədəni inkişafın ümumi mənzərəsi göstərir ki, kitabxanalar digər islam mədəniyyəti areallarında olduğu kimi əsasən üç istiqamətdə yaradılır və fəaliyyət göstərirdi: saray kitabxanaları; məscid və mədrəsə kitabxanaları və eləcə də şəxsi kitabxanalar.

Kitab məhsulunun yaranması, texniki və bədii tərtibatı, iri kitabxanaların strukturu da islam mədəniyyəti ölkələri ilə uyğun şəkildə qurulurdu. Kitab məhsulu repertuarı ərəb və fars dili ilə yanaşı, türk dilli ədəbi və elmi nümunələr təşkil edirdi.

Səlcuqlar və Xarəzmşahlar dövründə, XI-XIII əsrlər arasında müasir Türkmənistanın ərazisində mədəni-maarif işi yüksək inkişaf edirdi. Məscidlər, məqbərələr, mədrəsələrin nəzdində kitabxanaların yaradılması haqqında mənbələrdə məlumat verilir. Ürgənc şəhəri ilə yanaşı, Mərv şəhəri də mədəni-maarif mərkəzi statusunu daşıyır. Məlumdur ki, bu dövrdə Mərv şəhərində 10 ictimai kitabxana fəaliyyət göstərirdi.

Türkmən tədqiqatçıları belə hesab edir ki, Moğol və Əmir Teymur yürüşləri səbəb oldu ki, “Teke”, “Sa...”, “Yomut”, “Ersari”, “Kəklai”, “Aşli”, “Çovdar” və digər Türkmən tayfaları Türkiyə, Qafqaz, Suriya, İrak, İran ərazilərinə köç etmişlər. Bunlardan Ağqoyunlu və Qaraqoyunlu tayfaları Azərbaycan və Anadolu ərazisində məskunlaşmışdı. Ərtoğrul Qazinin (1188-1281) rəhbərliyi ilə 400 ailədən ibarət Kayju tayfası Türkiyə ərazisinə köç etmiş və gələcəkdə Osman Qazinin (1299) ailəsi olmuş, Osmanlı imperiyasının əsasını da burada qoymuşlar.

1510-cu ildə Şah İsmayıl Mərv şəhərini işğal etdikdən sonra Şeybani xanı məğlub edir. Bu zaman Türkmənlər özbəklərlə birləşərək Səfəvilərə müqavimət etmiş və onların "qalıcı" olmağına imkan verməmişlər. Məlumdur ki, Şah İsmayıl Azərbaycana bu yürüşdən məşhur kitabçı sənətkarlarla yanaşı xeyli qiymətli əlyazma kitabı gətirmişdi.

Türkmən tədqiqatçıları 1736-cı ildə Əfşar tayfasının başçısı Nadir şahın da türkmən mənşəli olduğunu ifadə etmiş və onun İran ərazisində hakimiyyəti ələ aldıqdan sonra uğurlu yürüşlərini qeyd etmişlər. Eləcə də türkmən xalqını böyük vergilərlə incitdiyini də yazırlar.

XIX əsr Türkmən xalqının müxtəlif müharibələr içərisində olması, daxili və xarici hücumlara məruz qalması ölkənin tənəzzülünü səciyyələndirirdi. Bu tənəzzüldən istifadə edən Rusiya 1869-cu ildə "Qırmızı su" limanını (indiki Türkmənbaşı) işğal etdi və orada qoşun hissələrini artırmağa başladı. 1881-ci ildə Rusiya orduları Aşxabada daxil oldular.

XIX əsrin II yarısı və XX əsrin əvvəlləri Türkmənistan ərazisində mürəkkəb siyasi, mədəni proseslər baş verirdi. Bir tərəfdən rus alimləri bu əraziləri öyrənmək üçün arxioloji və etnoqrafik tədqiqatlar aparır, digər tərəfdən mərkəzi Rusiya hakimiyyəti ərazinin etnik tərkibini dəyişdirmək məqsədi ilə xalqların köçürülməsini həyata keçirirdilər. Bu siyasət 1916-cı ildə xalqın ümumi üsyanına səbəb oldu. Dövrün kitab məhsulu zadəgan və hakimlərin əlində toplanırdı. Dünya səviyyəli mədrəsə və akademiyalar dağıdılır və qarət olunur, milli irsin daşıyıcısı olaraq isə yalnız milli ziyalılar çıxış edirdilər.

Sovet hakimiyyətinin yaranması ilə milli mədəni və elmi irsin toplanması, mühafizəsi və təbliği asanlıqla qaydaya salınmadı. Bu istiqamətdə işləri həyata keçirmək üçün onilliklər keçdi.

1941-ci ilin mart ayının 26-da SSRİ EA-nın Türkmənistan filialının kitabxanası təsis edildi. 1957-ci ildə bu kitabxanaya elmi müəssisə statusu verildi. Bu kitabxana ərəb, latın və kiril qrafikalı ilə yazılmış və çap olunmuş elmi ədəbiyyatın komplektləşdirilməsini həyata keçirərək, həm Sovet hakimiyyətindən əvvəl, həm də sonralar çap olunmuş elmi kitab məhsulunun mərkəzinə çevrildi və Türkmənistan ərazisində bütün elmi müəssisələr və təhsil müəssisələrinə bütün elm sahələri üzrə xidmət göstərməyə başladı.

Mərkəzi elmi kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində Türkmənistanın sahəvi tədqiqat mərkəzidir və elmi əməkdaşlarının indiyə qədər rus, ingilis, türk və fars dillərində 200-dən artıq elmi məqalələri müxtəlif elmi dərgilərdə çapdan çıxmışdır.

Kitabxananın fondunda Türkmən akademiklərinin şəxsi kitabxana və arxivləri mühafizə edilir. 1968-ci ildən isə kitabxana "Türkmən alimləri" adlı biblioqrafik göstəricilər çap etdirməyə başlanmışdır ki, bu günə gədər onun qədər 36 buraxılışı işıq üzü görmüşdür.

Kitabxanada 11 şöbə və 2 yarımşöbə fəaliyyət göstərir: Komplektləşdirmə şöbəsi; Xarici ədəbiyyat şöbəsi; Elmi-biblioqrafiya şöbəsi; Elmi sistemləşdirmə şöbəsi; Xidmət şöbəsi; Soraq-biblioqrafiya şöbəsi; Nadir nüsxələr fondu; Kitabsaxlayıcı şöbə; Depozitar şöbə; Kompüterləşdirmə şöbəsi; Mübadilə-rezerv fondu; Fərdi abonoment.

Kitabxananın hesabatlarından məlum olur ki, 2006-cı ilin iyun ayının 1-nə olan məlumata görə kitabxananın fondu 1343 min nüsxə olmuşdur (1).

Sovet imperiyasının dağılması ilə Türkmənistan öz müstəqilliyini bərpa etdi və müstəqil milli siyasət yürütməyə başladı. 1995-ci ilin dekabrın 12-də BMT-də Türkmənistanın bitərəf dövlət kimi tanınması, ilk prezident Səfərmurad Niyazovun milli mədəni irsə baxışları türkmən xalqının son 20 ildə taleyində mühüm rol oynadı. Məsələn, S.Niyazov operanın, baletin, kinoteatrların, sirkin milli mintalitetə uyğun gəlmədiyinə görə fəaliyyətinin qadağan edilməsi, əyalətlərdə kitabxanaların bağlanması kimi tədbirlərinə mütəxəssislər şərh verməyə çətinlik çəkirlər.

Türkmənistanın yeni prezidenti Qurbanqulu Berdumuhəmmədov yeni islahatların həyata keçirilməsi zərurətini ifadə etmiş, bu islahatlar kontekstində incəsənət məktəbləri, mədəniyyət evləri ilə yanaşı, 140 kitabxananın da fəaliyyətinin bərpa edilməsi nəzərdə tutulmuşdur. Türkmənistanda “Qalkınış” adı ilə təsis edilmiş kitab mərkəzi kitabxana fondlarının komplektləşdirilməsi və yeni yaradılan kitabxanaların ilkin fondunun yaradılması işini öz üzərinə götürmüşdü.

Kitabxana fondlarının uzun müddət sistemli komplektləşdirməyə məruz qalması nəticəsində fondların köhnəlməsi, yeni ədəbiyyatın daxil olmaması, kitabxanaların xidmət işində də özünü göstərir. Kitabxanaçıların etiraf etdiyi kimi Ali məktəb müəllimlərinin şəxsi vəsaiti hesabına çap olunan kiçik həcmli tədrisə dair metodiki kitabçalar oxucular tərəfindən ən çox sorğu edilənlərdir.

Rusdilli mənbələrdə qeyd olunur ki, kitabxana fondlarına daxil olacaq kitab məhsulunun hələ də senzuradan keçməsi ənənəsi Türkmənistanda tətbiq olunmaqdadır.

Kitabxanaçı kadrların hazırlanması ilə əlaqədar hələ də Türkmənistanda ali ixtisas təhsili mövcud deyil.

Müasir Türkmənistanın kitabxana xidmətinin təşkilində və kitab sərvətinin toplanıb sistemləşdirilməsində S.Niyazov adına (Türkmənbaşı) Türkmənistan Milli Kitabxanası da mühüm əhəmiyyət daşımışdır. 2011-ci ilin iyununa olan məlumata görə bu kitabxananın fondunda, 5530 min nüsxə kitab mövcuddur. Milli Kitabxananın həyata keçirdiyi mühüm tədbirlərdən biri kimi ABŞ-ın Türkmənistandakı səfirliyi ilə birlikdə XVI-XIX əsrlərə aid 50-min nüsxə əlyazma kitabının konservasiyası olmuşdur.

Son illər elmi ədəbiyyatın mövcud olan boşluğunu xaricdən daxil olan müxtəlif dillərdə elmi ədəbiyyat hesabına və referativ jurnallar vasitəsi ilə doldurmaq sahəsində konkret işlər görülür.

2000-ci ilin iyun ayının 15-də Türkmənistan məclisi "Kitabxanalar və kitabxana işi " haqqında Türkmənistanın qanununu qəbul edir. 31 maddədən ibarət bu qanun ölkədə kitabxanaların və kitabxana şəbəkələrinin hüquqi statusunu və qarşısında duran vəzifələri müəyyənləşdirir. 31 maddədən ibarət bu qanun kitabxana, kitabxana işi, bu sahədə milli siyasət, kitabxana işinin dövlət idarəetməsi və digər məsələlərin tərifini ifadə edir. Bu qanundan Özbəkistanda, Qazaxıstanda, eləcə də Azərbaycanda qəbul olunmuş müvafiq qanunların müqayisəli analizi bir sıra uyğun gələn və bir sıra fərqli yanaşmaların mövcud olduğunu ortaya çıxarır.

Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri prof. A.A.Xələfovun rəhbərliyi altında "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti" mövzusunda geniş tədqiqat aparmaq məqsədi ilə işçi qrup yaradılmışdır. Türk xalqlarının kitab və kitabxana mədəniyyətini qarşılıqlı tarixi əlaqədə öyrənmək, təcrübədən nəticələr çıxarmaq və müasir inteqrasiya prosesinə yaradıcı töhvələr vermək baxımından qeyd olunan layihə əhəmiyyətlidir və bu istiqamətdə işçi qrupuna uğurlar arzulayırıq.

## ƏDƏBİYYAT

1. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. I cild. Bakı, 2001.*
2. *Язбердиев А. (http: //turkmenhistory.blogstop.com)*
3. *www/shirali.narod.ru*
4. *http://science.gov.tm/helping orgs/central scilibrary/*
5. *http://centralasianline.com/cacoon/caii/xhtml/ru*
6. *Kazımi P. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, 2009.*
7. *Kazımi P. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində lüğətçilik ənənələri. Kitabxanaşünaslıq və informasiya, 2010.*
8. *Kazımi P. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində dastan və əsatirlər. Kitabxanaşünaslıq və informasiya, 2011.*

## MANUSCRIPT BOOK OF THE TURK PEOPLE AND HIS SPREAD AREAL

**P.F.KAZIMI**
***Philosophy doctor of history***

***Key words:*** *Book culture, library culture, Eastern Turkistan, Middle Asia, Little Asia, Caucasian areal, Turk people.*

*Investigation defines traditions of manuscript book of the Turk people, their spread areals. Culture of general sides of the culture of Islam period, book repertoire of the time and library is generalized.*

## КНИЖНАЯ БИБЛИОТЕЧНАЯ КУЛЬТУРА ТУРКМЕНИСТАНА

**П.Ф.КАЗЫМИ**
***доктор философии***
***по историческим наукам***

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *книжная культура, библиотечная культура, Восточный Туркестан, Средняя Азия, Малая Азия, Кавказский ареал, тюркские народы.*

*Книжная и библиотечная культура Туркменистана имеет древние корни. Большой исторический период развития Туркменистана связан с исламской культурой. Статья рассматривает культурное наследие Туркменистана в контексте, книжное и библиотечное дело в историческом развитие.*

# RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANALARINDA MÜTƏXXƏSİSLƏRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

**M.Ə.MƏMMƏDOV**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
*m.mehmanəli@.mail.ru*

***Açar sözlər:*** *kitabxana-informasiya xidməti, elmi-texniki kitabxanalar, müasir informasiya cəmiyyəti*

Azərbaycanın kitabxana sisteminin iri bir şəbəkəsini təşkil edən texniki kitabxanaların inkişaf tarixi respublikamızın neft sənayesinin inkişafı ilə bağlı olmuşdur. Bu kitabxanalar respublika dövlət elmi və texniki informasiya sisteminin tərkib hissəsi olmaqla yanaşı, həmçinin mənsub olduğu və xidmət etdiyi sənaye sahələrinin, idarə və müəssisələrin ayrılmaz bir hissəsini təşkil edir. Ölkəmizdə texniki kitabxanaların planlı və məqsədyönlü şəkildə təşkili XX əsrin 20-ci illərinin ikinci yarısından sonra və 30-50-ci illərdə başlamışdır. O dövrdə ölkə sənayesinə ümumi rəhbərliyi həyata keçirən Ali Xalq Təsərrüfatı Şurası sənayenin müxləlif sahələrində çalışan fəhlə və mühəndis-texniki işçilərin peşə və ixtisas səviyyələrinin artırılması üçün texniki kitabxanaların açılmasını məqsədəuyğun hesab etmişdir. Hazırda bu kitabxanalar respublikamızda fəalliyyət göstərən texniki kitabxanaların özəyini təşkil edir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə kitabxana işinin inkişaf konsepsiyası işlənmiş, kitabxa işi haqqında qanun qəbul edilmiş və digər normativ sənədlər işlənmişdir. Respublikamızda texniki kitabxanalar əsasən sənaye sahələrində təmsil edilir və onların əsas informasiya ehtiyatları kimi fəaliyyət göstərirlər. 1987-ci il məlumatına görə respublikamızda 832 elmi-texniki və xüsusi kitabxana fəalliyyət göstərmişdir. Hazırda onların yarısından çoxu bağlanmış və ya ləğv edilmişdir. Bu şəbəkədə metodiki təminatı həyata keçirən Respublika Elmi Texniki Kitabxanası tərəfindən 1990-cı ildə buraxılmış göstəricidə 150-yə qədər texniki kitabxana haqqında məlumat verilmişdir. Həmin göstəriciyə görə, 1990-cı ildə respublikamızın sənaye müəssisələrində 77 texniki kitabxana fəalliyyət göstərmişdir. 2007-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" adlı məcmuəsində 29 texniki kitabxana haqqında məlumat vermişdir. Bu kitabxanaların əksəriyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində cəmlənmişdir.

Respublika texniki kitabxanalar şəbəkələri aşağıdakı kimidir:

1. Çoxsahəli və ixtisaslaşdırılmış respublika əhəmiyyətli kitabxana mərkəzi: Respublika Elmi Texniki Kitabxanası, onun filialları olan Respublika Patent fondu və Respublika Standartlar fondunun kitabxanaları.

2. Çoxsahəli Muxtar Respublika Kitabxana mərkəzi. MR-in Elmi texniki kitabxanası.

3. İstehsalat və elmi istehsalat birliklərinin dayaq elmi kitabxanaları.

4. İstehsalat müəssisələrinin, konstruktur bürolarının və layihə təşkilatlarının elmi texniki kitabxanaları.

Azərbaycanda vahid kitabxana sisteminin ayrıca bir şəbəkəsi kimi formalaşan texniki kitabxanaların sosial funksiyaları və vəzifələri ölkədə gedən demokratik cəmiyyət quruculuğu vəzifələrinə və tələblərinə uyğun formalaşmışdır. Texniki kitabxanaların qarşısında qoyulmuş vəzifələr, onların iş forması, quruluşu və metodlarını müəyyənləşdirmişdir. Ölkənin təsərrüfat sistemində çalışan işçilərə kitabxana-informasiya xidmətinin təşkili mühüm rol oynayır. “Texnika” adı altında o kitabxanalar başa düşülür ki, sənaye müəssisələri, idarə işçilərinin peşə-informasiya tələbatını ödəmək üçün yaradılır.

Texniki kirabxanaların fərqləndirici xüsusiyyətləri belədir:

1. Texniki kitabxanalar konkret olaraq bu və ya digər idarə və müəssisələrin kollektivlərinə xidmət göstərir. Texniki kitabxanaların fəaliyyəti konkretdir, operativ istehsalat-informasiya xidməti göstərirlər.

2. Onların fəaliyyəti əmək kollektivlərinin ixtisas-peşə tələbatlarının ödənilməsi üzrə istiqamətlənmişdir. Texniki kitabxanaların fəaliyyəti yeni cəmiyyət quruculuğunda aktual məsələlərin həllində aktual məsələ hesab edilir.

3. Texniki kitabxanalar xidmət etdikləri müəssisələrin fəaliyyətində mühum rol oynayır. Əmək bölgüsü yaranır: birincisi qabaqcıl elmi-texniki nailiyyətlər istehsalata tətbiq olunur, ikincisi, lazım olan informasiyaları toplayıb müəssisə işçilərinin diqqətinə çatdırır, müntəzəm olaraq yeniliklərlə işçiləri təmin edir. Lakin, sonradan məlum olmuşdur ki, heç də xarici ölkələrdə kitabxana işinin vəziyyəti bəzi Sovet kitabxanaşünaslarının qeyd etdiyi kimi acınacaqlı vəziyyətdə olmamışdır. Qeyd edilməlidir ki, digər kitabxanalardan fərqli olaraq, texniki kitabxanaların işində oxucuların mədəni-texniki səviyyəsinin yüksəldilməsi vəzifəsi mühüm yer tutur.

“Mədəni-texniki səviyyə” anlayışına, peşə biliyi və istehsalat təcrübəsindən başqa elmi dünyagörüşünün formalaşması, ictimai-siyasi hazırlıq, ümümi mədəni səviyyənin yüksəlməsi, estetik baxışların inkişafı və s. də aiddir. Bununla əlaqədar texniki kitabxanaların əsas funksiyaları aşağıdakı kimi müəyyən edilmişdir:

– *informasiya funksiyası* ondan ibarətdir ki, istehsalçıların müxtəlif istiqamətli informasiya tələbatını və sorğularını ödəyir, onların peşə ixtisaslarının yerinə yetirilməsinəköməklik göstərir;

– *təhsil funksiyası* onunla xarakterizə olunur ki, sənaye işçilərinin ümummədəni dünyagörüşünün genişlənməsi, xalq təsərrüfatı mütəxəssislərinin və geniş zəhmətkeş kütlələrin fasiləsiz təhsilinə yardım göstərilməsi, fəhlələrin peşə hazırlığında mühəndis-texnik işçilərinə, ali və kənd orta ixtisas məktəblərinə xidmət göstərmək;

– elm və istehsalat funksiyası, elmi-texniki yeniliklərin sənayedə geniş tətbiqinə nail olmaq üçün elm və texnikanın ən son yeniliklərini əks etdirən ədəbiyyat və informasiya ilə sənaye işçilərinin və mütəxəssislərinin tələbatının tam və operativ ödənilməsi ilə müəyyənləşmişdir. Yeni texnika və qabaqcıl texnologiya haqqında ədəbiyyat təbliği texniki kitabxanaların diqqət mərkəzindədir. Məhz belə ədəbiyyatın təbliğində texniki kitabxanaların əsas ictimai funksiyası – istehsalat funksiyası müəyyən edilir.

Texniki kitabxanaların fəaliyyətinin əsası olan yuxarıda göstərilən istiqamətlər vaxtilə böyük mübahisələrə səbəb olmuş və bir sıra nəzəriyyələr və "mübarizələr" də inkişaf etmişdir. Onlardan *birincisi* texniki kitabxanaların bütün işinin yalnız informasiya vəzifələrinə tabe olmasına tərəfdar idi; *ikinci* nəzəriyyə texniki kitabxanaların yalnız sənayedə çalışan yüksəkixtisaslı kadrlara xidmət etməsindən ibarət idi; *üçüncü nəzəriyyə* isə texniki kitabxana fondlarının yalnız texniki ədəbiyyat ilə təchiz edilməsini tələb edirdi; *dördüncü* texniki kitabxanaların yerli həmkarlar ittifaqı kitabxanaları ilə birləşməsini təklif etmişlər.

Rcspublikamızın elmi-texniki kitabxanalarında oxucuların əksəriyyətini mühəndis-texniki işçilər təşkil edir. Qapalı xarakter daşıyan bu kitabxanalarda kitabxana-informasiya və soraq-informasiya xidməti fərqləndirilir və formaca fərdi və kütləvi xidmət növlərinə bölünür. Digər kitabxanalar kimi ETK-larda da xidmətin məxsusi profili vardır. Burada əsas profil əlaqədar idarə və ya müəssisənin mütəxəssis və fəhlələrin elmi-texniki informasiyaya tələblərinin və sorğularının operativ şəkildə ödənilməsindən ibarətdir.

## ƏDƏBİYYAT

*1. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1999, 14 mart.*

*2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. 3 hissədə. I hissə. – Bakı, 2003, 314 s.*

*3. Kazımov R. Bazar iqtisadiyyatı və kitabxanalar: Dərs vəsaiti. Bakı, 1996, 32 s.*

*4. Kazımov R. Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti. Bakı, 2004, 87 s.*

## LIBRARY AND INFORMATION SERVICES PERSONNEL IN SCIENTIFIC AND TECHNICAL LIBRARY OF THE REPUBLIC

**M.A.MAMMADOV**

***SUMMARY***

***Keywords:*** *library-information service, technical libraries, technical library networks*

*The orqanization of library-information service for specialists in scientific and technical libraries. The modern condition of condition of technical libraries and the functioning of technical libraries in various ministries has been informed and their numbers have been identified in the scientific article. Moreover, the technical library networks have been informed, there functions and areas of activity have been indicated in the article as well.*

## БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ ОБСЛУЖИВАНИЕ СПЕЦИАЛИСТОВ В НАУЧНО-ТЕХНИЧЕСКОМ БИБЛИОТЕКИ РЕСПУБЛИКИ

**М.А.МАМЕДОВ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *библиотечно-информационное обслуживание, научно-технические библиотеки, современное информатизированное общество*

*Статя рассматривает концептуалыный анализ информационной обслужевание патрибителя в научно-технических библиотеках Азербайджана в условиях современном информатизированном обшестве. Освешено в асновном теоретика-аналитические направление деятельности научно-технических библиотек.*

# QAZAXISTANDA KİTABXANA İŞİNİN ƏSAS İNKİŞAF MƏRHƏLƏLƏRİ

**P.KAZIMİ**
***tarix üzrə fəlsəfə doktoru***
***pkazimi@mail.ru***

**N.HÜSEYNOVA**
***BDU-nun Kitabxanaşünaslıq kafedrasının magisti***
***nubar.huseynova@mail.ru***

***Açar sözləri:*** *Qazaxıstan kitabxanaları, müasir kitabxana xidməti, milli kitabxana, elektron resurslar*

*Qazaxıstan Respublikasının kitab və kitabxana mədəniyyəti Orta Asiya xalqlarının ümumi mədəni irsi kontekstində araşdırılır. Qazax xalqının kitab və kitabxana mədəniyyətinin inkişaf mərhələləri xülasə şəklində ifadə edilir.*

Müasir dövrdə hər bir dövlətin intellektual səviyyəsini xarakterizə edən ən əsas mərkəzlərdən biri onun informasiya resurslarını toplayıb, mühafizə edən və səmərəli istifadəsini təşkil edən milli kitabxana sistemidir. Professor A.A. Xələfovun yazdığı kimi "Dünyanın qabaqcıl ölkələrində hələ XVII əsrdə meydana gəlib, formalaşan milli kitabxanalar sonrakı əsrlərdə daha da təkmilləşmiş, "dövlət kitabsaxlayıcısı", milli ədəbiyyatı qoruyub saxlayan, mədəniyyətin qızıl fondunu yaradan bir müəssisə kimi məşhurlaşmışdır" (2, 12-14).

Türk xalqlarının hər birinin ayrı-ayrılıqda zəngin qədim kitab mədəni irsi mövcuddur. Türk dövlətləri içərisində zəngin kitab mədəniyyətilə fərqlənən dövlətlərdən biri də Qazaxıstan dövlətidir.

Qazaxıstan rəsmi adı ilə Qazaxıstan dövləti Orta Asiya və Qərbi Avropada müstəqil bir dövlət kimi tanınır. 2717000 km² ərazisi ilə dünyanın ən böyük IX ölkəsi sayılan Qazaxıstan dövləti həmçinin müsəlman ölkələri və türk dövlətləri baxımından da ən böyük və təbii qaynaqlarla zəngin olan ölkə hesab edilir.

Qazaxıstanın uzun müddət təsir altında olmasının nəticəsi olaraq onun mədəniyyətinin inkişafına öz mənfi təsirini göstərdi. Lakin SSRİ dağıldıqdan sonra bu xalqın mədəni həyatının bütün sahələrində böyük inkişaf baş verdi. Bu inkişaf SSRİ tərkibindən çıxmış Qazaxıstanda kitabxanaların sayının durmadan artması, beynəlxalq informasiya sistemləri ilə əlaqələrin möhkəmlənməsini, kitabxana işinin nəzəri problemlərinin hazırlanmasını tələb

edirdi. Bu tələbatı ödəmək üçün dünya kitabxanaşünaslıq praktikasına əsaslanmaq və digər dövlətlərə inteqrasiya etmək lazım gəldi.

Qazaxıstan Türk dövlətləri içərisində kitab və kitabxana mədəniyyəti, ümimiyyətlə kitabxana işi sahəsindəki inkişaf səviyyəsinə görə fərqlənən dövlətlərdən biri olmuşdur. Burada fəaliyyət göstərən kitabxanalar öz fəaliyyətlərinə, əsasən XIX əsrdən başlayıb. Uralksıda, Ust – Kamenoqorstda, Pavlodarda, Çimkəntdə yaradılmıış ilk kitabxanalar əhalinin bilik və mədəniyyət mənbələrinə çevrilmişdi (6, 449).

1871-ci ildə Ural kütləvi kitabxanası yaradıldı. Bu kitabxanada Ural sakinlərinə pulsuz oxu zalından istifadə və pullu evə kitab vermək xidməti göstərilirdi.

1883-cü ildə Semipalatenskdə ümumi kitabxananın əsası qoyulur. 1896-cı ildə də Ust-Kamenqorstda kitabxana yaradılır. 90-cı illərdə həmçinin Karkaralinski də, Zaysanidə, İrgizidə ümumi kitabxanalar fəaliyyət göstərirdi. Pavladors şəhərinin kütləvi kitabxanasının illik uçotu isə 1892-ci ildə aparılmışdır (4, 450).

Bir neçə kənd və qəsəbələrdə də xalq kitabxanaları yaradılmışdır. Kustanda və Aktubinskdə pullu və pulsuz kitabxanalar fəaliyyət göstərirdi. 1922-ci il məlumatına əsasən respublika ərazisində müxtəlif növ və tipdə olan 662 kitabxana fəaliyyət göstərirdi.

1929-cu ilin yayında bütün Sovet məkanında olduğu Qazaxıstanda da “kitabxana yürüşü” təşkil edildi. Bunun nəticəsi olaraq 100 kütləvi kitabxana açılmışdı. 1934-cü il məlumatında isə burada 1049 kitabxananın fəaliyyət göstərməsi əks olunmuşdur.

60-cı illərdə respublika ərazisində elmi-texniki kitabxana təşkil olunur. 80-cı illərdə olan məlumatlara əsasən kitabxanada çalışan elmi işçilərin sayı 970-ə çatmışdır.

90-cı illərin sonunda respublikada 21 min kitabxana fəaliyyət göstərirdi. Bunlardan 19 elmi texniki, 82 tibb, 62 universitet, 22 akademiya, 8 pedaqoji, 17 min məktəb kitabxanasını göstərmək olar (1, 6).

1932-ci ildə SSRİ EA-nın Qazaxıstan bazası, 1938-ci ildə onun əsasında SSRİ EA-nın Qazaxıstan filialı yaradıdı. 1942-ci ildə isə Qazaxıstan SSRİ EA-nın elmi tədqiqat müəssisəsi Alma – Atada təşkil olundu. Bu müəssisə Qazaxıstanda fəaliyyət göstərən elmi tədqiqat müəssisələri üçün metodik mərkəz rolunu oynayırdı.

1941-ci ildə Alma–Atada əsası qoyulmuş Elmi Tibb Kitabxanasının fondunda 338 min nüsxədən ibarət ədəbiyyat mühafizə olunurdu.

1951-ci ildə Alma-Atada Respublika Uşaq Kitabxanasının əsası qoyulur. Bu kitabxana elmi-metodiki və koordinasiya mərkəzi kimi uşaq və yeniyetmələrə xidmət işinə dair mərkəz rolunu oynayırdı. Bu mərkəzdə uşaq və yeniyetmələr üçün rus və qazax dillərində ölkəşünaslıq biblioqrafiyası

yerləşdirilmişdi. 1971-ci ildə Alma - Atada korlar və əlillər üçün kitabxana yaradıldı.

1976-cı ildə Alma-Atada Respublika Dövlət Gənclər Kitabxanası təşkil olundu. Kitabxana respublikada yerləşən bütün gənclər kitabxanaları üçün elmi-metodik mərkəz hesab olunurdu. 1971-ci ildə Alma - Atada korlar və əlillər üçün kitabxana yaradıldı.

1984-cü ildə Alma – Atada elmi pedaqoji kitabxana təşkil olunur. Biblioqrafik informasiya mərkəzi hesab olunan bu kitabxana pedaqoji ədəbiyyatı öz fondunda qoruyub saxlayırdı. 98 min nüsxədən ibarət pedaqoji ədəbiyyat fondda yerləşdirilmişdi.

Müasir dövrdə də Qazaxıstanda bir çox elmi müəssisələr yaradılmışdır ki, həmin elmi müəssisələrin tərkibində kitabxanalar təşkil olunmuşdu. Bunlardan Alma-Ata Energetika İnustutu, Alma-Ata Dövlət Konservatoriyası, Beynəlxalq Hüquq və Beynəlxalq Biznes İnustutu, Danker Universiteti kimi təhsil müəssisələri yaradılmışdır ki, onların da zəngin kitabxana fondu təşkil olunmuşdu.

2004-cü ilin iyun ayında Astanada Qazaxıstan Dövlət Milli Akademiya kitabxanasının əsası qoyulur. Kitabxana yarandığı gündən etibarən mədəniyyət və maarifləndirici funkisayını yerinə yetirməyə başlayır və öz kitab fondlarının tamamlanmasını həyata keçirir. Burada internet, elektron resurs, linqofon zalı fəaliyyət göstərir.

Qazaxıstanın ən böyük informasiya mərkəzi Qazaxıstanın müstəqilliyi ilə yaşıd olan Respublika Milli Kitabxanasıdır. 1910-cu ildə şəhər dumasının qərarına əsasən dövlət kitabsaxlayıcısı, elm, informasiya, mədəniyyət, maarifləndirici, informasiya funksiyalarını yerinə yetirən Alma-Ata kitabxanasının əsası qoyuldu. Bu kitabxana "Tolstoy adına kütləvi kitabxana" kimi tanınırdı. 1920-ci ildə isə onun bazası əsasında Semiriçinski əyalətinin ictimai kitabxanası təşkil olundu. Kitabxana 1931-ci ildə "Qazaxıstan SSR dövlət kütləvi kitabxanası" adlandırıdı. 1931-1937-ci illər arasında isə Kitab Palatası funksiyasını yerinə yetirməyə başladı. 1937-ci ildən kitabxananın adı dəyişdirilərək "Puşkin adına Qazaxıstan SSR Dövlət kütləvi kitabxanası" adlandırıldı. 1991-ci il dekabr ayının 16-sından etibarən Qazaxıstanın müstəqillik əldə etməsi ilə əlaqədar olaraq kitabxana "Qazaxıstan Respublikasının Milli Kitabxanası" statusunu qazanır.

Kitabxana yarandığı gündən etibarən regionda milli kitabsaxlayıcı funksiyasını yerinə yetirməyə başlayır. O, həmçinin respublikanın mədəniyyət və incəsənət üzrə elmi informasiya mərkəzi funksiyasını da yerinə yetirdi. Kitabxana tezliklə biblioqrafiyaşünaslıq və qazax tarixi kitabları üzrə elmi informasiya mərkəzi funksiyasını daşımağa başladı.

Alma-Ata Dövlət Milli kitabxanasının fondu 1931-ci ildə ümumilikdə 64 min çap vahidini əhatə edirdisə, 1982-ci ildə isə bu göstərici 4 milyondan

çox olmuşdur. Oxucuların sayı 1940-cı ildə 9 min idisə, 1982-ci ildə 55 minə qədər artmışdır.

Qazaxıstanda tarix və mədəniyyətin inkişafı sahəsində bir sıra qanun və qərarlar qəbul edilmişdir. Qəbul edilən ilk qanun “Tarix və Mədəniyyət Mirası Abidələrinin Qorunması və İşlədilməsi” haqqında olmuşdur. Bu qanun 1992-ci ilin iyul ayında qəbul edilmiş və əsas məqsədi respublika ərazisində yerləşən tarixi və mədəni abidələrin qorunması olmuşdur.

Tarix və mədəniyyət mirasının qorunması sahəsində həyata keçirilən addımlardan biri də 2004-2006-cı illər üçün nəzərdə tutulan “Mədəniyyat Mirası” adlı dövlət proqramının hazırlanması olmuşdu. Bu proqramın həyata keçirilməsi nəticəsində ölkədə mədəniyyət işi sahəsində əsaslı dəyişikliklər olmuşdur. 2011 - ci il aprelin 26-dan 28-dək Qazaxıstanın paytaxtı Astanada Türkdilli Ölkələrin Parlament Assambleyasının 2-ci plenar iclası keçirilib. Tədbirdə iştirak etmək üçün Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 26-da Qazaxıstana səfər etmiş, səfər çərçivəsində Milli Məclis sədrinin Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə görüşü baş tutmuş, eləcə də digər bir sıra ikitərəfli görüşlər də həyata keçirilmişdir (9).

Beləliklə, apardığımız tədqiqat işindən belə bir nəticəyə gəlmək olar ki, Qazaxıstan yalnız XX əsrdə formalaşmış kitabxana şəbəkəsinə malik olmuşdur. Bu dövrə qədər isə Respublika ərazisidə heç bir formalaşmış kitabxana şəbəkəsi mövcud olmamışdır.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Sovet Ensiklopediyası. Qazaxıstan SSR. 10 cilddə. II cild. Bakı, 1978, 592 s.*

2. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Monoqrafiya. Bakı: Azərnəşr, 2011, 348 s.*

3. *Xələfov A.A. Cəmiyyət və Mədəniyyət // Kitabxanaşünaslıq və informasiya, 2010, №3, s.8-14.*

4. *Kazımi P. Türk xalqlarının əlyazma kitabı və onun yayılma arealı // Kitabxanaşünaslıq və biblioqrafiya, 2012, №1(7), s.59-76.*

5. *Бердигалиева Р.А. Национальная библиотека Республики Казахстан в системе трансляции культуры // Вестник БАЕ, 2002, №3, с.9.*

6. *Библиотечная энциклопедия. Казахстан. Национальная Библиотека, 2007, с.219.*

7. *www.kazakistalmati.blogspot.com*

8. *www.meclis.gov.az*

# THE MAIN STAGES OF DEVELOPMENT OF LIBRARY WORK IN KAZAKHSTAN

**KAZIMI P.F.**
***pkazimi@mail.ru***

**HUSEYNOVA N.**
***nubar.huseynova@mail.ru***

***SUMMARY***

***Keywords:*** Library of Kazakhstan, the modern library services, library natsionalnaya, e-resources.

*Books and library culture of Republic of Kazakhstan are investigated in the context of a common cultural heritage of the people Central Asia. Stages of development of the books and library culture of Kazak's people is expressed in the form of summary.*

# ОСНОВНЫЕ ЭТАПЫ РАЗВИТИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА В КАЗАХСТАНЕ

**КАЗЫМИ П.Ф.**
***БГУ, доктор философии***
***по историческим наукам***
***pkazimi@mail.ru***

**ГУСЕЙНОВА Н.**
***nubar.huseynova@mail.ru***

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *Библиотеки Казахстана, современние библиотечное обслуживание, нацоналная библиотека, електронные ресурсы.*

*Книжная и библиотечная культура рассматривается в контексте культурного наследия народов средней Азии. Статья обзорно охватывает книжную и библиотечную культуры Казахстанского народа и этапы его развития.*

# KİTABXANA FƏALİYYƏTİNİN MODERNLƏŞDİRİLMƏSİ

**Rəna ƏSƏDOVA**
**Bəybala ƏLƏSGƏROV**
***M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası***
***rena- @mail.ru***
***beybala- @mail.ru***

*Məqalədə Avtomatlaşdırılmış kitabxana-informasiya sistemi, həmçinin kitabxanada "kitabın yolunun" tam avtomatlaşdırılması texnologiyasının əsasını təşkil edən yarımsistemlər: ədəbiyyatın qeydiyyatı və sifarişi, elektron kataloqun formalaşdırılması ilə ədəbiyyatın sistemləşdirilməsi və kataloqlaşdırılması, beynəlxalq kitab mübadiləsi, kutabxanalararası abonement, biblioqrafik göstəricilərin yaradılması, oxucuların qeydiyyatı, istifadəçilərə milli və xarici məlumatlar bazası əsasında informasiya xidməti göstərilməsindən və bunların Azərbaycan Milli Kitabxanasının işində tətbiq olunmasından bəhs olunur.*

***Açar sözlər:*** *kitabxana fəaliyyəti, informasiya xidməti, informasiya texnologiyaları*

Müasir dövrdə demokratik ölkənin inkişaf səviyyəsi cəmiyyət həyatının bütün sahələrinə təsir göstərən informasiya texnologiyaları ilə sıx bağlıdır. Bu qanunauyğun bağlılıq ilk növbədə elm, təhsil və mədəniyyət məsələləri ilə bilavasitə əlaqədardır. Bu mühüm sahə kitabxana işinə də öz təsirini göstərməlidir. Belə ki, kitabxanalar dünya informasiya bazarında mövcud rəqabətlə ayaqlaşmaq üçün öz iş prinsiplərində dəyişikliklər etməli, müasir dövrün qarşıya qoyduğu tələblərə uyğunlaşmalı, dünya kitabxana təcrübəsində mövcud olan yenilikləri öyrənməli və fəaliyyətlərində tətbiq etməlidirlər. Bu yenilik və nailiyyətlərin kitabxanalara tətbiqi informasiyaların qorunub saxlanılması və ötürülməsinin yeni formasını həyata keçirən, oxuculara kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsini, onlara operativ və dolğun informasiya xidmətinin həyata keçirilməsini təmin edən avtomatlaşdırılmış kitabxana sisteminin mövcudluğu ilə səciyyələnir. Kitabxana-informasiya sisteminin mövcudluğu nəticəsində isə kitabxanalar ədəbiyyat anbarından yalnız çap nəşrlərinə deyil, eləcə də oxucu sorğularının tam və dolğun ödənilməsi üçün ənənəvi fondla bərabər zəngin elektron mətn, audiovizual fonda və müasir dövrün tələblərinə cavab verən müxtəlif informasiya resurslarının əksəriyyətinə girişi təmin edən məlumat mərkəzinə çevrilir.

Keyfiyyətli kitabxana-informasiya sistemi, "sifarişçi-server" şəbəkə texnologiyasına əsaslanan və vahid məlumatlar formatından istifadə zamanı

başlıca kitabxana-informasiya proseslərinin kompleks avtomatlaşdırılmasını təmin edən, vahid birləşmiş informasiya sisteminin mövcudluğu və kitabxananın bütün sahələrini əhatə edən ümumi kitabxana şəbəkəsinin mövcudluğunu ehtiva edir. Avtomatlaşdırılmış kitabxana-informasiya sistemi həmçinin kitabxanada kitabın yolunun tam dövrəsinin avtomatlaşdırılması texnologiyasını və həmcinin texniki və proqram vasitələrini özündə əks etdirir. Bu işin əsasını isə aşağıdakı göstərilən yarımsistemlər təşkil edir: ədəbiyyatın qeydiyyatı və sifarişi, elektron kataloqun formalaşdırılması ilə ədəbiyyatın sistemləşdirilməsi və kataloqlaşdırılması, beynəlxalq kitab mübadiləsi, kitabxanalararası abonement, biblioqrafik göstəricilərin yaradılması, oxucuların qeydiyyatı, istifadəçilərə milli və xarici məlumatlar bazası əsasında informasiya xidmətinin göstərilməsi.

Məlumdur ki, kitabxana kataloqu hər bir kitabxananın ədəbiyyat fondunun məzmununu açır və oxuculara xidmət prosesində bələdçilik edir. Oxuculara xidmət və kitabxananın digər bütün fəaliyyəti məhz onun üzərində qurulur. Müasir dövrdə informasiyanın sürətlə artması və köhnəlməsi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq xidmət göstərilməsini diqtə etdiyindən ənənəvi kitabxana kataloqlarını bu gün elektron kataloqlar əvəz edir.

Elektron kataloq oxuculara şəbəkə vasitəsilə kitabxananın ədəbiyyat fondunun tərkibi ilə tanış olmağa, öz sorğularına operativ və kitabxanaçı-biblioqrafın köməkliyi olmadan uzaq məsafədən sifariş verməyi təmin edir. Kitabxanalar üçün isə elektron kataloq kitabxana fondunun real uçotunu, oxucuların statistikasını, maraq dairəsinin müəyyən edilməsini, kitabın hərəkətinin izlənilməsini (yəni ədəbiyyatın kimdə olması, nə zaman qaytarılması, hansı müddətə götürülməsi və s.), ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komplektləşdirilməsini və yeniləşdirilməsini, oxuculara müasr səviyyədə “On line” xidməti təşkil etməyə imkan verir (oxuculara və kitabxanalara elektron göndərmə, metodik rəhbərlik və s.)

İndiki dövrdə ayrı-ayrı qabaqcıl ölkələrdə mövcud olan kitabxanaların işinin vəziyyətinin təhlili göstərir ki, inkişaf etmiş bütün ölkələrdə məhz bu istiqamətdə işlər daha müvəffəqiyyətlə aparılır.

Hazırda bütün dünyada kitabxana proseslərinin kompleks avtomatlaşdırılması tələblərinə cavab verən bir neçə avtomatlaşdırılmış kitabxana-informasiya sistemi mövcuddur ki,bunlardan biri də VTLS/VİRTUA proqramıdır.Bu sistem keçən əsrin sonlarında ABŞ-ın VTLS İnc. firması tərəfindən işlənib hazırlanmışdır.

Sistem ən vacib şəbəkə imkanlarına malikdir. Odur ki, sistemin mükəmməlliyi ondan həm lokal şəbəkələrdə və həm də İnternetdə istifadə etməyə imkan verir. Ona görə də bu sistem milli, akademik, kütləvi və fondunda milyonlarla nəşr saxlanılan iri həcmli kitabxanalarda istifadə etmək üçün nəzərdə tutulmuşdur. Onu da deyək ki, VİRTUA sistemi oxucuların sorğula-

rına cavab verən və əvvəllər təqdim olunmayan yeni xidmət növü yaratmağa geniş imkan verir. Oxucular indi VİRTUA elektron kataloqunun köməkliyilə İnternet vasitəsilə ədəbiyyatın uzaq məsafədən elektron sifarisini verə bilirlər. Bundan əlavə oxuculara digər bir xidmət növü, şəxsi elektron formulyara giriş də təqdim olunmuşdur. Buradan "hansı kitabı sən abonomentə götürmüsən", "onları sən nə vaxt təhvil verməli" və yaxud "vaxtını nə vaxta qədər uzada bilərsən" kimi məlumatları öyrənmək mümkündür. Bundan əlavə oxucu bu üsulla sorğu zamanı digər bir oxucuda olan ədəbiyyatı saxlatdıra bilər. Bununla da sanki oxucu kitaba "növbəyə durur". Kitab digər oxucudan geri qaytarılan kimi, avtomatik olaraq sorğu haqqında məlumat görünür və kitab növbəti oxucuya verilmək üçün kənara qoyulur.

VTLS oxuculara digər xidmət növünü də təqdim edir.Məsələn, kitabxananın gələcək oxucusu istədiyi vaxt İntrernet vasitəsilə özü haqqında ən vacib məlumatları daxil edib şəxsi kartoçkasını doldura bilir.Qeydiyyat bürosu isə bu məlumatları yoxlayıb oxucu biletinə dair məlumatları və parolu oxucuya bildirir. Beləliklə oxucu kitabxananın mənəvi istehlakçısına çevrilir.

Bütün bu üstünlükləri nəzərə alaraq M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası 2000- ci idən etibarən yeni informasiya texnologiyaları vasitəsilə xidmətin daha keyfiyyətli olmasını təmin etmək qənaətinə gələrək, kitabxana fəaliyyətinin bütün sahələrində ciddi dəyişikliklər həyata keçirmək işinə başlamışdır. İşin yeni prinsipial istiqamət üzrə əsası qoyulduqdan sonra, istifadəçilərin sorğularının ödənilməsi üçün ən yeni şəbəkə texnologiyalarının tətbiq edilməsi işi ön plana çəkilmişdir. Elə o vaxtdan da kitabxana yeni şəraitdə öz qüvvəsini işçi personalının təlimi, avtomatlaşdırılmış kitabxana sistemi əsasında İnternet resurslarına giriş işinə, müasir xidmət kompleksinin tətbiq edilməsinə və struktur dəyişikliklərinə doğru yönəltmişdir. Belə ki, kitabxana öz tərəфdaşları ilə birlikdə avtomatlaşdırılmış sistemlərin öyrənilməsi və araşdırılması işi ilə məşğul olmuş, dünya standartlarına uyğun, beynəlxalq səviyyədə işləyəcək bir sistemin – VTLS Inc.(ABŞ) seчilməsinə qərar vermişdir. Bundan sonra kitabxana "Maşınla oxunan elektron kataloqun yaradılması" adlı layihə ilə 3 təşkilata - Avrasiya fonduna, ACIYF-na "Soros" - a) və IRTCL-ə müraciət etmiş, layihənin maliyyə dəstəyini əldə edə bilmişdir.

Nəhayət, bu layihənin bəhrəsi kimi 2005-ci ilin yanvar ayından Azərbaycan Milli Kitabxanasında Elektron resurslarının yaradılması şöbəsi fəaliyyətə başlamışdır. Yeni açılan şöbə elə həmin vaxtdan etibarən müxtəlif funksional avtomatlaşdırılmış kitabxana sistemi olan VTLS sisteminə malik olmuş və elektron kataloqunu da məhz VTLS proqramında MARC 21 formatında tərtib etməyə başlamışdır. Azərbaycan Milli Kitabxanası VTLS proqramının bütün modullarını əldə etmişdir. Hazırda sistemin Komplektləşdirmə, Kataloqlaşdırma, Oxucu qeydiyyatı və axtarış modulu olan OPAC fəaliyyət göstərir və digər modullardan istifadə etmək üçün hazırlıq işləri görülür. Bu

sistem vasitəsilə Azərbaycan Milli Kitabxanası elektron kataloqunun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, milli biblioqrafiyanın tərtibi kimi mühüm işlərlə daha intensiv məşğul olmaq imkanı qazanmışdır.Göründüyü kimi VTLS oxuculara xidmətlə bağlı informasiya resurslarının yaradılması üчün kompleks sistem təqdim edir. Bu proqram artıq uzun müddətdir ki, müxtəlif ölkələrdə müvəffəqiyyətlə fəaliyyət göstərərək özündə Oxucu-Kitabxana-İnformasiya sxemi üzrə yeni informasiya texnologiyalarının ən müasir elementlərini toplamışdır. Hazırda oxucuların kitabxananın elektron resurslarına uzaq məsafədən girişi korporativ şəbəkə vasitəsilə həyata keчirilir. Oxucuların Azərbaycan Milli Kitabxanasının elektron kataloquna uzaq məsafədən girişi artıq 2006-cı ilin mart ayından təmin olunur.

Bu sistem Azərbaycanda kitabxana proseslərini dolğun şəkildə özündə realizə edən, Internet vasitəsilə dünyaya və respublikaya yayımlanan ilk sistemlərdən biridir. Qeyd edildiyi kimi, Milli Kitabxana elektron kataloqunun məlumat bazasına biblioqrafik yazıları məhz MARC 21 formatında daxil edir.

Milli Kitabxanada elektron kataloqun məlumat bazasına 1986-cı ildən indiyə kimi Azərbaycan, rus, ingilis, alman, türk və digər xarici dillərdə olan aşağıdakı ədəbiyyat növlərinin biblioqrafik yazıları daxil edilir:

- Monoqrafiyalar.
- Seriya ilə nəşr olunan monoqrafiyalar.
- Dissertasiya və avtoreferatlar.
- Not-musiqi nəşrləri.
- Kartoqrafik nəşrlər.
- Elektron resurslar.
- Dövri mətbuat.
- Qəzet materiallarının analitik təsviri.

Elektron kataloqunda biblioqrafik yazılar AACR 2-yə uyğun olan “Правила составление библиографического описание” (2-е изд., прераб и доп. М., 2003) nəşri əsasında tərtib olunur.

Hal-hazırda elektron kataloqunda ümumilikdə 158606 biblioqrafik yazı tərtib olunaraq məlumat bazasının yaddaşına 332515 nüsxə ədəbiyyat daxil edilmişdir. Bunların icərisində klassiklərimizdən Z.Marağayinin, Firidun bəy Köçərlinin, Ü.Hacıbəylinin, M.Ə.Sabirin və digərlərinin bəzi əsərlərinin elektron variantı da var ki, oxucular bu haqqda məlumatı elektron kataloqun bibloiqrafik yazısında görə bilərlər.

Yeni şöbənin kollektivi belə hesab edir ki, bu sahədə görülən işlər Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinə ən lazımlı hədiyyə kimi bundan sonra da davam etdiriləcək və bir çox faydalı tədbirlər həyata keçiriləcəkdir.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A., Qurbanova A. Kitabxanaların kompüterləşməsinin əsasları: Dərslik.- Bakı, BDU, 2006.- 205 s.*

*2. Xələфov A.A., Hüseynova A. Elektron kataloqlarının əhəmiyyəti və təşkili prinsipləri // Bakı Universiteti Xəbərləri: Humanitar elmlər seriyası.- 2004, № 4, s. 288-290.*

*3. Qafurova L. Kitabxana işinə yeni baxış [Tbilisi təəssüratları. Söhbəti yazdı N.Nərimanoğlu] // Mədəni-maarif. – 2000. - №1. – S.35-36.*

*4. Tahirov K. İnternet və kitabxana: [M.F. Axundov adına Azərbaycan Kitabxanasının direktor müavini ilə müsahibə] // "Respublika" qəz, 2003. 13 iyul.- s.6.*

*5. Tahirov K. Axundov kitabxanası elektronlaşır:[M.F. Axundov adına Milli Kitabxananın direktoru ilə müsahibə] // Mərkəz, 2005. – 12 avq. - s.12.*

*6. Tahirov K. Milli Kitabxana elektronlaşdırılır: [Müsahibə] // "Üç nöqtə" qəz., 2005. – 27 avqust. – s.8.*

*7. Hacıyeva M. Kitabxanaların yeni əməkdaşlıq formaları // "Mədəni-maarif işi" jurn., 2003, № 10.-s. 42-45.*

*8. Rüstəmov Ə., Mustafayeva N. Elektron kitabxana problemi: Elektron kitabxana resurslarının qısa xarakteristikası // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2005, № 2.- s. 30-40.*

## MODERNIZATION OF LIBRARY

**R.Q. ASADOVA**
**B.A.ALESGEROV**
***rena- @mail.ru***
***beybala- @mail.ru***

### *SUMMARY*

***Keywords:*** Librarianship, information services, information technology

*This article is about how to apply automatization of library-information system, az well az half systems such az registration and order of the literature, systematization and cataloging of literature via formatting of electron catalogue, international book exchange, interlibrary subscription, elaborating of bibliographic indexes, information services to users on the base of data base in national and foreign languages which are the grounds of automatization of book circulation technologies to the Azerbaijan National Library.*

# МОДЕРНИЗАЦИЯ ДЕЯТЕЛЬНОСТИ БИБЛИОТЕК

**Р.К. АСАДОВА**
**Б.А.АЛЕСКЕРОВ**
***rena- @mail.ru***
***beybala- @mail.ru***

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *Библиотечное деятельност, информационный обслуживание, информационные технологии*

*В статье речь идет об автоматизированной библиотечно-информационной системе, в том числе о подсистемах, обеспечивающих автоматизированную технологию полного «пути книги». К ним относятся: учет и заказ литературы, ее систематизация и каталогизация путем формирования электронного каталога, международный книжный обмен, межбиблиотечный абонемент, создание библиографических указателей, а также учет читателей и оказание справочных услуг пользователям с помощью национальной и иностранной информационных баз и внедрение их в работу Азербайджанской Национальной Библиотеки.*

# ƏDƏBİYYATŞÜNASLIQ BİBLİOQRAFİYASININ SORAQ-MƏLUMAT NƏŞRLƏRİ

**İSMAYILOVA S.P.**
***Bakı Dövlət Universiteti***
***Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi***
***simaismailova23@mail.ru***

**ABDULLAZADƏ F.F.**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi***
***abdullazade.f@mail.ru***

*Məqalədə ədəbiyyatşünaslığın biblioqrafik informasiya təminatında ədəbi-bədii əsərlərin nəşr tiplərindən olan soraq ədəbiyyatının, məlumat nəşrlərinin biblioqrafik mənbələri haqqında məlumat verilmişdir.*

**Açar sözlər:** *ədəbiyyatşünaslıq, soraq nəşrləri, məlumat ədəbiyyatı*

İnkişaf etməkdə olan respublikamızda elm və texnikanın sürətlə inkişafı ilə əlaqədar olaraq elm, təhsil, tərbiyə, mədəniyyət və informasiya funksiyalarını yerinə yetirən sosial institutların yəni kitabxanaların da rolu artır, əhəmiyyəti isə əvəz edilməz olaraq qalır. Məlumdur ki, elm və texnika inkişaf etdikcə informasiya ehtiyatı genişlənir və sənəd kütləsi artmağa başlayır.Bu halda isə bəzən lazımi informasiya əldə etmək üçün lazımi sənədi tapmaqda bir sıra çətinliklər törənir ki, bunun aradan qaldırılması üçün əsas vasitə biblioqrafiyadır. Məlumdur ki, gözəl təbiətə hər cür maddi və mənəvi zənginliklərə malik olan vətənimiz, bu gözəllikləri duyub, anlayan onlardan zövq almaqla yanaşı həm də insanlarda estetik zövq yaradan bir çox alim və,yazıçı,şair və digər görkəmli şəxsiyyətlər yetişdirmişdir. Elə bu səbəbdən də ədəbiyyatşunaslığa dair informasiyanın çoxalması,çoxlu miqdarda yüksək səviyyəli ilkin mənbələrin yaranması, ədəbiyyatşunaslığın sənəd kütləsinin artması, bu sahəyə dair xüsusi, sahəvi ədəbiyyatşunaslıq biblioqrafiyasının yaranması zərurətini meydana çıxarmışdır. Odur ki, bədii ədəbiyyat və ədəbiyyatşunaslıq biblioqrafiyası müstəsna əhəmiyyət kəsb edir. Həmçinin bədii ədəbiyyat və ədəbiyyatşunaslıq biblioqrafiyasının özü də qollara bölünür ki, bunlardan oxucuların və informasiya təlabatçılarının faktoqrafik və biblioqrafik informasiya təlabatlarının ödənilməsində soraq məlumat nəşrləri yəni ensiklopediyalar, lüğətlər, ensiklopedik xarakterli məlumat nəşrləri və s.mühüm əhəmiyyət kəsb edir. Məlumat xarakteri daşıyan sənədlər dedikdə, özündə bu və ya digər elm, bilik sahəsi və ya şəxslərə dair elmi, elmi kütləvi

faktoqrafik və s. məlumatları əks etdirən sənədlər nəzərdə tutulur (4). Bu cəhətdən Makulu Pənahinin tərtib etdiyi "Ədəbi məlumat cədvəli", Teymur Əhmədovun "Azərbaycan yazıçıları", Əziz Mirəhmədovun "Ədəbiyyat-şünaslıq terminləri lüğəti" diqqətəlayiqdir.

On məşhur şərq mənbəyinə əsaslanan M.Pənahi tərəfindən tərtib olunmuş "Ədəbi məlumat cədvəli "Klassik biblioqrafik mənbələrdən – təzkirələrdən istifadə etməli olan ədəbiyyatşunas tədqiqatçı alimlərin işlərini yüngülləşdirmək üçün Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmalar fondu tərəfindən hazırlanması lazım bilinmişdir. Cədvəl Azərbaycan dilində tərtib olunsa da məlumat metodiki aparatı 3 dildə (Azərbaycan, rus, ingilis) tərtib olunmusdur. Cədvəl on zəngin mənbə əsasında:

1. Təzkirətüş şüəra (Əmir Dövlətşah ibn-əlaüd-dövlə Bəxtişah Qazı Səmərqəndi, 1486).
2. Təzkireyi-həft iqlim (Əmin Əhməd Razi,1593).
3. Təzkireyi Atəşgədə (Lütfəli bəy Azəri Bəkdili, XVII əsr).
4. Təzkireyi-Xəzaneyi Amirə (Əmir Qulaməli xan Azad Hüseyn Belqirami, 1762).
5. Məcməül-Füsəha (Rzaqulu xan Hidayət (Lələbaşı), 1878, 2 cilddə).
6. Qamusul-Elam (Şəmsəddin Sami bəy ,1888-1898, 6cilddə)
7. Təzkireyi-Nəvvab (Mir Möhsün ibn Hacı Mir Əhməd Qarabaği, 1913).
8. Riyazül-Aşiqin (Məhəmməd ağa Müctəhidzadə,1910).
9. Azərbaycan ədəbiyyat tarixi materialları (F.Köçərli, 1925, 4 cilddə).
10. Danişməndane Azərbaycan (Məhəmmədəli Tərbiyət, 1937) hazırlanmışdır.

Bu zəngin və olduqca mürəkkəb mənbələrin sistemli və daha aydın şəkildə istifadəçilərin,əsasən də mütəxəssis ədəbiyyatşunas alimlərin istifadəsinə verilməsinin müstəsna əhəmiyyəti vardır.Belə ki, fars və ərəb əlifbası ilə yazılmış mənbələrdən istifadə qarşıya bir sıra maneələr çıxır ki, bu cədvəl bu çətinliyi aradan qaldırır, ilkin mənbələrdə pərakəndə şəkildə düzülməsindən asılı olmayaraq cədvəl əlifba sırası ilə tərtib olunaraq axtarışı asanlaşdırır, həmçinin əsərin mətn formasında deyil cədvəl şəklində tərtibi sorğuların daha tez səmərəli, bitkin və hərtərəfli ödənilməsinə şərait yaradır. Qeyd etmək yerinə düşərdi ki, cədvəldəki məlumatlar on mənbəyə əsasən təhlil edilərək uyğunsuzluqlar müqayisəli şəkildə izah edildiyi üçün cədvəl olduqca dəqiq xarakter daşıyır. Tərtib zamanı şairlərin təxəllüsləri əsas götürülmüş, adı və atasının adı ondan sonra yazılmışdır. Təxəllüsü olmayan şairlərin adı əsas götürülərək əlifba sırası ilə yazılmışdır. Titullar isə addan sonra mötərizə içərisində yazılmışdır. Cədvələ daxil edilən yazıçı və şairlərin ən məşhur əsərləri göstərilmişdir. Cədvəldə istifadə edilən mənbələr, yəni təzkirələr xronoloji qaydada düzülmüşdür. Cədvəlin əhəmiyyətli cəhətlərindən

biri də ondadır ki, bildiyimiz kimi təzkirələrdə tarixlər hicri təqvimlə verilir, cədvəldə isə həmin tarixlər həm hicri həm də miladi tarixə çevrilərək göstərilmişdir. Cədvəldə adları çəkilən şair və yazıçıların "təxəllüsü, adı və atasının adı, doğulduğu il, vəfat etdiyi il,doğulduğu yer, vəfat etdiyi yer, hansı dillərdə əsərlər yazmışdır,məlumat hansı mənbədən götürülmüşdür" hamısı qeyd olunmuşdur.

Ensiklopedik xarakterli məlumat nəşrində "ədəbi məlumat cədvəli", "kitabda adı çəkilən qadın şairələr", "iki dildə şeir yazan şairlər", " üç dildə şeir yazan şairlər", "şairlərin əsrlər üzrə təsnifatı" kimi bölmələr verilmiş, cədvəldən axtarışı asanlaşdırmaq üçün ərəb dilində "Adlar siyahisi" köməkçi aparatı tərtib olunmuşdur. Həmin adlar istedadlı xəttat Darabadi tərəfindən ərəb əlifbası qrafikası ilə yazılıb və foto-faksimilesi kitaba əlavə olunmuşdur. Eyni təxəllüslər yalnız bir dəfə yazılmışdır. Bu siyahi ərəb əlifbası ilə müxtəlif şəkildə yazılan hərfləri dəqiqləşdirməyə və bu sahədə çətinlik törədən cəhətləri aydınlaşdırmağa kömək məqsədi ilə ərəb dilində tərtib olunmuşdur. Nəticə olaraq qeyd etməliyik ki, VI-XX əsr ərzində yazıb yaradan şairləri əhatə etməklə böyük bir dövrü əks etdirən və 5711 şair haqqında məlumat verən cədvəl istifadəçilər üçün olduqca zəngin məlumat mənbəyidir.

Ədəbiyyatşunaslıq sahəsində soraq-məlumat nəşrlərindən danışarkən, özünə məxsus çəkisi ilə fərqlənən "Azərbaycan yazıçıları" adlı vəsaiti qeyd etmək yerinə düşərdi. (Əhmədov T. Azərbaycan yazıçıları. ensiklopedik məlumat kitabı. Bakı: Önər, 1985, 864 s.) Vəsait uzun müddətdir ki, AMEA-nın Nizami adına ədəbiyyat institutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinə rəhbərlik edən, filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas alim, jurnalist Teymur Əhmədov tərəfindən tərtib olunmuşdur. "Faydalı kitab" adı altında ilk nəşrə müqəddimə xalq yazıçısı, akademik Mirzə İbrahimov tərəfindən yazılmışdır (29 may, 1978). Bu kitabda yazıçıların tərcümeyi-halı, hansı əsərləri yazdığı, onların çapı, başqa dillərə tərcüməsi barədə müxtəsər, yığcam məlumat verilir. Ədəbiyyatşunas alim T.Əhmədov bu kitabı ensiklopedik ruhda tərtib etmişdir. O, hətta yazıçıların ünvanını,telefon nömrəsini də oxuculara çatdırmışdır.Burada hər bir yazıçının qısa biblioqrafiyası ilə bərabər, yaradıcılığının ən səciyyəvi cəhəti də qeyd olunur.Vəsaitdə materialların əks olunması seçmə xarakter daşıyır və hər bir müəllifin yaradıcılığı tam dolğunluqla əks etdirilir. İkinci nəşrə müqəddimə isə AMEA-nın müxbir üzvü Ə.Mirəhmədov tərəfindən yazılmışdır (14 aprel, 1994). Bu kitabda respublikada və ondan kənarda yaşayan səkkiz yüzdən artıq yazıçı, tərcüməçi, redaktor, alim, nasir və b. ədəbi şəxsiyyətlər haqqında məlumat verilmişdir. Şəxsiyyətlər haqqında yığcam, əhatəli,dəqiq bioqrafik məlumat verildiyinə görə ensiklopedik nəşrlər silsiləsinə aiddir. İlk nəşrdən fərqli olaraq həcmi artırılmış bu mənbədə 887 nəfər ədəbi şəxsiyyət haqqında məlumatın verilməsi nəşrin informasiya potensialını daha da artırmışdır. Üç

yüz iyirimi beşə qədər yazıçı kitaba (ikinci nəşrə)ilk dəfə daxil edilmişdir ki,bunların da əsasən birinci nəşrdə bu və ya digər səbəblərə görə "qələmdən düşənlər", "yaddan çıxanlar" ,yazıçılar birliyinə son illərdə qədəm qoyanlardır. "Azərbaycan yazıçıları" ensiklopedik məlumat kitabının təkmilləşdirilmiş yeni üçüncü nəşri bütünlüklə XX əsri əhatə edir. Bu əsrdə "Azərbaycan ədəbiyyatı son dərəcə zəngin çox cəhətli, sıx əlaqəli olması ayrı-ayrı ədəbi şəxsiyyətlərin diqqət daşıyan, parlaq, ictimai fəaliyyəti, bədii yaradıcılığı ilə səciyyələnir. Bu kitab 2004-cü ildə Nurlan nəşriyyatı tərəfindən çap olunmuşdur. (Əhmədov T. XX əsr Azərbaycan yazıçıları. ensiklopedik məlumat kitabı (təkmilləşdirilmiş III nəşr). Bakı: Nurlan, 2004, 984 s., şəkilli). Bu nəşr XX əsr Azərbaycan yazıçılarının həyat və yaradıcılığı haqqında ensiklopedik məlumat toplusudur. Burada öz əsərləri ilə milli-mənəvi xəzinəmizi zənginləşdirən yazıçıların oçerkləri verilmişdir. Sovet hakimiyyəti dövründə represiyaya məruz qalan və mühacirətdə – Türkiyə, İran, İraq, ingiltərə və başqa xarici ölkələrdə yaşayıb yaradan soydaşlarımızın, 1990-ci il yanvarın on doqquzundan iyirmisinə keçən müdhiş gecə -sovet ordusunun Bakıya hücumu zamanı şəhid olan ,həmçinin Qarabağ münaqişəsi başlananda doğma yurd-yuvasından didərgin salınan qələm sahiblərinin tərcümeyi halları da kitaba daxil edilmişdir. "Azərbaycan yazıçıları" ensiklopedik məlumat kitabı Azərbaycan ədəbiyyatının ədəbi-mədəni irsi ilə maraqlanan hər kəs üçün qiymətli mənbədir. Məlumat kitabı- "Fundamental ədəbi salnamə"(Kamal Talıbzadə),"Faydalı kitab"(Mirzə İbrahim), "Yazıçı ömrünün salnaməsi"(Əziz Mirəhmədov)" Ön söz əvəzi" (T.Əhmədov) bölmələrindən ibarətdir. Vəsaitdə əlifba sırası ilə yazıçılar haqqında bioqrafik məlumatdan sonra əsərlərinin qısa biblioqrafiyası verilmişdir ki, bu da biblioqrafik məlumat əldə etmək istəyənlər üçün mühüm əhəmiyyət kəsb edir. Ensiklopedik məlumat kitabı bütöv bir əsrdə həmin mərhələyə mənsub yazıçıların nəsli içərisindəki dəyişiklikləri, inkişafı əks etdirir. Yazıçı salnaməsi yaşından, mövqeyindən, şöhrət və vəzifəsindən asılı olayaraq hər hansı ədəbi şəxsiyyətin dəqiq tərcümeyi-hal məlumatını, biblioqrafik göstəricisini qısa, yığcam və olduğu kimi nümayiş etdirir. Hər yazıçı nəslini dəqiqliklə ifadə etmək məqsədi salnamənin müəllifinə imkan verir ki, bir əsr daxilində yüzlərlə yazıçının həyatındakı dialektik inkişafın mənzərəsini yaratsın. Ensiklopedik nəşrin 1965-ci il nəşri əgər səkkiz yüz səksən yeddiyə qədər yazıçını əhatə edirdisə, yeni əşrdə bir sıra texniki qüsurlar aradan qaldırılmış, haqqında məlumat verilən yazıçıların sayı iki dəfədən çox artırılmışdır. Müəllif bəzi məlumatları təkmilləşdirmiş, dəqiqləşdirmiş, müasir ədəbi prosesi ayrı-ayrı yazıçıların yaradıcılıqları ilə əlaqələndirmişdir. "XX əsr Azərbaycan yazıçıları" kitabının əhəmiyyətini artıran cəhətlərdən biri də XX əsr Azərbaycan mühacir ədəbi qüvvələrini də əhatə etməsidir. Daha sonra

qeyd edə bilərik ki, biblioqrafik nəşrlərin azlığı şəraitində bu məzmunda ensiklopedik məlumat kitabının hazırlanması çox böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyatşünaslığın soraq-məlumat xarakterli nəşrlərindən biri də ədəbiyyatşünas alim Ə.Mirəhmədov tərəfindən tərtib olunmuş “Ədəbiyyatşünaslıq terminləri lüğəti”dir. XX əsrin 50-60-cı illərində ədəbiyyat nəzəriyyəsinə və terminalogiyasına aid əsərlərin ,məlumat kitablarının və sahəvi lüğətlərin Azərbaycan dilində nisbətən az buraxılması respublikamızda bu sahəyə ehtiyacı daha da artırmışdır. “Ədəbiyyatşunaslıq terminləri lüğəti”nin 1957-ci ildə birinci nəşri bu sahdə ilk addımlardan idi. Bu nəşrin hazırlanmasında xeyli elmi ədəbiyyatdan istifadə edilməsinə baxmayaraq tərtibçi, görkəmli alim, SSRİ pedoqoji elmlər akademiyasının həqiqi üzvü Timofoyevle, L.Venqrovun yazdığı məşhur “Краткий словарь литературоведческих терминов” kitabına ilk məxəz kimi əsaslanmışdır. Müəllif dünya ədəbiyyatı terminləri ilə yanaşı Məhz Azərbaycan klassik və şifahi xalq ədəbiyyatına ümumiyyətlə Yaxın və orta Şərq ədəbiyyatına aid olan terminlərin izahına lüğətdə daha geniş yer verilmişdir. İstifadəçilərin sorğularını hərtərəfli ödəmək üçün bəzi terminlər ətraflı izah edilmişdir.Lüğətin 1988-ci il nəşri daha da təkmilləşdirilmiş və “Maarif” nəşriyyatında çap olunmuşdur. (Mirəhmədov.Ə. Ədəbiyyatşunaslıq terminləri lüğəti. – B.: Maarif, 1988. – 268 s.) Lüğətdə dünya klassik və müasir ədəbiyyatına ,xüsusilə Azərbaycan bədii söz sənətinə aid terminlər və anlayışların izahı verilmişdir. Şifahi ədəbiyyatın yaradıcılıq metodları və ədəbi cərəyanların xarakteriskası kitabda mühüm yer tutur. Şərqə aid terminlərin böyük bir qismi Azərbaycan elmi ədəbiyyatında ilk dəfə izah olunur. Terminlərin izahında tarixi-xronoloji prinsip gözlənilmiş ,lüğətə tövsiyyə annotasiyası yazılmışdır. Lüğətin əsaslı surətdə təkmilləşdirilmiş yeni nəşrinin hazırlanması zəruriliyi onun sözlüyü, ümumiyyətlə, SSRİ xalqları ədəbiyyatını oxuyub, öyrənənlərə kömək məqsədi ilə nəzərdə tutulsa da, bu xalqların ən çox işlənən ədəbiyyatşunaslıq terminlərindən nümunələr daxil edilsə də, əlavə olunmuş terminlərin çoxu Azadə, Alqış, Bəyan, Bəlağət, Qarğış, Sanama, Xəmsə və b. bu kimi sırf Azərbaycan kaloritli terminlərdir. Ədəbiyyat tarixi, Ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid sahəsinə aid bədii uydurma, dünya ədəbiyatı, ədəbi surətlər, ədəbiyyatın tərbiyəvi əhəmiyyəti və b.bu kimi beynəlxalq səciyyəli terminlər də lüğətdə ilk dəfə izah olunur .Həmçinin, SSRİ xalqları ədəbiyyatına və xarici ədəbiyyata dair də yeni əlavələr edilmişdir. Bütün bu əlavələr nəticəsində lüğətdə 543 terminin izahı verilmişdir. Əvvəlki kimi yaradıcılıq metodlarından, ədəbi formalarından, janr və növlərdən bir çoxunun izahı, tarixi aspektdə verilir, onların müasir dünya ədəbiyyatında, xüsusilə çox millətli sovet ədəbiyyatında və onun qüvvətli qollarından biri olan Azərbaycan söz sənətində nə kimi mövqe tutduğu məna kefiyyətcə dəyişib-dəyişilmədiyi göstərilir. Bəzi terminlərin izahı xeyli

dəqiqləşdirilmiş, gətirilən bir çox misallar başqaları ilə əvəz olunmuş yaxud əvvəlki misallara yeniləri də əlavə edilmişdir. İzahı xeyli genişləndirilmiş terminlərdən Bayatı, Vodevil, Qəzəl, Qəhrəman, Divan, Ədəbi əlaqələr, Əruz vəzni, Publisistika, Təcnis, Ustadnamə və s. qeyd etmək olar. Ədəbiyyatın mahiyyəti bədiilik, ədəbi cərəyanlar, müasir burjua ədəbiyyatının xüsusiy-yətləri və s. bu kimi məsələlərin nəzəri cəhətdən mümkün qədər yeni izahına xüsusi fikir verilmişdir.Ona görə çox təbii olaraq, bəzi köhnəlmiş müddəaları lüğətdən çıxarmaq lazım gəlmişdir.

Nəticə olaraq ədəbiyyatşünaslıq elm və mədəniyyətlə bağlı yüksək inkişaf etmiş bir sahə olduğu üçün ədəbiyyatşünaslığa dair sənəd kütləsi də çox zəngin və olduqca rəngarəngdir. Məhz elə bu zaman professor Z.Əliyevin fikrini qeyd etmək yerinə düşərdi: ”Sənədlər və təlabatçılar arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd yığımından daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən vasitəçilərdən biri də biblioqrafiyadır. (3) Yəni hər iki sahənin əməkdaşlarının birgə səyi nəticəsin-də həm ayrı-ayrılıqda ədəbiyyatşünaslıq və biblioqrafiyaşünaslıq sahə-sində,həm də eyni zamanda ədəbiyyatşünaslıq biblioqrafiyasının inkişafında mühüm nailiyyətlər əldə etmiş olarıq.

## ƏDƏBİYYAT

*1. Əhmədov T. XX əsr Azərbaycan yazıçıları .ensiklopedik məlumat kitabı (təkmilləşdirilmiş III nəşr). – Bakı: Nurlan , 2004. – 984 s. – (şəkilli)*

*2. Əhmədov T. Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı. B.: Önər, 1985, 864 s.*

*3. Əliyev Z.H. Biblioqrafik informasiya və onun elmi mahiyyəti // Kitabxanaşunaslıq və biblioqrafiya . – 1998 , №1. – s .19.*

*4. İsmayılova S.P Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşunaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi. Dərs vəsaiti. – Bakı: BDU, 2008, 66 s.*

*5. Mirəhmədov Ə. Ədəbiyyatşunaslıq terminləri lüğəti. – Bakı: Maarif, 1978, 199 s.*

*6. Mirəhmədov Ə. Ədəbiyyatşunaslıq terminləri lüğəti (işlənilmiş və təkmilləşdirilmiş IV nəşr). – B.: Maarif, 1988. – 268 s.*

*7 . Pənahi Makulu. Ədəbi məlumat cədvəli. – B.: Elm. – 1962. – 574 s.*

## DIRECTORY EDITIONS OF LITERARY CRITICISM'S BIBLIOGRAPHY

**ISMAYILOVA S.P.**
**ABDULLAZADE F.F.**
***simaismailova23@mail.ru***
***abdullazade.f@mail.ru***

### SUMMARY

***Keywords:*** *literature; news publishers; news literature*

*This article provides information about the importance of directory editions of literary criticism and bibliography and explanation of the main features of encyclopedic editions of philological scientists.*

## ИЗДАНИЯ СПРАВОЧНОЙ ИНФОРМАЦИИ О БИБЛИОГРАФИИ ЛИТЕРАТУРОВЕДЕНИЕ

**ИСМАИЛОВА С.П.**
**АБДУЛЛАЗАДЕ Ф.Ф.**
***simaismailova23@mail.ru***
***abdullazade.f@mail.ru***

### РЕЗЮМЕ

***Ключевые слова:*** *литературоведение; справочное издание; информационное издание.*

*В этой статье, дана информация о важности изданий справочной информации в области библиографии и литературоведение, также были объяснены основные характерные черты энциклопедических изданий ученых литературоведов.*

# THE MAIN DIRECTION DEVELOPMENT OF INFORMATON OF LIBRARY SYSTEM IN MODERN INTEGRATION CONDITION

**Sh.I.ISLAMOVA**
***Ph. D. in History,***
***Institute of Economy ANAS***
***islamova_@mail.ru***

*The article main development trends of library system in modern integration condition are considered. In the end of the article for providing development perspectives of analyzing field efficiency suggestions and recommendation are also given.*

***Keywords:*** *integration, globalization, national economy, student library, development, library.*

## Introduction

Technology has changed users expectations, their patience and their willingness to accept services that the library provides only at its own convenience. Now a days, libraries and information centers are increasingly being called upon to provide more relevant, up-to-date and timely information to a wide range of users. To satisfy the varied needs, they require availability and accessibility to a variety of information resources and formats (such as digital, full text, sound, graphics, images, multimedia, and hypertext as well as printdocuments). Unfortunately, there is a scarcity of adequate information resources in the libraries. The libraries suffer from inadequate funding or stringent budget cuts. This has affected the level of services offered to users both in terms of quality of collections and the degree of staff support provided [1]. Only a few libraries afford to have a wide range of information resources within their budget. Consortia among libraries seem to be the only solution to the lack of resources. Consortia can become an excellent way in the process of collections, digitizing, organizing and making accessible the electronic resources [2].

Consortia are regarded as an effective strategy to increase the buying power of individual library over the short term and as an opportunity to maximize opportunities for cooperative collection building and for resources sharing over the long term. They offer libraries the ability to give users the access, they are coming to expect and demand to a much broader range of materials than any one library could possibly offer.

Consortia mean a group of libraries with common interest to increasethe availability of resources and to offer automated services. Themain purpose of library consortia is to facilitate easy access toresources and services to a wider category of users. Consortia can be formed on a local, regional, national or international basis.

A library consortium is a formal association of libraries, not under the same institutional control, but usually restricted to a geographical area, number of libraries, types of materials, or subject interest, which is established to develop and implement resource sharing among members. The objective of library consortia is to control and reduce information costs, to improve resource sharing, to develop a network information environment (e.g. via campus systems, campus networks and the internet) and to share licensing issues with each other [3].

There is scarcely an academic library left in the world that has the financial resources to purchase all the journals it needs for its users alone. Therefore the library consortia attempt to rationalize the building and use of information resource collections through sharing and by granting access more than ownership. Few factors that necessitate the need for building library consortia are as follows [4].

– The continuous increase of cost of journal subscription combined with lack of adequate funding are leading academic libraries to seek collaborative acquisitions strategies and to consider the potential of electronic resources;

– The exponential growth in the production of knowledge has made it more and more impossible for the individual library to purchase all the relevant resources. The effect has been that libraries have become more and more dependent on inter lending in order to fulfıll the requirements of their users;

– The rapid technological developments have resulted in aconstant reassure for new hardware, software and education and training of library staff;

There is a need to share staff expertise as a means of keeping up-to-date in an ever- changing social, political, managerial and technological environment;

– The overwhelming application of new technologies, new methods of information retrieval / dissemination has contributed to rapid escalatinguser expectations in the sense that the users expect library information to be delivered as fast as any other information they need.

Writing about the recent trends in academic library consortia, identified following reasons for formation of consortia.

– Better sharing of existing resources and jointly acquiring new resources at great savings;

– Identifying and addressing common needs arising fromdevelopment in information technology;

–Providing enhanced library services with an emphasis on access to new electronic resources including databases, and services offered through the Internet and the World Wide Web;

– Expediting interlibrary borrowing, which has evolved into providing as many electronic resources as possible at the lowest cost to consortia members.

In modern conditions indicated that new library consortia developed primarily for three reasons.[1]

To leverage resources by sharing existing collections or resources through virtual union catalogues;

–To reduce the cost of member library operations by obtaininga group purchase price for information products; and

–To bring pressures to bear on information providers, especially publishers to reduce the rate of rise in the cost of purchasing information.

Following issues are to be considered while building library consortia.

– Identification and negotiation of publishers / vendors to provide access under consortia purchase;

– Legal issues involved in contracts and usage of materials within the consortia;

– Identifying the necessary infrastructure for access to electronic resources.

– Users of all librarıes of the consortia to get equal access to allthe information at all time;

– Sharedtransactions of costs and time among participating libraries;

– Documentation and training of library staffs.

**Modern role of libraries consortia in globalization word**

– Consortia look for opportunities to reduce costs and increase access by evaluating products and negotiating directly with publishers;

– Consortia achieve greater efficiency and effectiveness infulfilling the libraries responsibility for providing, managing and maximizing electronic access to information resources of the region through online catalogue and other means of access;

– Consortia simplify library subscription, purchasing of all electronic journals, eliminate the need for different passwords for each title, simplify management of access to these periodicals, supply standard, provide searching facilities, assist librarians in electronic archiving, and enable electronic document delivery to users;

– Consortia can serve as a clearing-house or as a sponsor forlibrary staff exchanges and to develop monitoring programs;

– Consortia can help libraries to improve their operatingprocess and there by improve the ultimate quality of the services that are provided.

There will be investments to be made in hardware set up, mounting of data, development of interfaces, and administration of access.

In modern condition pointed the following uncertainties for consortia building:[2]

– Absence of awareness about the legal points relating to the access, ownership, and preservation of electronic resources;

– Absence of well definednational laws dictating the access and archival procedures of electronic resources;

– Absence of representatives of many of the publishers, which causes serious diffıculties while negotiating any consortia deals.

Consortia Initiative in world countries

Consortia in are still in their infancy. Many academic libraries have yet to experience the power of information technology applications to library and information services. In world countries it is the right time to develop consortia, so that the academic libraries can take the advantages of electronic information easily accessible to its users community.

Forum for Resource Sharing in Astronomy (FORSA) was established in 1981 in the world. It is a typical example of a homogenous group of members joined together in order to negotiate consortium licensing for differentjournals. It consists of five members. It has identified a subscription agent as a supplier of journals. Subscription for both print and electronic journals is paid through the supplier. The agreement is meant for only astronomy journals published by a particular publisher. The supply has agreed to be a negotiator between the members and the publishers to provide access to the licensed materials.

The Council for Scientific and Industrial Research (CSİR in Europe) has 40 laboratories involved in research and developments in science andtechnology. Each laboratory has well-established library and information centre. National Institute of Science Communication and Information Resource (NISCAIR) and other CSIR laboratories have worked to form CSIR consortium. The major objective of CSIR consortium is to strengthen CSIR library resources by sharing electronic access to scholars and scientists of CSIR labs. NISCAIR has made an agreement with M/s. Elsevier Science to access its 1,500 e-journals.

The Human Resource Development (MHRD in Europe) has set up National Digital Library in Science and Technology(INDEST) consortium. The consortium subscribes to full text electronic resources and bibliographic databases for 38 institutes including IISc, IITs, NITs, RECs, IIMs and a few other institutions funded by MHRD.

The expenditure on electronic resources proposed for subscription under the consortium for selected institutions would be met from the funds made available by

MHRD. The consortium, being an open ended proposition, welcomes other institutions to join it on their own for sharing maximum benefits it offers.

The University Grants Commission (UGC in Europe) has initiated a programme to provide high speed internet connections, electronic access to scholarly literature and the development of multimedia contents to supplement conventional teaching and learning. The programme is named as UGC-INFONET consortium. All universities, which come under UGC's purview, will be members of the consortium. The programme will be executed by Information and Library Network (INFLIBNET) centre.

A gateway portal has been identified to provide access to electronic resources and also access to resources of participating university of UGC-INFONET consortium. The portals play an important role by providing access to table of contents, abstract to the major çollection and link to full text journals.

Consortia should continue to work at the short-terrn goal (obtaining as much content as possible at the best price) while contributing substantially to the support of emerging initiatives in affordable scholarly communication.

As consortia become a major force in information delivery, they need to focus on their obligation to further the common aspirations of libraries and librarianship to provide equitable and affordable information to all. They need to become real players in the creation and dissemination of scholarly communication. To ensure long- term changes in the affordability and availability of scholarly information, consortia need to become partners in inventing new ways of information creation and delivery.

Government should also make attempts to provide the necessary infrastructure such as high speed network connections to access the electronic resources. Also it should make arrangements to conduct some training programme for the librarian on latest trends in librarianship and information technology.

## REFERENCE

*1. Allen, B and Hirshon, A. Opportunities for academic library consortia.lnformation Technology & Libraries. Poland, 1998, 17 (1), pp. 36-37.*

*2. Bjoernshauge, Lars. Consortia licensing: implications for digital collection development.Paper preseııted in 64 IFLA general conference 1998,R o m a n i a , 1 6 - 2 1 A u g 1998, p.45.*

*3. Hirshon, Arnold. The development of library client service programmers and the role of library consortia. Library Consortium Management: an International Journal, Poland , 1992, I(1-2), pp 19-22.*

*4. Карташов Н.С. Размешение библиотек: региональный аспект // Библиотека. – 2004. – № 3. – с.6-9.*

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ СИСТЕМЫ В УСЛОВИЯХ СОВРЕМЕННЫХ ИНТЕГРАЦИОННЫХ ПРОЦЕССОВ

**Ш.И.ИСЛАМОВА**
***islamova_@mail.ru***

### РЕЗЮМЕ

**Ключевые слова:** *интеграция, глобализация, национальная экономика, студенческая библиотека, развитие, библиотека.*

*В статье рассматривается основные направления развития библиотечной системы в условиях современных интеграционных процессов. В конце статьи даны предложения т рекомендации в направлении обеспечения перспектив развития исследуемой сферы.*

## MÜASİR İNTEQRASİYA ŞƏRAİTİNDƏ KİTABXANA-İNFORMASİYA SİSTEMİNİN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Ş.İ.İSLAMOVA**
***islamova_@mail.ru***

### XÜLASƏ

**Açar sözlər:** *inteqrasiay, qlobalalşma, milli iqtisadiyyat, tələbə kitabxanası, inkişaf, kitabxana.*

*Məqalədə müasir inteqrasiya şəraitində kitabxana sisteminin əsas inkişaf istiqamətlərinə baxılmışdır. Məqalənin sonunda tədqiq olunan sahənin inkişaf perspektivlərinin təmini isitiqamətində təklif və tövsiyələır verilmişdir.*

# S.VURĞUN ADINA SUMQAYIT ŞƏHƏR MKS-DƏ OXUCULARA KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

**Ramilə MEHDİYEVA**
***Bakı Dölət Universiteti***
***Kitabxanaşılıq-informasiya fakültəsinin magistrantı***
***Ramila_134@mail.ru***

*Məqalədə müasir dövrdə S.Vurğun adına Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemində oxuculara kitabxana-informasiya xidmətinin vəziyyətindən söhbət açılır. Kitabxanada xidmət işinin keyfiyyətini yüksəltmək üçün görülən tədbirlərin əhəmiyyəti vurğulanmış, kitabxananın kompüterləşdirilməsi və informasiya texnologiyalarının tətbiqinin bəzi məsələləri araşdırılmışdır. Regionlarda innovasiya biliklərinin tətbiqi məqsədilə digər kitabxanalarla təcrübə mübadiləsi aparılması məsələsinə də toxunulmuşdur.*

***Açar sözlər:*** *İnformasiya cəmiyyəti, kitabxana-informasiya xidməti, MKS, fond, metodik vəsaitlər, təcrübə mübadiləsi.*

Respublikamızın müstəqilliyinin möhkəmləndiyi, sosial-iqtisadi inkişafının yeni mərhələyə qədəm qoyduğu bir zamanda kitabxana işinin də dünya standartlarına uyğun olaraq formalaşması və inkişafı bu günümüzün aktual məsələsi hesab olunur.

XXI əsr cəmiyyətinin "İnformasiya cəmiyyəti" olduğunu nəzərə alaraq professor A.Xələfov kitabxanaların informasiya məkanındakı rolunu belə qiymətləndirmişdir: "Müasir informasiya cəmiyyətində kitabxanaların rolu o qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir" [4, 10].

Kitabxanalar cəmiyyətin mədəni səviyyəsinin yüksəlməsində, elm və mədəniyyətin inkişafında, insanların informasiya tələbatının ödənilməsində aparıcı bir müəssisəyə çevrilmişdir.

Hazırki şəraitdə respublikamızda çoxsaylı oxucu kontingentinin kitabxanaya cəlb olunması, onların ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsi, milli-mənəvi ideologiyanın, elmi dünyagörüşünün, mənəvi və estetik zövqün formalaşması, oxuculara informasiya xidmətinin yaxşılaşdırılması istiqamətində bir sıra təqdirəlayiq işlər görən kitabxanalardan biri də S.Vurğun adına Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemidir.

MKS-in fəaliyyətinin əsas istiqaməti şəhər əhalisinə kitabxana xidmətinin yaxşılaşdırılmasına, kitabla təbliğatın forma və metodlarının yenilənməsinə və çoxsaylı oxucu sorğularının ödənilməsinə yönəldilmişdir.

Qeyd edilməlidir ki, 2009-cu ildə kitabxananın yeni binasının istifadəyə verilməsi onun fəaliyyətinə əsaslı təsir göstərmişdir. 2011-ci ilin hesabatına əsasən kitabxananın 582776 nüsxə fondu, 60440 nəfər oxucusu, 1001580 nüsxə kitab verilişi, oxucuların kitabxanaya gəlişi 510052 nəfər olmuşdur. İl ərzində MKS-in fonduna 5990 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Alınan kitablar Kitabişləmə və Komplektləşdirmə şöbəsi tərəfindən işlənib MKS-in filiallarına çatdırılmışdır [5].

S.Vurğun adına Mərkəzi şəhər kitabxanasının nəzdində 6 şöbə: Xidmət şöbəsi; Komplektləşdirmə və kitabişləmə şöbəsi; Metodika-biblioqrafiya şöbəsi; Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi; İnformasiya-resurs şöbəsi; Vahid fondun təşkili və istifadəsi; Kitabxanalararası abonement şöbəsi fəaliyyət göstərir.

Mərkəzi Kitabxananın xidmət şöbəsi əhaliyə abonement və oxu zalı vasitəsilə xidmət göstərir. Oxucuların müxtəlif sorğularını tez və dolğun ödəməyə çalışır, çap əsərlərindən səmərəli istifadə etməyə kömək edir, fondun qorunmasını həyata keçirir. Şöbənin fondu 99504 nüsxədir. İl ərzində şöbəyə 1831 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.

Komplektləşdirmə və kitabişləmə şöbəsi oxucuların ümumtəhsil, mədəni və peşə sorğularının ödənilməsi üçün kitabxananın universal profilli kitab fondunu komplektləşdirir. Dövlət vəsaiti hesabına yeni ədəbiyyatları almaqla, Prezident aparatından, M.F.Axundov adına Milli Kitabxanadan kitab mübadiləsi yolu ilə, nəşriyyatların və müəlliflərin bağışladıqları kitablar hesabına kitab fondunu daim zənginləşdirir. Yeni daxil olan ədəbiyyatın uçotunu aparır, dövrü nəşrlərə abunə işini təşkil edir, fondun mühafizəsinə nəzarət işini həyata keçirir.

Kitabxananın müstəqil fəaliyyət göstərən Məlumat-biblioqrafiya və Təşkilati-metodika şöbələri birləşdirilərək 2011-ci ilin dekabr ayından etibarən Metodika-biblioqrafiya şöbəsi adlandırılmışdır. Şöbə sistemin bölmələrinin fəaliyyətini məzmun, forma və metodik baxımdan əlaqələndirir, kitabxanalarda biblioqrafiya işinin təşkilinə nəzarət edir. İşin yeni üsul və metodlarını öyrənməklə qabaqcıl təcrübəni aşkar edir, müxtəlif mövzularda metodik vəsaitlər hazırlayır.

Kitabxananın Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi 2011-ci ilin dekabr ayından fəaliyyət göstərir. Yeni yaradılan bu şöbə kitabxananın elektron kataloqunun idarə olunması, onun Kataloqlaşdırma, Komplektləşdirmə, Oxucu, Kitab verilişi modullarının işini təşkil etmək, bütünlükdə proqramın fəaliyyətinə Administrator modulu vasitəsi ilə nəzarət etmək, yeni elektron resursların yaradılması funksiyasını həyata keçirir.

İnformasiya-resurs şöbəsi 2011-ci ilin dekabr ayından fəaliyyət göstərir. Şöbə Mərkəzi kitabxananın Veb-saytının idarə olunması, kitabxananın

Elektron Kitabxanasının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini həyata keçirir, lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir.

Vahid fondun təşkili və istifadəsi, kitabxanalararası abonoment şöbəsi MKS-ə daxil olan kitabxanalar arasında ədəbiyyat mübadiləsi aparır, Vahid fondu təbliğ edir. Sistem kitabxanaları arasında müvəqqəti kitab mübadiləsi yolu ilə oxucuların sorğularının vaxtında və tam ödənilməsinə yardım edir. Vahid fondda lazım olan nəşrlər olmadıqda şöbə KAA vasitəsilə M.F.Axundov adına Milli kitabxanadan və digər kitabxanalardan lazımi çap məhsullarını müvəqqəti istifadə üçün əldə edir.

Oxucuya lazım olan kitabı tapmağa kömək məqsədi ilə əlifba və sistemli kataloqlar, sistemli və ölkəşünaslıq kartotekaları tərtib edilmişdir. İl ərzində də İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə Sistemi ilə bağlı işlər davam etdirilmişdir**.** Belə ki, 2011-ci ildə “Kitablar” bölməsində 2346 latın, “Retro kataloq” bölməsində 1285 nüsxə Azərbaycan və 761 nüsxə rus dilində kiril qrafikalı ədəbiyyat, həmçinin “Elektron kartoteka” bölməsində 3781 qəzet və jurnal məqalələri, 12 saylı uşaq kitabxanasında isə 2141 kitab, 1094 qəzet və jurnal məqalələri proqramın yaddaşına köçürülmüşdür.

Kitabxanada oxuculara daha bir informasiya xidməti forması: yaxın və uzaq məsafədən elektron resurslardan istifadənin təşkili həyata keçirilir. Komputer zalı vasitəsilə oxucular İNTERNET resurslarından istifadə etmək imkanı əldə etmişlər. Bu da oxucuların sorğularının tam və operativ ödənilməsinə şərait yaratmışdır.

Qeyd edək ki, Nazirlər Kabinetinin 11 oktyabr 2011-ci il tarixli 162 saylı "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında qərarına və Mədəniyyət və Turizm Nazirliyinin 3213/19 saylı məktubuna əsasən S. Vurğun adına Mərkəzi kitabxananın nəzdində yeni - Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi yaradılmışdır. Həmçinin müstəqil fəaliyyət göstərən Məlumat-biblioqrafiya və Təşkilati-metodika şöbələri birləşdirilərək Metodika-biblioqrafiya, Elektron-informasiya şöbəsi isə İnformasiya-resurs şöbəsi adlandırılmışdır.

2011-ci ildə MKS-ə 26 adda qəzet, 34 adda jurnal daxil olmuşdur. Hesabat ili ərzində MKS-in fondundan 7318 nüsxə ədəbiyyat silinmişdir. İl ərzində "yox" cavabları araşdırılmış, müxtəlif səbəblərdən oxucuların 145 sorğusuna "yox" cavabı verilmişdir. Hər il olduğu kimi bu il də “yox” cavablarının sayı ümumiləşdirilərək komplektləşdirmə və kitabişləmə şöbəsinə verilmişdir. “Yox” cavablarının sayını azaltmaq və oxucu sorğularını tam ödəmək məqsədilə kitabxananın Vahid Fondun Təşkili və İstifadəsi şöbəsi KAA vasitəsilə şəhərin digər kitabxanaları ilə-Sumqayıt Dövlət Universitetinin kitabxa-

ması ilə, M.F.Axundov adına Respublika Milli Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası ilə əlaqələrini bu il də davam etdirmişdir.

Prezident İlham Əliyevin 6 oktyabr 2008-ci ildə imzaladığı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq 2011-ci ilin ilk aylarından yeni layihələrin həyata keçirilməsinə başlanılmışdır. Belə ki, həmin ilin mart ayında S.Vurğun adına Mərkəzi Kitabxana və Sumqayıt şəhər Təhsil şöbəsinin birgə əməkdaşlığı ilə 5 gün davam edən treninq keçirilmişdir. Treninqdə dinləyici kimi şəhərdə fəaliyyət göstərən 30 məktəbin və İstedad liseyinin kitabxanaçıları iştirak etmiş, maraqlı məruzələr dinlənilmişdir.

Regionlarda innovasiya biliklərinin tətbiqi məqsədilə əlaqələrin genişləndirilməsi, təcrübə mübadilələrinin aparılması, müştərək tədbirlərin keçirilməsi son zamanlar xeyli artmişdır. Bu məqsədlə 2011-ci ilin aprel ayında Qusar rayon Mərkəzi kitabxanasının bir qrup əməkdaşı S.Vurğun adına MKS-də işgüzar səfərdə olmuşdur. İyul ayında Sumqayıt kitabxanaçıları Qusar rayon Mərkəzi kitabxanasında keçirilən "Kitabxana fondları – regionun inkişafının əsas informasiya resursu kimi" mövzusunda dəyirmi masanın iştirakçısı olmuşlar. Oktyabr ayında isə Bakının Binəqədi rayon Mərkəzi kitabxanasının əməkdaşları S.Vurğun adına MKS-də "Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə fondların ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla zənginləşdirilməsi" mövzusunda keçirilən seminar-məşğələdə iştirak etmişlər.

Beləliklə, müstəqillik illərində öz fəaliyyətini təkmilləşdirən Sumqayıt şəhər MKS-i oxuculara informasiya xidməti səviyyəsi modernləşdirərək tədricən dünya standartlarına uyğunlaşdırır.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə). H.1. Bakı, 2001, 400 s.*

*2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə). H.3. Bakı, 2003, 314 s.*

*3. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar): Dərs vəsaiti. Bakı: BDU, 2006, 106 s.*

*4. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2005, №2.-s.5-17.*

*5. S.Vurğun adına Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2010-2011 ci ilə dair hesabatları.*

## THE FORMATION OF LIBRARY INFORMATION SERVICE FOR THE READERS OF CENTRALİSED LİBRARY NAMED AFTER S.VURGUN İN SUMQAİT

**Ramila MEHTIEVA**
***Ramila_134@mail.ru***

***SUMMARY***

***Keywords:*** *information society, library-information service, CLS, fund, means of methods, exchange of experience.*

*This article deals with the condition of the library-information service for the readers of Sumqait CLS named after S.Vurgun. It analyzes the importance of the measures for improving the quality of library service, some problems about the application of informational technology in the library. The article is also about the exchange of experience with other libraries applied the propose of the innovation knowledge in regions.*

## ФОРМИРОВАНИЕ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ИНФОРМАЦИИ ДЛЯ ЧИТАТЕЛЕЙ ЦЕНТРАЛИЗОВАННОЙ БИБЛИОТЕКИ ИМЕНИ С. ВУРГУНА В СУМГАИТЕ

**Рамила МЕХТИЕВА**
***Ramila_134@mail.ru***

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *библиотечно-информационное обслужевание, ЦБС, фонд, учебные пособия, обмен опытом.*

*В статье рассматривается состояние библиотечно-информационного обслуживания читателям в ЦБС имени С.Вургуна в городе Сумгаит. Было подчеркнуто важность мероприятии, которые были направлены для повышения услуг в библиотеке, исследовалась компьютеризация библиотеки и некоторые вопросы об использование информационных технологий. В статье также отмечены вопросы об обмене опытом с другими библиотеками в целях использования инновационных знаний в регионах.*

# AZƏRBAYCANDA KİTABXANA İŞİNƏ DAİR QƏBUL EDİLMİŞ RƏSMİ SƏNƏDLƏR VƏ ONLARIN ELMİ METODOLOJİ ƏHƏMİYYƏTİ

**G.B.BAXŞİYEVA**
***Bakı Dölət Universiteti***
***Kitabxanaşılıq-informasiya fakültəsinin magistrantı***
***BDU_OXFORD@mail.ru***

*Məqalədə müstəqillik illərində Azərbaycanda kitabxana işinin inkişafında mühüm rol oynayan Mədəniyyət və Turizm Nazirliyinin və Nazirlər Kabinetinin qəbul etdiyi hüquqi sənədlər, onların geniş şərhi verilmişdir. Burada həmin rəsmi sənədlərin əhəmiyyəti və rolu da göstərilmişdir.*

***Açar sözlər:*** *qanun, əsasnamə, kitabxana işi.*

Azərbaycan Respublikasında kitabxana işinin dövlət siyasəti prioritet xarakter daşıyaraq dövlətin strateji maraqlarına xidmət edir. Ölkəmizdə dövlətin kitabxana siyasəti bilavasitə Azərbacan Respublikasının Nazirlər Kabineti, Mədəniyyət Nazirliyi və digər icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. 1991-ci ildən bəri, yəni Respublikamız müstəqilliyə qədəm qoyduğu gündən etibarən Kitabxana işinin inkişafına dair Prezidentin imzaladığı qərar və sərəncamlarından başqa Mədəniyyət və Turizm Nazirliyi və Nazirlər Kabineti də qərar və sərəncamlar qəbul etmişdir. Yəni Azərbaycanda kitabxana işi bütövlükdə dövlət qayğısı ilə əhatə olunmuşdur.

Respublikamızda bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də böyük nailiyyətlər qazanılmışdır. Kitabxana işinin inkişafı sahəsindəki nailiyyətlər özünü, hər şeydən əvvəl, respublika kitabxana şəbəkəsinin artımında özünü göstərmişdir. Əgər 90-cı illərin əvvəllərində respublikamızda 120 milyon kitab fonduna malik 10 min kitabxana var idisə, indi onların sayı 12 mindir. Bu sistemə yalnız kütləvi kitabxanalar deyil, həmçinin ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai təşkilatların kitabxana şəbəkələri daxildir. Təkcə Mədəniyyət və Turizm Nazirliyinin 4500-dən artıq kitabxanasında 40 milyondan artıq kitab və digər sənədlər oxucuların istifadəsinə verilmişdir. Mədəniyyət və Turizm Nazirliyi müasir informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə müvafiq çox ciddi layihələr həyata keçirməyə müvəffəq olmuşdur (7, 5).

1998-ci ildə Azərbaycan Respublikası Przidentinin imzaladığı "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxana işinə dövlət rəhbərliyi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə tapşırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illər üzrə dövlət inkişafı proqramı"nın hazırlanması işinin tapşırılması təqdirəlayiq bir hal kimi dəyərləndirilməlidir.

Bütün sadalanan məsələlərdən başqa, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemindəki şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında da Əsasnamə qəbul edilmişdir.

Kitabxana işinin mərkəzləşdirilməsi tədbirinin həyata keçirilməsinə ilk dəfə 1974-cü ildə başlanılmışdır. Bu ideyanın başlıca məqsədi ölkə miqyasında yerinə yetirilən, böyük elmi və mədəni əhəmiyyətə malik olan ölkənin kitabxana sistemlərini tamamlamaq, onu daha işlək, daha dinamik etmək, daha da demokratikləşdirmək üçün həyata keçirilən ümumdövlət tədbiri idi (9, 35).

Ölkəmizdə qəbul edilmiş bu əsasnaməyə əsasən, MKS-lər Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindədir, dövlət mədəniyyət sisteminə və dövlətin mülkiyyətinə daxil olan mədəniyyət təsisatıdır. MKS-in idarə edilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Əsasnaməyə müvafiq olaraq Mədəniyyət və Turizm Nazirliyinin səlahiyyətləri daxilində həyata keçirilir. MKS Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərir. MKS-ə nazirin əmri ilə təyin olunan direktor rəhbərlik edir.

Əsasnamədə ilk öncə MKS-lərin hüquq və vəzifələri, təşkili, funksiyalari, öhdəlikləri, struktur bölmələri, MKS-in fondlarından istifadə qaydası, istifadəçilərlə münasibətlərin hüquqi forması və digər müddəalar və onların geniş izahı öz əksini tapmışdır. MKS-in fondlarından istifadə qaydası, istifadəçilərlə münasibətlərin hüquqi forması «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununa, bu Əsasnaməyə, MKS-in Nizamnaməsinə və MKS-in direktoru tərəfindən «Kitabxanadan istifadə qaydaları»na müvafiq olaraq müəyyən edilmişdir.

Əsasanamənin 2-ci bölməsində MKS-in fəaliyyətinin predmeti, məzmunu və məqsədi izah edilmişdir. MKS-in fəaliyyətinin predmeti informasiya, elm, mədəni-maarif və təhsil işidir. Bu işə ilk növbədə fondların formalaşdırılması, elmi cəhətdən işlənməsi və mühafizəsi, kitabxanalardan istifadə edənlərə kitabxana, informasiya və sorğu-biblioqrafiya xidmətlərinin göstərilməsi, kitabxanalararası və beynəlxalq abonementin təşkili, kitabxanaların elmi və metodik təminatı daxildir.

Bütövlükdə 7 bölmə və hər bölmə daxilində yarımbölmələrdən ibarətdir. Əsasnamənin digər sonrakı bölmələrində MKS-lərin daxili idarəedilmə qaydaları, büdcə və maliyyə məsələləri öz izahını tapmışdır.

Əsasnamənin əhəmiyyəti ondan ibarətdir ki, müstəqillik illərində MKS-lərlə bağlı Respublikamızda qəbul edilmiş ilk hüquqi sənəddir. Bu hüquqi

sənədə qədər və ondan sonrakı dövrlərdə kitabxana işinə və kitabxanalara aidiyyəti olan bir sıra qanunlar respublikanın qanunverici orqanı tərəfindən qəbul edilsə də, MKS-lər və onların fəaliyyətinin çox məhdud məsələləri əks olunmuş, əsasən onların cəmiyyətdə yeri, rolu, vəzifələri qanunla təsdiqlənirdi. Lakin bu rəsmi sənəd sirf MKS-lərin profilini, fəaliyyət istiqamətini, quruluşunu, işıqlandırır.

Azərbaycanda Kitabxana işinin hüquqi tənzimlənməsi və idarə olunmasında Respublika Nazirlər Kabinetinin qərar və sərəncamları da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Nazirlər Kabineti — Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə yaradılan, öz fəaliyyətində birbaşa Prezidentə tabe və onun qarşısında cavabdeh olan, iş qaydası Prezident tərəfindən müəyyənləşən yuxarı icra orqanıdır.(12)

Müstəqillik illərində Prezidentin imzaladığı genişmiqyaslı qərar, fərman və sərəncamların yerinə yetirilməsi məsələləri, eləcə də onların qısa müddətdə yerinə yetirilməsi prosesləri Nazirlər Kabinetinə həvalə olunmuşdur.

1996-cı ildə Nazirlər Kabineti "Kitabxana işi haqqında" qanun qəbul etmişdir. Bu qərarada kitabxana şəbəkələrinin qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoymuşdu. Qərar keçid dövrün kitabxanalarının qoruyub saxlanılmasına çox böyük köməklik etdi.(5, 225)

Mədəniyyətimizin ayrılmaz tərkib hissəsi və əsas dayaq nöqtəsi olan kitabxanaların inkişafına dair Nazirlər Kabineti də 1999-2011-ci illərdə bir sıra normativ-hüquqi sənədlər qəbul etmişdir. Bu sənədlər aşağıdakılardır:

1. **Azərbaycan Respublikası Nazirlər Sovetinin 1987-ci il 9 fevral tarixli 45 nömrəli qərarına dəyişiklik edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barədə.** Qərar №84. Bakı şəhəri 21 may 1999-cu il.

Bu qərarda Respublika Nazirlər Kabineti tərəfindən kitabxana fondlarına məxsus çap əsərlərinin və digər materialların itirilməsi və ya yararsız hala salınmasına görə dövlət kitabxanalarının tələblərinə gorə borcun ödənilməsinin yeni qaydaları müəyyənləşdirilmişdir.

Bu rəsmi sənəddə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununa uyğun hüquqi və fiziki şəxslərdən itirilmiş və ya yararsız hala salınmış kitabxana fonduna məxsus çap əsərlərinin və digər materialların (milli-mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələr istisna olmaqla) yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla vurulmuş ziyanın qiymətinin on misli həcmində tutulması qaydaları müəyyənləşdirilmişdir.

Yeni qiymətləndirmə əmsallarının qoyulması hər bir vətəndaşın elm bilik sərvəti olan kitaba daha diqqətlə, qayğı ilə yanaşmasına təsir edən faktordur.

2. **Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarının təsdiq edilməsi haqqında**. Qərar № 29. Bakı şəhəri 6 mart 2000-ci il.

Bu qərar Azərbaycanda müasir kitabxana işi sahəsində olduqca əhəmiyyətlidir və normativ-hüquqi sənəd kimi qiymətləndirilir. 11 bölmədən ibarətdir və hər bölmə daxilində yarımbölmələrə şaxələnir. Sənəddə Dövlət kitabxana fondlarının mahiyyəti açıqlanır və göstərilir ki, Azərbaycan Respublikası Dövlət kitabxana fondları kitabxanalararası əlaqələndirilmiş, komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir və Azərbaycan Respublikasının Dövlət kitabxana fondu dövlət mülkiyyətidir.

Nazirlər Kabinetinin bu qərarının ən mühüm bölmələrindən biri “Kitabxanalardan istifadə qaydaları” adlı onuncu bölməsidir. Bəhs etdiyimiz hüquqi-normativ sənədin sonuncu on birinci bölməsi “Kitabxana fondlarının mühafizəsi” adlanır. Rəsmi sənədin sonuncu, yəni 11-ci bölməsində kitabxana fondlarının mühafizəsi, xüsusən kitabxana mühitində riayət olunmalı gigiyenik qaydalar, daha sonra sənəddə universal elmi kitabxanalarda fondun etibarlı mühafizəsini təşkil etmək məqsədilə əlyazmalar, nadir kitablar və xüsusi qiymətli nəşrlər üçün kitab fondları yaradılması nəzərdə tutulur.

Beləliklə, dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları haqqında Respublika Nazirlər Kabinetinin bəhs etdiyimiz qərarı ölkəmizdə kitabxana işinin hüquqi əsasını təmin edən çox mühüm sənəddir (4, 36).

3. **Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir.

Belə ki, yuxarıda sadalanan tədbirlərdən sonra 2000-ci ilin 6 martında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən daha bir qərar qəbul edilmişdi ki, bu da “Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Kitabxanasının nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında” idi. Bu Azərbaycan Respublikası Prezidentinin “Kitabxana işi haqqında Azərbaycan Respublikası Qanunu” nunun tətbiq edilməsi barədə 1999-cu il 12 mart tarixli fərmanının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə qərara alınmışdır.

Məlum olduğu kimi, “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının qanununa müvafiq olaraq M.F.Axundov adına Dövlət Kitabxanasına

Milli Kitabxana statusu verilmişdir. Milli Kitabxana haqqında əsasnamədə milli kitabxananın fəaliyyət istiqaməti, profili, funksiya və vəzifələri, hüquq və səlahiyyətləri, qarşısında yerinə yetirilməsi zəruri olan tədbirlər planı və s. məsələlər yer almışdır.

4. **Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının Əsasnaməsi.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir. Bu əsasnamə respublika elmi-sahəvi kitabxanaların, o cümlədən respublika elmi-texniki, elmi-kənd təsərrüfatı, elmi-tibb, elmi-pedaqoji, MEA kitabxanaların fəaliyyətini tənzimləyən nümunəvi normativ-hüquqi sənəddir. Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanalarının nümunəvi Əsasnaməsi 7 bölmədən ibarətdir

Bu hüquqi sənəd Respublika Elmi-Sahəvi Kitabxanasının statusu müəyyənləşdirilir. Respublika Elmi-Sahəvi Kitabxanasının mühüm vəzifələrini, hüquqlarını, eyni zamanda öhtəliklərini, strukturu və tərkibi prinsiplərini, müvafiq iş proseslərinin həyata keçirilməsi yollarını özündə əks etdirir.

5.“**Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında**. Qərar № 162. Bakı şəhəri 11 oktyabr 2011-ci il.

Bu qərar Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur. Qərarda Kitabxana müəssisələrində yaradılacaq yeni şöbə və ştatlar kitabxana-informasiya sahəsində aparılan islahatlar və struktur təkmilləşdirilməsi nəticəsində sərbəstləşən ştat vahidləri hesabına həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi sistemindəki şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında qəbul olunmuş Əsasnamənin VI bölməsində MKS-lərin idarə edilməsindən bəhs edilirdi. Müəssisə daxilindəki iş rejimi və bölgüsü çox məhdud şəkildə öz əksini bu hüquqi sənəddə tapmışdır. Ştat vahidləri dolğunluğu ilə əks edilməmişdi. Bəşəriyyətin informasiya əsri kimi qəbul etdiyi XXI əsr kitabxanaların qarşısında olduqca mühüm, keyfiyyətcə yeni vəzifələr qoyulmuşdur. Müasir kitabxanalar ənənəvi kitabxanaçılıq təcrübəsi ilə kifayətlənməməli, oxuculara xidmət işini informasiya cəmiyyətinin tələbləri səviyyəsinə yüksəltmək üçün dünya informasiya məkanına daxil olmağı, ümumbəşəri intellektual potensialdan operativ istifadə etməyi bacarmalıdır. Bu məqsədlə kitabxanalarda müasir informasiya texnologiyası tətbiq edilməli, informasiya

mühiti üçün şərait yaradılmalıdır. Bu da hər şeydən əvvəl kitabxana işinə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqini tələb edir (11, 7). Elm və texnikanın surətlə inkişaf etdiyi müasir dövrdə zamanın tələblərini nəzərə almaqla təbii ki, kitabxana müəssisələrində yeni ştat vahidlərinin yaradılmasında çox ciddi ehtiyac duyulmaqdadır. Nazirlər Kabinetinin qəbul etdiyi bu qərarda əvvəlki ştat vahidləri ilə yanaşı yaradılması nəzərdə tutulan və zəruri olan yeni ştat vahidləri və yeni şöbələr də müəyyən edilmişdi. Belə ki, əvvəllər oxucuların sayı, kitab verilişi təkcə kitabxana müəssisəsinə gələn oxucuların sayı ilə hesablanırdısa, artıq müasir zamanda bu oxucuların sırasına veb oxucular, yəni kitabxana müəssisələrindən on-line istifadə edən oxucular da əlavə edilmişdir. Bunlar virtual oxucular adlanır. Bunun üçün kitabxananın elektron saytına xüsusu sayğac qoşulur və ya on-line şəkildə qeydiyyatdan keçəndən sonra, oxucu kimi elekrton resurslardan istifadə olunur.

Azərbaycan kitabxanaların informasiya ehtiyatlarının inkişafı, orada yeni texnologiyaların tətbiqi, xüsusən də, yeni informasiya daşıyıcılarına əsaslanan resursların yaradılaraq inkişaf etdirilməsi, kitabxana fondlarının ən yeni sənəd növü olan elektron sənədlərlə komplektləşdirilməsi kimi məsələlər Azərbaycan kitabxanaları üçün həyati əhəmiyyət daşıyır (10, 4).

## ƏDƏBİYYAT

*1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikasının sərəncamı // "Azərbaycan" qəz., - 2007, 24 aprel.*

*2. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi nəzəri və metodiki jurnal. – 2008, №2.-s. 6-31.*

*3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu "Azərbaycan" qəzeti.- 1998.- 19 iyun*

*4. Əhmədov E.Y. Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası: Dərs vəsaiti. - Bakı, BDU, 2012.-216s.*

*5. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: III hissə.- Bakı: Azərnəşr, 2006.-311s.*

*6. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktorinası uğurla davam edir.- Bakı, 2009.-185 s.*

*7. Xələfov A.A. Azərbaycan mədəniyyətinin qızıl fondu (Kitabxanalar vasitəsilə gələcəyə doğru) // "Kitabxana. az" jurnalı. №4 (07) 2009. s. 4-13*

*8. Xələfov A.A. İqtisadi islahatlar dövründə mədəniyyət və incəsənətə dövlətin himayəsi haqqında Azərbaycan Respublikasının sərəncamı // Ədalət qəzeti.- 1993.-23 aprel.*

*9. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2001.–398 s.*

*10. Xələfov A.A. Kitabxana sahəsi dövlət qayğısı ilə əhatə olunmuşdur // İki sahil" qəzeti. 2007.- 24 aprel.*

*11. Xələfov A.A. Ölkəmizdə ilk fundamental elektron kitabxana // Xalq qəzeti , 2006.-18 fevral.- S.6.*

## THE OFFICIAL DOCUMENTS ABOUT THE LIBRARY SCIENCE ADOPTED İN AZERBAIJAN AND THE IMPORTANCE OF THEIR SCIENTIFIC METHODOLOGY

**G.B.BAKHSHIYEVA**
***BDU_OXFORD@mail.ru***

***SUMMARY***

***Key words:*** *law, regulations, work of library.*

*The article reflects, the library policy of the state and* the application of them by the Cabinet of Ministers of Azerbaijan, the Ministry of Culture and Tourism of Azerbaijan and other *executive authorities of the Republic. The article gives an explanation the official documents dedicated to the development of library science.*

## ПРИНЯТИЕ ОФИЦИАЛЬНЫХ ДОКУМЕНТОВ В АЗЕРБАЙДЖАНЕ ПО БИБЛИОТЕЧНОМУ ДЕЛУ И ИХ НАУЧНО-МЕТОДИЧЕСКАЯ ЗНАЧИМОСТЬ

**Г.Б.БАХШИЕВА**
***BDU_OXFORD@mail.ru***

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *нормативные акты, закон, библиотечное дело.*

*В статье раскрыта политика в нашей стране государственной библиотеки Кабинета Министров Азербайджанской Республики, Министерства культуры. И предназначена для выполнения других органов исполнительной власти, по развитию библиотечного дела.*

# ELEKTRON KİTABXANALARIN İNKİŞAFI: DÜNYA TƏCRÜBƏSİ

**S.H.KƏRIMOVA**
*sevda.kerimova1@gmail.com*

*Məqalədə elektron kitabxanaların yaradılması və inkişafı məsələləri müzakirə olunur, dünyada elektron kitabxanaların inkişaf tarixi, bu sahədə həyata keçirilən layihələr izlənilir. Elektron nəşr istehsalçılarının təsnifatı, elektron kitabxanalardan ödənişli və ödənişsiz istifadə arasındakı fərqlər təhlil edilir.*

***Açar sözlər:*** *elektron kitabxana, elektron informasiya, informasiya axtarışı, informasiya xidməti, ödənişli və ödənişsiz çıxış, informasiya istehsalçısı*

Elektron kitabxana haqqında əsas prinsiplər bizi qədim keçmişə aparıb çıxara bilər. Bəziləri bu prinsipi İsgəndəriyyə Kitabxanasının adı ilə İsgəndəriyyə prinsipi adlandırır. Mahiyyət bundan ibarətdir ki, qeyd olunan informasiya bir maddi obyekt (sənəd) şəklində bir yerdə saxlanılır, arzu edən hər bir şəxs onu əldə etmək imkanına və ehtiyac olduqda surətini köçürmək imkanına malikdir.

Elektron kitabxanaların yaradılacağı barədə proqnozlar və ümumi prinsiplərin təsvir olunduğu ilk əsərlər arasında adətən V. Buşun (V. Bush) "Necə düşünmək olar" (1945) və J.S.R Likliderin (J.C.R. Licklider) "Gələcəyin Kitabxanaları" (1965) əsərlərinin adları çəkilir. ABŞ elmi tədqiqatlar agentliyinin o zamankı direktoru tərəfindən yazılmış birinci əsərdə informasiyanın toplanılması, mühafizəsi, axtarışı və emalı sahəsində texnologiyanın alimlərə təqdim etdiyi potensial imkanlar nümayiş etdirilirdi. Bu məqalənin əsas əhəmiyyəti ondadır ki, orada yeni texnologiyalar, informasiya və elmi-tədqiqatların inkişafı arasında əlaqələr aşkar göstərilmişdir. J. Liklider Massaçuset İnstitutunun əməkdaşlarından biri idi və hesablama texnologiyalarının rəqəmsal kitabxanaların gələcək inkişafına təsirini öyrənirdi. Öz işlərində o elektron kitabxanaların istifadəçiləri ilə münasibət yaratmaq üçün zəruri olan tədqiqat və araşdırmalarını sadalamışdır.

Kitabxana məlumatlarının mühafizəsi və emalı üçün kompüterlərdən istifadəyə 60-ci illərdə başlanmışdır. İlk uğurlu nümunələrdən biri ABŞ-ın Konqres Kitabxanasında maşınla oxuna bilən kataloqların yaradılması məqsədilə (60-cı illərin sonu) MARC (Machine-Readable Cataloging) formatının yaradılması olmuşdur. Onun Online Kompüter Kitabxana Mərkəzində (Online Computer Library Center, OCLC) istifadəsi bir çox kitabxanalar üçün kataloq

qeydlərinə çıxışı təmin etməyə şərait yaratdı ki, bu da əhəmiyyətli miqdarda vəsaitə qənaət etməyə imkan verdi.

Müasir mənada elektron kitabxanaların yaradılması ilk elmi jurnalların elektron kitabxanalrının yaradılmağa başlandığı 80-ci illərin sonlarına təsadüf edir (“Mercury”, CORE, “Tulip” layihələri, 1987-1993-cü illər; JSTORE, 1995-ci ildən başlayaraq; “High Wire Press”, 1995-ci ildən başlayaraq və s.). Bu layihələr elmi olmaqla bərabər, həm də iqtisadi məqsədlər daşıyırdı (əsas jurnalların arxivini yaratmaq və jurnal toplularının təkrarlanmasının aradan qaldırılması ilə kitabxana xərclərinin azaldılması). Bundan başqa, sırf texniki problemlər, məsələn, ekranda yunan, riyazi və digər xüsusi simvolların müvafiq olaraq nümayişi problemi həll edilmişdi. 90-ci illərin ortalarından etibarən, bir çox elmi jurnallar yalnız elektron formada dərc olunmağa başlandı. Bu iqtisadi cəhətdən qənaət etməyə imkan yaradırdı və daha səmərəli idi. Həmin dövrdə bir çox geniş profilə malik olan dövri nəşrlər (jurnallar, qəzetlər, bülletenler və s.) əvvəlki buraxılışlarının rəqəmsal arxivləri də daxil olmaqla, öz elektron versiyalarını yaratdılar və onlara ödənişli və eyni zamanda İnternet vasitəsilə ödənişsiz çıxışı təmin etməyə başladılar.

Bundan əlavə, böyük kitabxana və muzeylər də, xüsusilə nadir, qədim və fiziki məhv edilmə təhlükəsi olan materialları gələcək üçün qorumaq və əlverişli istifadəsinə nail olmaq üçün, onları elektron formaya keçirməyə başladılar. Bu layihələr əlyazma və çap materiallarının səhifə-səhifə skan edilməsinə və görüntülərin qrafik fayllarda yüksək səviyyədə qorunaraq saxlanılmasına əsaslanırdı. Daha sonra bu fayllar əsasında informasiyanın şəbəkə vasitəsilə ötürülə bilən yüngül qrafik və ya mətn versiyası yaradılmışdır. Bu cür layihələrə nümunə olaraq, Amerika Birləşmiş Ştatlarının tarixi və mədəniyyətini əks etdirən müvafiq materialların elektron formaya keçirilməsi məqsədilə yaradılan “Amerikanın yaddaşı” (“American Memory”-1989-cu ildən indiyə qədər) və “Milli Rəqəmsal Kitabxana” (“National Digital Library”-1990-cı ildə yaradılmışdır; 1998-ci ildən təşkilatlararası vahid “Digital Libraries Initiative - Phase 2” proqramına dəyişdirilmişdir) proqramlarını göstərmək olar.

İnternetin yarandığı ilkin mərhələdə, resursların çox hissəsini yaradan həvəskarlar elektron kitabxanaların yaradılmasına mühüm töhfələr vermişlər. Bunlardan bəziləri çox böyük məşhurluq qazanmışlar. Bu cür tanınmış layihələr arasında Amerika proqramçısı M. Hartın təşəbbüsü ilə 1990-cı ildə yaradılan “Qutenberq layihəsi” (“Проект Гутенберг”) *(http://promo.net/pg)* və Rusiyanın 1994-cü ildə yaradılan, 17 min mətn formasında faylı əhatə edən və 2,5 Gb həcmi olan “Moşkovun Kitabxanası” (“Библиотека Мошкова”) *(http://lib.ru)* layihələrinin adını çəkə bilərik. Hər iki layihə mətnləri pulsuz olaraq toplayan və scan edərək, kitabxanaçılara göndərən könüllülərin fəaliyyətinə minnətdardır. Əgər M. Moşkov ona göndərilən bütün əsərləri dərc

edirsə və əsərin müəllifi etiraz etdikdə onu çıxarmağa zəmanət verirsə, Qərb ölkələrində fəaliyyət göstərən digər elektron kitabxanalar kimi “Qutenberq layihəsi” də yalnız müəllif hüquqlarının müddəti başa çatmış və ya ictimai istifadə üçün nəzərdə tutulan nəşrləri hüquqi olaraq dərc edə bilər. Müəllif hüquqlarının müddəti qanunvericiliyə uyğun olaraq, daim artmaqdadır və hazırda ABŞ və digər qərb ölkələrində müəllifin vəfatından 50 il sonrakı dövrü əhatə edir. Aydındır ki, bu Qərbin böyük qeyri-kommersiya EK-nın imkanlarını məhdudlaşdırır.

Peşəkar elektron kitabxanalarla müqayisədə sosial əhəmiyyətli həvəskar layihələrin əhəmiyyətli çatışmazlıqları vardır. Bunlar əsasən aşağıdakılardır:

- vəsaitlərin kortəbii formalaşması, seçilmə prinsiplərinin aydın olmaması;
- təsadüfilik və topluların natamamlığı;
- mətn əsasında bazanın çatışmaması: ixtiyari nəşr mənbələri, səhvlər, müvafiq biblioqrafik məlumatın olmaması, rəy və şərh aparatının olmaması;
- ibtidai texnologiya: sənədlərin “zəif” nişanlanması (məsələn, sadə HTML mətni), oxucular üçün minimum xidmət sayı.

Həvəskar EK elektron formada olan mətnlərin rahat bir mənbəyi kimi çıxış edərək, ümumi mədəni funksiyasını yerinə yetirir, lakin belə EK-ın elm və təhsil məqsədləri üçün tam istifadəsi, adətən, mümkün deyil.

ABŞ və Qərbi Avropada EK-ın çox hissəsi akademik və elmi tədqiqatla məşğul olan təşkilatların, ilk növbədə universitetlərin nəzdində yaradılaraq inkişaf etmişdir. Məhz bu universitetlərdə və universitet kitabxanaları və nəşriyyatlarında (əlbəttə, hökumət, xeyriyyə fondları və korporasiyaların maliyyə dəstəyi ilə) elektron kitabxana sahəsində qabaqcıl tədqiqatlar aparılır, standartlar hazırlanır və elektron topluların müxtəlif növləri yaradılır.

Nümunə olaraq, 12 dildə 45 min ədəbiyyat və digər humanitar elmlər sahəsində mətnləri əhatə edən və ödənişsiz onlayn çıxışa malik olmaqla, Virciniya Universiteti nəzdində fəaliyyət göstərən *(http://etext.lib.virginia.edu)* “Elektron mətn mərkəzi”ni göstərə bilərik. Tafts Universitetinin bazası əsasında yaradılmış "Persey" adlı digər böyük layihənin elektron kitabxanası *(http://www.perseus.tufts.edu)* özünün yunan və latın dilində olan geniş toplusu (dəqiq tərcüməsi və morfoloji təhlili ilə birlikdə orijinalda olmaqla), məliumat nəşrləri və dərslikləri, eləcə də, linqvistik iş üçün nadir vasitələri ilə məşhurdur. Elmi müəssisələrin elektron məhsullarının əsas hissəsini elmi elektron nəşrlər təşkil edir. Bir çox universitetlərin elektron kitabxanaları yalnız məhdud istifadəni - yalnız öz əməkdaşları və tələbələrinə və ya digər ali təhsil və mədəniyyət müəssisələrinə, əvəzində onların rəqəmsal toplularından istifadə etmək şərtilə təmin edir.

Belə əməkdaşlıq nümunəsi olaraq, əhəmiyyətli sayda elektron toplular və məlumat bazalarına çıxış imkanını təmin edən Kaliforniya Universitetinin

rəqəmsal kitabxanasını *(http://www.cdlib.org)* göstərə bilərik. Qeyd edək ki, rəqəmsal toplulara çıxışın lisenziyalaşdırılması geniş yayılmışdır. Məsələn, JSTORE *(http://www.jstor.org)* və "Muse" *(http://muse.jhu.edu)* kimi layihələr, özlərinin elektron elmi jurnal toplularına çıxışı yalnız abunə yolu ilə və fiziki şəxslər üçün deyil, yalnız təşkilatlar üçün təmin edir.

Kitabxanalar və digər elektron məhsulların yaradılması ilə, həmin məhsulların sərt elektron daşıyıcılarda satışını həyata keçirməklə bərabər, bu elektron informasiyaya onlayn çıxış üçün lisenziyanın da satışı ilə məşğul olan bir sıra kommersiya şirkətləri mövcuddur. Belə ki, ABŞ-ın Miçiqan ştatının Ann-Arbor şəhərində yerləşən və informasiya xidmətlərinin ən iri provayderi olan "ProQuest" (http://www.proquestcompany.com) şirkəti, 1999-cu ildə "ProQuest" şirkətinin bir şöbəsinə çevrilmiş "Chadwyck-Healey" şirkətinin, geniş həcmli elektron resursların da daxil olduğu minlərlə tam mətnli dövri nəşrlərə, dissertasiyalara, kitablara və digər nəşrlərə çıxışı lisenziyalaşdırır. "ProQuest" dünyanın 8,5 min nəşriyyatı ilə əməkdaşlıq haqqında müqaviləyə malikdir və 160 ölkədə öz məhsullarının satışı ilə məşğul olur. Şirkətin satdığı informasiya məhsullarına CD-ROM-lar, mikrofilmlər, çap məhsulları və informasiya sistemlərinə onlayn çıxış daxildir.

Elektron kitabxanalar və digər informasiya sistemlərinə ödənişli və ödənişsiz çıxış arasında münasibətlərdən danışdıqda, ixtisaslaşdırılmamış və ya mədəni irs hesab oluna bilən informasiyaya (hər iki kateqoriyaya, məsələn, klassik ədəbiyyatın məşhur nəşrləri aid ola bilər) ödənişsiz çıxışın təmin edilməsi ənənəsini etiraf etmək olar. Elmi tədqiqat və ya biznes üçün tələb olunan məlumatlar adətən ödənişli olur.

Məlumatın kommersiya dəyərinə təsir edən başqa bir parametr - onun tamlığıdır: dağınıq halda olan sənədlərdən ibarət toplu, əlbəttə, ödənişsiz olacaq, mövzu üzrə tam informasiya isə, hətta bəzi "əlavə dəyər" ilə satılacaqdır. Belə hesab etmək olar ki, elektron kitabxanaların gələcək inkişafı qeyri-kommersiya və kommersiya yanaşmaların birləşməsi yolu ilə gedəcəkdir: mənbə informasiya resursları pulsuz olacaq, daha "ətraflı" olanlar isə satılacaqdır.

Əlbəttə, informasiya istehsalçısının kim olması da burada əsas rol oynayır. Bunlardan biri bazar qanunlarına uyğun yaşayan şəxsi məlumat təchizatçıları, digəri isə uzun bir ictimai xidməti olduğu qəbul edilən kitabxanalardır. Elektron kitabxanaların istifadəçilərə ödənişli xidməti barədə müzakirələrin uzun müddət davam etməsinə baxmayaraq, hələlik öz həllini tam olaraq tapmamışdır. Əsasən ideoloji və ya siyasi xarakterli mülahizələrin tərəfdarı olanlar informasiyanın ödənişsiz əldə edilməsini (əsas şəxsi hüquq və ictimai münasibətlərin zəruri elementi kimi informasiyanın azad əldə edilməsi), bazar münasibətlərinin müdafiəçiləri isə iqtisadi amili təkid edirlər (avadanlıq və proqram təminatının yüksək dəyəri, informasiyanın hazırlanması üçün

əhəmiyyətli xərclər və s.). Həmçinin, EK-ın oxucularına onların tələb etdikləri informasiyanın həcminə görə ödənişli və ya bu informasiyanın dəqiq müəyyən olunmuş müddət əsasında təqdim etməklə, ödənişsiz olaraq xidmət göstərməyin konseptual və texnoloji həlləri də müzakirə olunur.

Bu məqalə son 10-15 il ərzində inkişaf etmiş ölkələrdə (ABŞ, Avropa ölkələri, Yaponiya, Avstraliya və s.) elektron kitabxanaların inkişafı sahəsində həyata keçirilən milli və beynəlxalq proqramları qeyd etməmək olmaz. Bir qədər əvvəl ABŞ-ın Konqres Kitabxanasının milli elektron kitabxana yaratmaq sahəsindəki təşəbbüsü və 1998-ci ildə vahid təşkilatlarası "Rəqəmsal Kitabxana Təşəbbüsü - Faza 2" ("Digital Libraries Initiative - Phase 2") proqramında birləşdirilən "Rəqəmsal Kitabxana Təşəbbüsü" ("Digital Libraries Initiative") proqramını xatırlatmışdıq. Elektron kitabxanaların yaradılması sahəsində digər milli proqram Yaponiyada 1989-cu ildə layihələşdirilməyə başlayan "XXI əsrin elektron kitabxanaları" layihəsidir. Layihənin həyata keçirilməsi ərzində tədqiqatlar, eksperimentlər və layihə sənədlərinin hazırlanması üçün yeni informasiya texnologiyalarının həyata keçirilməsi üzrə xüsusi agentlik yaradılmışdı. Bu tərkibə Milli Parlament Kitabxanasının, digər informasiya mərkəzlərinin, eləcə də informasiya texnologiyaları bazarında fəaliyyət göstərən iri şirkətlərin ekspertləri daxil olmuşdular. Nəticədə, Kansay vilayətində (Tokiodan 500 km məsafədə) 10 milyon səhifədən artıq həcmdə, elektron formada olan (əsasən təsvir şəklində) müxtəlif çap məhsullarından (kitablar, jurnallar, qəzetlər, xəritələr, və s.) ibarət olan Yaponiyanın Elektron Kitabxana layihəsi yaradıldı. 1998-ci ilin martında isə 2003-cü ildə tamamlanması nəzərdə tutulan Yaponiya Elektron Kitabxana layihəsinin tam həyata keçirilməsi üçün bir plan hazırlandı. Layihənin ümumi dəyəri 500 milyon dollar məbləğində qiymətləndirilirdi. Onun həyata keçirilməsi üçün 9 böyük şirkət, o cümlədən NEC, "Mitsubişi", və "Fujitsu" cəlb edilmişdi. Eyni zamanda EK sahəsində hazırlıq işlərinə 1995-ci ildə başlanmış Alman layihəsi "Global-Info"nun *(http://www.global-info.org)* adını qeyd edə bilərik. Onun təşəbbüskarı 16 universitet və 4 tədqiqat cəmiyyəti (fizika, riyaziyyat, kimya və informatika) olmuşdur. Layihə 60 milyon marka dəyərində qiymətləndirilmişdi və dəyərinin 60%-i Təhsil, Elm və Texnologiya Federal Nazirliyinin himayəsi altında həyata keçirilirdi. Layihənin 6 il davam etməsi nəzərdə tutulmuş, onun həyata keçirilməsinə 1998-ci ilin yanvarında başlanmışdır. Fransız dilli EK layihələri arasında Fransa Milli Kitabxanasının nəzdində 1997-ci ildən başlayaraq inkişaf edən, ümumi həcmi 15 milyon səhifə olan, 80 min rəqəmsal sənəddən ibarət "Gallica" *(http://gallica.bnf.fr)* layihəsini qeyd edə bilərik.

Son illər elektron formada ənənəvi kitabxana obyektlərinin kolleksiyalarından əlavə, kolleksiyaların yeni növü də meydana gəlmişdir. Beləliklə, mühafizəsi, təsviri və təsnifat obyekti veb səhifələr, fərdi saytlar, telekonfrans arxivləri kimi müxtəlif internet ehtiyatları olan "veb-arxiv" anlayışı yaranmı-

şdır. Sözsüz ki, bu cür ən məşhur layihə istifadəçinin müəyyən saytların inkişaf və dinamikasını izləməsi və ya müəyyən anda İnternet və ya onun bir hissəsi haqda təsviri əldə etməsi üçün İnternetin məzmununu əhatə edən və 1996-cı ildən həyata keçirilməyə başlayan "İnternet Arxiv"dir ("The Internet Archive") *(http://www.archive.org).*

"İnternet Arxiv" bir sıra xüsusi rəqəmsal topluları, o cümlədən, EK-lar üçün ənənəvi olmayan obyektləri əhatə edir: 1903-cü ildən 1973-cü ilədək olan Amerika sənədli filmlər toplusu *(http://movie0.archive.org),* 2001-ci ilin 11 sentyabr hadisələrinə həsr olunmuş televiziya proqramları toplusu *(http://www.televisionarchive.org),* 1996-cı ildən başlayaraq telekonfransların arxivi və s. Belə gözləmək olar ki, EK-ın inkişafı bununla bitməyəcəkdir. İnsan təcrübəsinin məzmunu getdikcə durmadan elektron formaya keçəcək və ön plana yeni növ toplular, məsələn, üç-ölçülü obyektlərin və virtual aləmlərinin rəqəmsal topluları gələcək, informasiyanın toplanma üsulları, kataloqlaşdırılması, mühafizəsi və çatdırılma üsulları təkmilləşəcək, texnologiyaların inkişafı bizə yeni və yeni sürprizlər təqdim edəcək.

## ƏDƏBİYYAT

*1. Антопольский А. Б., Вигурский К. В. Концепция электронных библиотек // Электронные библиотеки, 1999. - Т. 2, Вып. 2. -98 с.*

*2. Бережной С. Электронные библиотеки - территория беззакония // Мир Internet. - 1999. - Май. - No 5 (32). - С. 86с.*

*3. Кастельс М. Информационная эпоха: экономика, общество, культура / Пер. с англ. под науч. ред. О. И. Шкаратана. - М.: ГУ ВШЭ, 2000. - 608 с.*

*4. Сюнтюренко О. В. Электронные информационные ресурсы: новые технологии и приложения // Электронные библиотеки. - 2001. - Т. 4. - Вып. 1.-96 с.*

*5. Уайт Э., Камаль Э.Д. Статистические методы работы с электронными документами в библиотечной сфере, или Э-метрики.-М.: Омега.-2006.-384 с.*

*6. Хорошилов А.В., Селетков С.Н., Днепровская Н.В. Управление информационными ресурсами.-М.:Финансы и статистика.-2006.-408с.*

*7. Arms W. Y. Digital Libraries. — Cambridge, MA: The MIT Press, 2000, p.69-72*

*8. Bailey C. W. Jr. Scholarly Electronic Publishing Bibliography. Houston: Univ. of Houston Libraries, 1996-2001. - 2001. – p.544.*

*9. Harbo O. Information services, libraries and archives // UNESCO's World Communication and Information Report 1999-2000. - Paris: UNESCO, 1999. p. 104-115.*

# DEVELOPMENT OF ELECTRONIC LIBRARIES: WORLD EXPERIENCE

**KARIMOVA S. H.**
***sevda.kerimova1@gmail.com***

***SUMMARY***

***Key words:*** *electronic libraries, electronic information, information search, information service, paid and free access, information manufacturers, Digital Libraries Initiative*

*In this article are discussed the questions of creation and development of electronic libraries and the basic approaches to understanding of electronic libraries, is traced the history of development of electronic libraries in the world. Are analyzed the typology of manufacturers of the electronic maintenance, a difference between of paid and free access and are discussed the difficulties and problems in development of electronic libraries.*

# РАЗВИТИЕ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК: МИРОВОЙ ОПЫТ

**С.Г.КЕРИМОВА**
***sevda.kerimova1@gmail.com***

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *электронные библиотеки, электронная информация, информационный поиск, информационная служба, платный и бесплатный доступ, информационные производители*

*В статье обсуждаются вопросы создания и развития электронных библиотек, основные подходы к пониманию электронных библиотек. Прослеживается история развития электронных библиотек в мире. Анализируется типология производителей электронного содержания, соотношения платного и бесплатного доступа. Обсуждаются трудности и проблемы в развитии электронных библиотек.*

# N.A.RUBAKİNİN BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİNDƏ ŞƏXSİ TƏHSİL FƏALİYYƏTİNİN OXUCU ŞƏXSİYYƏTİNƏ UYĞUNLAŞDLRILMASI

**E.L.ƏJDƏROV**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrasının dissertantı***
***rubakin.aleksadrovic@mail.ru***

*Məqalə N.A.Rubakinin bibliopsixologiya nəzəriyəsində şəxsi təhsil fəaliyyət və onun oxucu şəxsiyyətinə uyğunlaşdırılması problemini əhatə edir.*

***Açar sözlər:*** *şəxsi təhsil, oxucu şəxsiyyəti, N.A.Rubakin, bibliopsixologiya.*

Nikolay Aleksandroviç Rubakin ixtisasca həm riyaziyyatçı, həm də hüquqşünas idi. O, Peterburq Universitetinin fizika-riyaziyyat və hüquq fakültələrini bitirmişdi. Lakin bununla bərabər mütaliəyə, elmə olan yaradıcı münasibət onun həyata müxtəlif baxış prizmalarından yanaşmasından irəli gəlirdi. O hesab edirdi ki, bibliopsixologiyanın predmeti kitabxana, kitab işi ilə əlaqədar proseslərin psixologiyasıdır. Lakin N.A.Rubakin yaradıcılığı, fikirləri ilə tanış olduqda aydın olur ki, digər elmlərin özündə cəm etdiyi fikir, nəzəriyyələr kimi bibliopsixologiya nəzəriyyəsi də obyekt olaraq insan adlanan sosial-bioloji varlığa istiqamətlənir və onun zənginləşməsinə xidmət edir. Onun "Kitablar arasında"kı əsəri bu mənada böyük əhəmiyyət kəsb edir. Əsər bir çox müxtəlif sahə mütəxəssisləri tərəfindən həm elmi-nəzəri, həm də təcrübi baxımdan qiymətləndirilir. "Şəxsi təhsil fəaliyyəti" "Kitablar arasında" əsərində əsas müzakirə obyektidir. Bununla bərabər N.A.Rubakin "Şəxsi təhsil fəaliyyəti" mövzusu fonunda dövrünün mütaliə problemlərini, sosial-psixoloji məsələləri diqqət mərkəzində saxlayır. O "şəxsi təhsil" problemini praktik baxımdan "Kitablar arasında" əsərini çap etməklə təsdiq edir. Konkret olaraq "şəxsi təhsil" problemi yüzlərlə oxucularla aparılan məktublar əsasında formalaşmışdır. Belə ki, N.A.Rubakin yazır: "Bu kitab oxucularla məktublaşmaya əsaslanıb. Oxucular özləri də başa düşmədən bu kitabın təşkil olunmasında vacib rol oynayıblar. Ona görə çox zəruridir ki, məktublaşmanın necə aparıldığını göstərək" [5, 633].

Yuxarıda qeyd olunan fikirlərdən göründüyü kimi "Kitablar arasında" şəxsi təhsil probleminin təcrübiliyi müəllifin müxtəlif oxucu qrupları ilə məktublaşması əsasında apardığı dialoqlara, müzakirələrə əsaslanır. N.A.Rubakin "Kitablar arasında" əsərinin formalaşması üçün şəxsi təhsil fəaliyyətinin müxtəlif aspektlərini üzə çıxartmaqdan ötrü kifayət qədər zəhmət

çəkmişdir. O, “1912-ci ildə biz 86-a yaxın məktub aldığımız günlər olurdu. Ən azı günə heç olmasa 5 məktub alırdıq. Cəmiyyətin müxtəlif təbəqələrindən bu cür məktubların axınını gözləmirdik. Əldə olan gücümüzlə qısa müddətdə bücür geniş korrespendesiya ilə bacarmaq çox çətin olurdu” [5,636].

“Kitablar arasındakı” əsərlə tanış olduqca aydın olur ki, N.A.Rubakin çalışırdı ki, şəxsi təhsil” fəaliyyətini oxucuya uyğunlaşdırsın. Ona görə də N.A.Rubakin hesab edirdi ki, bu məqsədə nail olmaq üçün oxucuların da bu prosesdə iştirakı zəruridir. O yazır: “Birinci növbədə ərsiyə gətirdiyimiz işlə oxucuların özlərini tanış edək ki, iş necə çətin başa gəlir. İkincisi oxucuları “məktublaşma prosesi” ilə tanış etməklə mövcud problemi lazımi formada ortalığa qoymaq üçün lazımi fikir və tövsiyyələr alaq. Beləliklə oxucuları problemin qoyuluşu ilə tanış edək ki, bizə müraciət edən oxuculara necə kömək edirik” [5, 637].

Şəxsi təhsil fəaliyyətində oxucu ilə açıq təmasa girərək N.A.Rubakin oxucunu öyrənməyə çalışırdı. Artıq məsələnin bu hissəsini xırdalığı ilə nəzərdən keçirməklə görə bilərik ki, N.A.Rubakinin bibliopsixologiya nəzəriyyəsi necə formalaşmışdır. N.A.Rubakin hesab edirdi ki, lazımi ədəbiyyatı müəyyən oxucuya istiqamətləndirmək üçün oxucu psixologiyasına diqqət etmək lazımdır. Qeyd edilən fikrə istinad kimi N.A. Rubakinin fikirlərinə diqqət edin: “Əvvəlki bölmədən oxucu görür ki, problemin əsas qoyuluşu mütaliə, oxu prosesinin “individualizasiya” edilməsidir. Biblioqrafik və digər göstəriciləri konkret oxucunun şəxsi xüsusiyyətlərinə uyğunlaşdırmaqdır. Amma bu işi yerinə yetirmək üçün oxucunun heç olmasa oxucu kimi bir neçə xüsusiyyətlərini bilmək lazımdır [5, 633].

Ədəbiyyatın oxuculara düzgün istiqamətləndirilməsi üçün N.A.Rubakin oxucunu daha aydın tanımağa can atırdı, bunun üçün isə o “məktublaşma prosesini” əsas vasitə hesab edirdi. Məktublaşma işində isə N.A.Rubakin oxuculara aşağıdakı kimi müraciət edirdi: “ Ona görə də bizim köməyimizdən istifadə etmək istəyən oxuculara müraciət etməklə bizlərə verdiyimiz suallara cavab verərək özləri barədə müəyyən məlumatlar versinlər” – [5,634].

N.A.Rubakin yaradıcılığında sistemlilik özünü “kitablar arasında” əsərində də ifadə etmişdir. Belə ki, o şəxsi təhsil fəaliyyətində oxucu, məktub sonrakı mərhələdə isə məktubun məzmununa istiqamətlənməklə oxucuya ünvanlanacaq suallara diqqət etməyi tövsiyyə edirdi. O yazır: “Hesab etmirik ki, sualların əhatə dairəsini hər hansı çərçivələrlə məhdudlaşdıraq; axı həyatın özü gözlənilməz hadisələrlə boldu, şəxsi təhsil fəaliyyəti də istənilən növ maneə ilə doludur, hətta eləsi var ki, qabaqcadan görmək mümkün deyildir [5,634].

Hadisələri bir tərəfdən qabaqlamağa cəhd etməyən N.A.Rubakin şəxsi təhsil fəaliyyətində oxuculara həm böyük həvəslə, həm də yaradıcı yanaşırdı: “Oxucuların bütün suallarına nəinki dövri nəşrlərin səhifələrində cavab

verirdik, hansılarla ki, əməkdaşlıq edirdik, həmçinin məktublara cavab verirdik. Burada hər oxucunun həyat-mövcud həyat şəraitini ilkin olaraq, vacib olaraq nəzərdə tuturduq” [5, 634].

N.A.Rubakin oxucu sorğularına tam mənada cavab verməyə can atırdı. Bunun üçün isə oxucunun nəinki həyat şəraitini bütövlükdə oxunulacaq suallarla öyrənməyə çalışırdı: “1) Oxucunun yaşı və cinsi; 2) yaşadığı mövcud həyat şəraiti (şəhər, kənd, fabrik, ticarət və s.; 3) fəaliyyətdə olduğu sahələr; 4) təhsil səviyəsi; 5) Ağlın quruluşu və inkişafı ”[5, 634].

N.A.Rubakin “Ağlın quruluşu” sualını daha dəqiq təyin etmək üçün isə digər sualları oxucu qarşısında qoyur: “1) Verilən kitablardan hansıları siz oxucuya daha böyük təsir göstərmişdir( elmi kitablar, yoxsa bellestristikalar) 2) Riyazaiyyat sizə asan gəlirmi, ümumiyyətlə riyazaziyyatı sevirsinizmi? 3) Hansı digər bilgilər sizə maraqlıdır, hansı elm sahəsi sizə asan gəlir. 4) Yaddaşınız necedir. Nəyi rahat yadda saxlayırsınız: faktlar, illər, rəqəmlər, formulalar, adlar, fikirlərin gedişatı. 5) Hansı kitablara üstünlük verirsiniz: fikirləri analiz edən, təsvir edən kitabla və ya hadisələri göstərən kitablara, bədii, müəllif hissiyatı ilə yazılmış kitabları və ya hansı 6) Hansı müəllifin şerlərini xoşlayırsınız, ümumiyyətlə şeri xoşlayırsınızmı? 7) Təbiəti xoşlayırsınızmı (seyr etməyi, yoxsa öyrənməyi) 8) Kitabda nə axtarır və ilk növbədə kitabdan nə istəyirsiniz nə axtarır, ağlını işıqlandıran bilik və ya həyatda necə yaşamağı öyrədən kitab, necə işləməyi öyrədən kitab, praktik göstərişlər, nə? 9) Öz bacarığını yazıçılıqda, ümumilikdə yaradıcılıqda sınayıbsınızmı (hansı həyat sahəsində və fikirlərdə)? 10) Həssas insansınızmı? 11) Nə qədər səbrli, enerjili şəxssən, həyat yolunda olan maneələri dəf etmək üçün özündə güc hiss edirmi. 12) Kitab seçmək qabiliyyəti varmı ( hardan və necə)” [5, 634].

N.A.Rubakin hesab edirdi ki, bütün bu suallara dəqiq və düzgün cavab tapmaqla oxucuya uyğun bilgilər proqramını tərtib etmək olar. N. Rubakin özü aşağıdakı kimi etiraf edir ki, “bu suallara verilən 1000-lərlə cavablar bizim göstərişlərimizin, verdiyimiz istiqamətlərin əsasını təşkil edir.”- [5,636] Həmçinin o belə bir qənaətə gəlir ki, problemin bu cür həlli praktikliyi özündə əks etdirir. O yazır: “ Məktubların kəmiyyəti və keyfiyyəti bizi əmin etdi ki, işin qoyuluşu bizim təcrübəsizliyimizə baxmayacaq kifayət qədər praktikliyi özündə cəm edir” [5,636] Hamınız yaxşı bilirsiniz ki, tibbi müayinə zamanı hər bir şəxsin müəyyən qan qrupu mövcuddur ki, buna əsasən də hər bir şəxsin göstəriciləri təyin olunur və lazımi göstərişlər verilir. Buna əsasən demək olar ki, N.A.Rubakinin oxucularla ünsiyyəti özlüyündə laborotoriya xarakteri daşıyır. N.A.Rubakinin mövcud olduğu tarixi anda hələ internet və informasiya resursları yox idi. Lakin buna baxmayaraq N.A.Rubakin tədqiqat zamanı təcrübələrdən, məktublaşmalardan görürdü ki, oxucuları lazımi istiqamətə yönəltmək o qədər də asan bir proses deyildir.

O məktublaşma prosesinə sistemli yanaşaraq fəaliyyətində operativliyi qorumağa çalışırdı. O yazır: “Nisbi olaraq məsələnin bir tərəfi rahat həll olunurdu. Çünki bir çox sorğu və müraciətlərin, sualların müxtəlif yerlərdən, müxtəlif şəxslərdən gəlməsinə baxmayaraq bəzən mahiyyət etibarilə bir çox məktublar eyni sorğunu ifadə edirdi. Bu isə problemi tez bir zamanda həll etməyə imkanı verirdi (bir cavab verməklə) [5, 636].

N.A.Rubakin məktublaşma prosesində keyfiyyət tərəfini əsas məsələ olaraq diqqət mərkəzində saxlayırdı. Keyfiyyətə əsasən o aşağıdakı təsnifləşdirməni aparmışdır:

1) Oxucuların bizə muraciət etdikləri suallara görə məktublar
2) Aydın olmayan, qeyri-dəqiq məktublar
3) Məktub yazan şəxsin özü haqqında lazımi göstəriciləri olmayan məktublar.

N.A.Rubakin belə bir qənatə gəlirdi ki, məzmunu olmayan məəktublara cavab verməmək də olar. O yazır: “Elə hallar olurdu ki, oxucular bizə məhkəmə işini necə aparmaq lazımdır?”, “Yazan maşın sistemlərindən hansını seçək?” kimi suallarla müraciət edirdilər. Ona görə də, biz sualları cavabsız qoyurduq, çünki belə suallara cavab vermək bizim borcumuz sayılmır” [5, 636].

Onun tədqiqatı ilə tanış olduqda aydın olur ki, N.A.Rubakinin oxucu ilə ünsiyyətinin mahiyyəti müasir dövrdə kitabxanaçı və oxucu arasında ünsiyyətin əsl mahiyyətini ifadə edir. O hesab edir ki, kitabxanaçı texniki işçi funksiyasını yerinə yetirməməlidir. Əksinə hər bir oxucu dünyasının dərinliklərinə istiqamətlənməli, onu ən xırda detallara qədər öyrənməlidir. Oxucu psixologiyasına, onun mənəvi dünyasına diqqət etməyi N.A.Rubakin bibliopsixologiyanın əsas tədqiqat obyekti hesab edir. Bunu aşağıdakı sətirlərə diqqət etdikdə görmək olar: “Elə hallar da olur ki, oxucular bizə sırf şəxsi suallarla müraciət edirdilər. Bəzən suallar şəxsin mənəvi dünyasının ən sirli, gizli, gözə görsənməyən tərəflərini əks etdirirdi. Lakin ilk baxışdan elə görünə bilər ki, bü cür sualların “Şəxsi təhsillə” əlaqəsi yoxdur. Amma biz suallara xüsusi diqqətlə cavab veririk. Biz hesab edirik ki, bu bizim ən böyük mənəvi borcumuzdur. Hər belə, bu cür xassəli məktub əslində tək qalmış, işığa yol axtarıb tapmaq istəyən oxucu ruhudur. Bu şəxs aydın, mənalı, işıqlı bir həyata can atır, yol tapmaq istəyir. Məhz bu cür məktublarda bizə “Həyatın mənası barədə”, “Yaşamağa dəyərmi” kimi suallarla müraciət edirdilər. Bizə elə oxucular məktub yazırdılar ki, artıq onların həyat eşqi tam sönmə anına təsadüf edirdi. Bəzən eləsidə olurdu ki, artıq həyata əlvida deməyə qərar verirdi. Bəzən də peşimançılıq hissi ilə dolu cümlələrlə rastlaşırdıq. Belə sönük, ağır hallarda biz var gücümüzlə qışqırırdıq: “Dayanın! Hələ ki gec deyil, dayanın! Həyat daha gözəl, tam, sevindirici ola bilər, əslində elə olmalıdır da! Gəlin, bir daha birgə bu məqsədlə daha səylə çalışaq!”

Beləliklə, az olmayan belə halların mütaliə prosesi ilə nə qədər sıx bağlı olduğunu görmək olar. Bu cür gizli, intim olan tərəflər bizim fəaliyyətimizin əsas sual və tapşırıqlarıdı! [5, 636].

N.A.Rubakin hesab edirdi ki, yalnız bü cür kitabxanaçı olmaq oxuculara lazımi tövsiyyələr verə bilər. Sosial-psixoloji yanaşma şəxsi təhsil fəaliyyətində görnüdüyü kimi N.A.Rubakinin baxış prizmasında prioritet məsələ kimi durmaqdadır. N.A.Rubakin qeyri-dəqiq, məzmunu aydın olmayan məktubların müəlliflərinə-oxuculara müraciət edərək yazır: "Bəzən oxucular öz məqsəd və arzularını aydın ifadə etməyi unudurdular. Əgər sual və müraciətlər aydın olarsa, biz kömək etməyə çalışarıq. Yaxşı olardı ki, oxucular bizim bu təklifimizə xüsusi diqqət etsinlər" [5, 637].

N.A.Rubakin sorğuları dəqiq ödəmək üçün oxucuların özlərini aydın ifadə etməyə çağırırdı. N.A.Rubakin oxucuya onun şəxsiyyətinə uyğun ədəbiyyatı tövsiyə etmək üçün oxucu ilə təmasa girərək suallara verilən oxucu cavablarını diqqətlə oxumağı tövsiyə edirdi. O, qeyd edir: "Yenə də, bir çox oxucuların özləri barədə verdikləri məlumatlara əsasən, kitab tövsiyyəsini, kitab seçimini bacardığımız qədər oxucu şəxsiyyətinə uyğunlaşdıra bildik. Bunun əsasında biz təkcə yazılan məktublara diqqət etməklə kifayətlənmirdik. Cümlələrarası, mətnaltıında, ümumilikdə yazı arxasında gizlənən oxucu şəxsiyyətini axtarmağa can atırdıq, onun ümumilikdə müəyyən obrazını xırda detallara qədər ortalığa çıxarmağa çalışırdıq" [5, 637].

Diqqətinizi "yazının arxasında gizlənən axucu şəxsiyyəti" ifadəsinə yönəltmək istərdim. Hesab etmək olar ki, N.A.Rubakin oxucunu fərdi, dünyagörüşünün gizli qalan tərəflərini əks etdirə biləcək vasitə kimi ən optimal üsulu yazılı şəkildə aparılan dialoqlara bilərəkdən üstünlük veriridi. Çünki oxucunu ona ünvanlanmış suallara sərbəst cavab vermək ixtiyarına buraxmaqla birinci növbədə onun maraq dairəsini, ikinci növbədə isə oxucunun dünya görüşü və intellektinin səviyyəsini müəyyən edirdi. Oxucu barəsində əldə edilmiş ətraflı məlumatlar N.A.Rubakini əhəmiyyətli fakt kimi daima diqqət mərkəzində saxlayırdı. Bunu aşağıdakı fikir də təsdiq edəcəkdir. N.A.Rubakin yazır: "Beləliklə bizim tərəfimizdən qəbul etdiyimiz məktublar arasında elələri var ki, oxucu aftobioqrafiyasını tamlığı ilə ifadə edirdi ki, bu da bizim üçün dəyərli əhəmiyyət-nəticə kəsb edirdi." [5, 637]. N.A.Rubakin oxucuların onlara ünvanlanmış və ya ümumilikdə oxucu suallarını nisbi olaraq iki tipə ayırır:

1) Konkret sorğu ilə yazan oxucular.
2) Ümumi sorğu ilə yazan oxucular [5, 637-638].

Konkret sorğu ilə müraciət edən oxucular tədqiqatçının qeyd etdiyi kimi aydın suallar, konkret elm sahəsini müəyyən tərkibi ilə əlaqədar və s. aydın və konkret sualla müraciət edirdilər. N.A.Rubakini əsasən ikinci tip oxucu sualları - ümumi mənalı suallar daha çox düşündürüdü. Belə ümumi yazılmış sual-

larda məqsəd və məzmun çox çətin anlaşılır və ümumi tipli yazılara konkret cavab verməkdə tədqiqatçıya çətinlik törətsə də, amma N.A.Rubakinin daima maraq və diqqət mərkəzindədir. O yazır: "II tip oxucular isə bizə ümumi suallar verirlər: Necə edək ki, təhsilli şəxs olaq, təhsil sisteminin mahiyyəti nədir və s. şəxsi təhsillə əlaqədar müraciət edənlərin bir çoxu müəyyən elm sahəsinə uyğun konkret suallar qoymur. Bu cür tip oxucular isə "necə başlasınlar"-mexanizmini bilmədiklərinə görə hara və necə, kimə müraciət etsinlər, bilmirlər. Ona görə də onlar ümumi plana ehtiyyac duyurlar. Bu cür tip oxucuya cavab vermək kifayət qədər çətindi" [5, 637].

Ümumi tip oxucularla əlaqəni N.A.Rubakin çətin hesab etsə də o oxucunu cavabsız qoymamağı vacib hesab edirdi. N.A.Rubakin bu prosesdə çətinliyi isə özünün də qeyd etdiyi kimi, oxucuda idtinad nöqtəsini tapmaq idi. O yazır: "Bu cür tip oxucuya cavab vermək kifayət qədər çətindi. Çətinlik ondadır ki, cavab məktublarında biz istinad nöqtəsi tapa bilmirik ki, buna əsasən müəyyən kitab və məqalələri tövsiyyə edək. Bu cür oxucularda vaxt və əhval-ruhiyyə itgisi yaranmasın deyə onlara həmişə az sayda (oxucunu qorxutmamaq üçün) müəyyən uyğun olan kitabların siyahısını veririk. Müəyyən kitabları tövsiyyə etmək oxucu barəsində daha konkret məlumatlar alana qədər mütləqdir. Verdiyimiz kitab siyahısından yalnız 1-nə münasibət göstərməklə biz artıq təyin edirik ki, kitab siyahısı oxucu şəxsiyyətinə uyğundurmu" [5, 637-638].

Göründüyü kimi bibliopsixologiyanın əsas tədqiqat metodu olan oxucunu "sözə, əlyazma və nəşrə verdiyi reaksiyalara əsasən öyrənmə üsulu burada özünü aydınlığı ilə ifadə edir.

Oxucu şəxsiyyətinin təyin olunması problemində N.A.Rubakin obyektivliyi qoruyub saxlamağa cəhd edir. Məhz bu cür cəhd etmə, yanaşma da onun müxtəlif aspektlərdən yanaşmasına, bir-birindən fərqli və ziddiyyətli olan rəngarəng fikirlərinin yaranmasında səbəb olmuşdur.

Beləliklə, şəxsi təhsil fəaliyyətinin oxucu şəxsiyyətinə uyğun təşkil olunması prosesində N.A.Rubakin məsələyə 3 prizmadan yanaşır: 1) oxucu tipinin təyin olunması-düşüncə tərzi; 2) oxucu ağlının təyin olunması-düşüncə tərzi; 3) yuxarıda qeyd olunanlara əsasən oxucuya uyğun ədəbiyyatın verilməsi.

"Şəxsi təhsil fəaliyyətinin oxucu şəxsiyyətinə uyğunlaşdırılması" problemi N.A.Rubakinin bibliopsixologiya nəzəriyyəsində əsas mövzulardan birini təşkil edir. Hesab etmək olar ki, müasir kitabxanaşünaslıq elmində, kitabxana-informasiya xidmətinin təşkilində mütaliə psixologiyasının öyrənilməsində "Şəxsi təhsil fəaliyyətinin oxucu şəxsiyyətinə uyğunlaşdırılması" mövzusunun ciddi tədqiqata ehtiyacı vardır.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş:Dərslik. Bakı, 2001, 400 s.*
2. *Rzayev S. Kitabxana xidməti. Bakı, 2009, 337 s.*
3. *Knyaz Aslan. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. Bakı: BDU, 2008, 324 s.*
4. *Bayramov Ə. S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2009, 620 s.*
5. *Рубакин Н.А. Библиологическая психология. М., 2006, 800 с.*
6. *Фролов С. С. Общая социология. М., 2008, 384 с.*

## A PROBLEM SELF-EDUCATION AND ITS ADAPTATIONS TO THE PERSONALITY" IN THE THEORY OF A BIBLIPSYCHOLOGY OF N.A.RUBAKIN

**E.L.AZHDAROV**
***rubakin.aleksadrovic@mail.ru***

### *SUMMARY*

**Key words:** *Self education, the identity of the reader, bibliopsihology, Nikolai Rubakin.*

*Article covers "a problem self-education and its adaptations to the personality" in the theory of a biblipsychology of N. A. Rubakin.*

## ПРОБЛЕМА САМООБРАЗОВАНИЯ И ЕЕ АДАПТАЦИИ К ЛИЧНОСТИ В ТЕОРИИ БИБЛИОПСИХОЛОГИИ Н.А.РУБАКИНА

**Э.Л.АЖДАРОВ**
***rubakin.aleksadrovic@mail.ru***

### *РЕЗЮМЕ*

**Ключевые слова:** *Самообразвание, Н.А. Рубакин, личность читателя, библиопсихология.*

*Статья охватывает «проблему самообразования и ее адаптации к личности» в теории библиопсихологии Н.А.Рубакина.*

*YENİ NƏŞRLƏR*

# AZƏRBAYCAN TƏHSİLİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**Abuzər XƏLƏFOV**
***Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor***
***axelefov@mail.ru***

**Knyaz ASLAN**
***Bakı Dövlət Universiteti Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, "Qızıl Qələm" mükafatı laureatı***
***knyazaslan@mail.ru***

*Məqalə Əməkdar elm xadimi, professor Misir Mərdanovun "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" adlı kitabının təhlilinə həsr edilmişdir. Məqalə müəllifləri qeyd edirlər ki, bu fundamental əsərdə milli təhsil strategiyasının əsas istiqamətlərinə aydınlıq gətirilmiş, müstəqillik dövründə milli təhsil siyasətinin inkişaf istiqamətlərinin şərhi verilmişdir. Eyni zamanda həmin kitabda statistik rəqəmlər əsasında məktəbəqədər tərbiyə və ümumi təhsil müəssisələrində, texniki peşə, orta ixtisas və ali məktəblərdə aparılan islahatların gedişi, nəticələri və perspektivləri ətraflı izah olunmuş, eləcə də əlavə təhsil, ali məktəb elmi məsələləri diqqətlə araşdırılmışdır.*

***Açar sözləri:*** *Azərbaycan təhsili, müstəqillik dövrü, yeni inkişaf mərhələsi, milli təhsil strategiyası, əlavə təhsil, ali məktəb*

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində əsasını ulu öndər Heydər Əliyevin qoyduğu siyasi və iqtisadi kurs son zamanlar ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, suveren dövlətimiz təkcə regionun deyil, həm də Avropanın siyasi cəhətdən ən sabit ölkəsinə çevrilmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmış, iqtisadi inkişaf tempinə görə dünyada lider ölkələr sırasına daxil olmuşdur. Əlbəttə, qısa müddət ərzində Azərbaycanın bütün sahələrdə sürətli inkişafı dövlət başçısı İlham Əliyevin yeni idarəetmə modeli sayəsində mümkün olmuşdur. Təsadüfi deyildir ki, dünyanın nüfuzlu ekspertləri və iqtisadçıları Azərbaycanın dinamik inkişafının səbəblərini də məhz İlham Əliyevin ölkəni elmi

tədqiqatlara və strateji təhlillərə əsaslanan proqramlarla idarəetmə modelinin nəticəsi kimi qiymətləndirirlər.

Olduqca təqdirəlayiq faktdır ki, Prezident İlham Əliyevin ölkəmizdə uğurla həyata keçirilən yeni idarəetmə modeli təhsil sistemində də müasir menecment modellərinin tətbiqini şərtləndirmişdir. Son illərdə təhsil sahəsində əhəmiyyətli uğurların əldə olunması da bilavasitə təhsilin idarəolunması sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Təhsil Nazirliyinin strukturunda dəyişikliklərin aparılması, o cümlədən monitorinq və qiymətləndirmə, təhsilin idarəolunmasının məlumat sistemləri, strateji təhsil, planlaşdırma və kadrların idarə olunması, akreditasiya şöbələrinin yaradılması nazirliyin idarəetmə potensialını xeyli gücləndirmiş, çevik idarəetməyə zəmin yaratmışdır.

Müstəqillik illərində Azərbaycan təhsili ümummilli lider Heydər Əliyevin "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır" müddəasına əsaslanan islahatlar nəticəsində tarixi təcrübə və nailiyyətlər zəminində bir çox diqqətəlayiq uğurlar qazanmış, milli dəyərlərə söykənməklə beynəlxalq təhsil sisteminə uğurla inteqrasiya edə bilmişdir.

Ulu öndərin uzaqgörən siyasi kursunun mübariz davamçısı olan İlham Əliyevin "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" konsepsiyası isə cəmiyyətin inkişafında yeni zəmin yaratmaqla yanaşı, dövlət başçısının bu uzaqgörən fikirlərini bir daha təsdiqləyir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir".

Təhsil sisteminin qarşısında duran əsas vəzifələri müəyyənləşdirərkən Prezident İlham Əliyev belə bir vacib məqamı xüsusi vurğulamışdır: "Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonrada təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır".

"Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" müddəasını əsaslandıran dövlət başçısının dediyi kimi, "təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Təcrübə göstərir ki, hər hansı bir dövlətin inkişafını təbii sərvətlərin bolluğu deyil, bu sərvətlərin yüksək səviyyədə insan kapitalına çevrilməsi təmin edir.

Təhsil sahəsindəki bu uğurlu inkişafın ən bariz nümunəsi Azərbaycan Respublikasının təhsil naziri, Əməkdar elm xadimi, professor Misir Mərdanovun "Çaşıoğlu" nəşriyyatında nəfis şəkildə çapdan çıxmış "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" adlı fundamental əsərində özünün geniş əksini tapmışdır. 2000 nüsxə turajla buraxılmış 528 səhifəlik kitabda son illərdə Azərbaycanda təhsilin inkişafı, Təhsil Nazirliyinin beynəlxalq qurumlarla birlikdə həyata keçirdiyi islahatlar, ayrı-ayrı təhsil pillələri üzrə reallaşdırılan dövlət proqramları, bu istiqamətdə qazanılan nailiyyətlər, eyni zamanda təhsil sahəsində mövcud olan problemlər və inkişaf perspektivləri kifayət qədər geniş şəkildə əhatə olunmuşdur.

"On söz"dən, "Giriş"dən və 9 fəsildən ibarət olan bu kitabda milli təhsil strategiyasının ən mühüm istiqamətlərinə aydınlıq gətirilmiş, müstəqillik dövründə milli təhsil siyasətinin təşəkkülü və inkişaf istiqamətlərinin hərtərəfli təhlili verilmişdir. Kitabda statistik rəqəmlər əsasında təhsil sisteminin bütün vəsilələrində – məktəbəqədər tərbiyə və ümumi təhsil müəssisələrində, texniki-peşə, orta ixtisas və ali məktəblərdə aparılan islahatların gedişi, nəticələr və perspektivlər ətraflı şərh olunmuş, eləcə də əlavə təhsil, ali məktəb elmi məsələləri diqqətlə araşdırılmışdır. Müəllif olduqca zəngin faktlar və rəqəmlər əsasında Azərbaycan təhsilinin hər bir pilləsi və səviyyəsi üzrə inkişaf meylləri, problemlər və perspektivlər barədə fikirlərini, həyata keçirilən konkret tədbirlər haqqında məlumatları, ölkə təhsilində aparılan islahatların nəticələrini məntiqi və xronoloji ardıcıllıqla oxucuların diqqətinə çatdırmışdır.

Kitab müəllifi haqlı olaraq qeyd edir ki, təhsil xərclərinin ilbəil artması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. Belə ki, son illərdə təhsil xərclərinin artmasının əsasında da həmin konseptual müddəalar dayanır. Məsələn, təhsilə ayrılan büdcə 2003-cü illə müqayisədə 5 dəfədən çox artaraq 2008-ci ildə 1.1 milyard manata çatmış, 2009-cu ildə isə 1.3 milyard manat təşkil etmişdir. Ayrı-ayrı təhsil pillələri üzrə bir təhsilalana düşən xərc də son illərdə dinamik şəkildə inkişaf etmiş, bu rəqəm ildən-ilə müəyyən qədər yüksəlmişdir. Bütün təhsil işçilərinin əmək haqqı, tələbələrin, aspirantların təqaüdləri hiss olunacaq dərəcədə artırılmışdır.

Kitabda göstərildiyi kimi, son illərdə baş vermiş əsaslı yeniliklərdən biri də budur ki, təhsil sistemi elmi şəkildə əsaslandırılmış proqramlar əsasında idarə olunur. Təhsil tariximizdə ilk dəfə olaraq 16 inkişaf yönümlü dövlət proqramı təsdiq olunmuşdur və uğurla həyata keçirilməkdədir.

Müəllif iftixarla yazır ki, son illərdə 350 min yerlik 1300-dək yeni məktəb binasının tikilməsi çağdaş təhsil tariximizin ən parlaq səhifələrindən biridir. Ümumiyyətlə, ötən dövrdə 700 mindən çox şagird, yəni bütün şagirdlərin təxminən 50 faizi müasir tələblərə cavab verən məktəblərdə təhsil

almaq imkanı qazanmışdır. Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" və "Uşaq evləri və internat məktəbləri" proqramları çərçivəsində son illərdə təhsilin bütün vəsilələrində maddi-texniki baza yüksək səviyyədə yaxşılaşdırılmış, son illərdə 226 yeni məktəb tikilmiş, 39 məktəb, 10 uşaq bağçası əsaslı təmir olunmuşdur.

Müəllifin vurğuladığı kimi, tədqiqatlar göstərir ki, məktəbəqədər təhsil uşaqların erkən yaş dövründə intellektual, fiziki və psixoloji inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəb təliminə hazırlanmasında, onlarda mənəvi keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır. Maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur. Bu yaş dövründə uşağın inkişafına xərclənən vəsait sonradan 17 dəfə artıq gəlir gətirir. Bu səbəbdən son illərdə məktəbəqədər təhsilin inkişafı Təhsil Nazirliyinin strategiyasında mühüm prioritet təşkil edir.

Müəllif yazır: " Etiraf etmək lazımdır ki, təhsil sisteminin bu vacib sahəsini dövrün tələblərinə uyğunlaşdırmaq üçün uzun müddətdən bəri xeyli cəhdlər göstərilsə də, ictimaiyyəti razı salan uğurlu nəticələrə hələ nail olunmamışdır. Ona görə də uşaqların məktəbəqədər təhsillə əhatə səviyyəsi xeyli müddətdir ki, 16 faizdən yuxarı qalxmır. Halbuki həmin göstərici Finlandiyada 99, Fransada, Belçikada 95, Almaniyada 90, bir sıra MDB ölkələrində isə 50-85 faiz təşkil edir". Kitabda göstərildiyi kimi, yaranmış vəziyyətlə bağlı aparılan təhlillər bir daha sübuta yetirdi ki, məktəbəqədər təhsil sahəsində yığılıb qalmış problemlərin dövlət səviyyəsində həllinə imkan və şərait yaradan proqram xarakterli sənəd qəbul olunmalıdır. Əks halda, ölkə üzrə yaşayış məntəqələrinin 30 faizində məktəbəqədər müəssisələrin olmaması, kənd rayonlarında əksər uşaq bağçalarının heç bir təlim-tərbiyə şəraiti olmayan uyğunlaşdırlmış binalarda yerləşməsi, müəssisələrin 30 faizindən çoxunda məcburi köçkünlərin yerləşməsi, mövcud avadanlıqların yararsız hala düşməsi və s. kimi problemlərin həlli müşkülə dönə bilərdi. Olduqca əlamətdar haldır ki, bu məsələyə xüsusi həssaslıqla yanaşan Prezident İlham Əliyev 12 aprel 2007-ci ildə imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı"nı təsdiq edərək, 2007-2010-cu illərdə ölkəmizdə məktəbəqədər təhsil tarixində yeni mərhələnin təməlini qoydu.

Proqramın reallaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, təkcə Bakı şəhərində 11 yeni uşaq bağçası istifadəyə verilmiş, Bakıda və Sumqayıtda 21 uşaq bağçası əsaslı təmir edilmiş, yeni inşa olunan 32 təhsil müəssisəsi müasir avadanlıqlarla təchiz edilmişdir.

Bununla yanaşı, Təhsil Nazirliyinin sifarişinə əsasən son illərdə 100 adda müxtəlif təlim vəsaitləri hazırlanmışdır. Belə ki, uşaqlarda diqqətin, təfəkkürün, nitqin, yaddaşın inkişafına xidmət edən test kitabları, sadə riyazi təsəvvürlərin inkişafı üzrə çalışmalar, savad təlimi üzrə metodik işləmələr, nəfis tərtibatlı nağıl kitabları və s. hazırlanaraq respublikanın bütün məktəbəqədər təhsil müəssisələrinə çatdırılmışdır.

Müəllif kitabın ən böyük hissəsi olan II fəslini "Ümumi təhsil" adlandırmışdır. Burada məktəb tikintisi proqramları, məktəblərin dərsliklə təminatı, dərslik siyasəti, təhsil sisteminin informasiyalaşdırılması, pedaqoji kadr təminatı, xüsusi qayğıya eytiyacı olan uşaqlarla iş, idarəetmə sahəsində islahatlar, məktəb-valideyn münasibətləri və s. kimi aktual məsələlər geniş təhlilə cəlb edilmişdir.

Kitabdakı təhlillər göstərir ki, 2003-2004-cü dərs ilinə nisbətən 2008-2009-cu tədris ilində ümumtəhsil məktəblərinin sayı 25, təhsil alanların sayı isə təxminən 265 min nəfər azalmış, müəllimlərin sayı 3702 nəfər artmışdır. Məktəblərin sayının azalması rasionallaşdırma tədbirlərinin həyata keçirilməsi, şagird kontingentinin kəskin azalması nəticəsində bir sıra məcburi köçkün məktəblərinin bağlanması ilə əlaqədar olmuşdur. Bu da maraqlıdır ki, 2008-ci ildə I sinfə gedən şagirdlərin sayı ötənilkinə nisbətən 1679 nəfər artmışdır. Eyni zamanda statistikaya görə, həm ölkəmizdə fəaliyyət göstərən özəl ümumtəhsil məktəblərinin miqdarında, həm də orada təhsil alan şagirdlərin sayında artma müşahitə edilmiş, amma müəllimlərin sayında azalma baş vermişdir.

Sirr deyil ki, yeni minilliyin əvvəllərində Azərbaycanda ümumi təhsil sistemində ən ciddi problemlərdən biri məktəblərin maddi-texniki bazasının yarıtmaz olması ilə bağlı idi. Ona görə də ümummilli lider Heydər Əliyev bu sahəyə xüsusi diqqət yetirmiş, çıxışlarının birində "Mən bu gün bəyan edirəm ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərimi irəli sürəcəyəm" söyləmiş, bu problemin dövlət üçün prioritet məsələ olduğunu vurğulamışdı. Həmin çıxışdan qısa müddət keçdikdən sonra – 4 oktyabr 2002-ci ildə ölkə başçısı "Azərbaycan Respublikası ümumi təhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam imzalamış, bu sənəd ümumi təhsilin böhran vəziyyətindən çıxarılması üçün əsas olmuşdur. Məhz bu sərəncam təhsil sisteminin inkişafında mühüm amil olan ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndidirlməsinə, maddi-texniki bazasının möhkəmləndidirlməsinə etibarlı zəmin yaratdı.

Kitab müəllifinin qeyd etdiyi kimi, Sərəncamın icrası istiqamətində Təhsil Nazirliyi tərəfindən ölkənin bütün ümumtəhsil məktəblərində maddi-texniki bazanın monitorinqi aparıldı və nəticələrə əsasən "Azərbaycan

Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2003-2007-ci illər)" hazırlandı. Proqram Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı ilə təsdiq edildi. Həmin sənəddə 5 ildə 44698 yerlik 149 yeni məktəbin, 175 məktəbdə 25560 yerlik 1328 sinif otağının inşası, 408 məktəbdə əsaslı təmir işlərinin aparılması nəzərdə tutulurdu.

Professor Misir Mərdanov bu sahədə həyata keçirilən uğurlu işlərin geniş statistik mənzərəsini şərh edərək yazır ki, son illərdə 350 min şagird yerlik 1300-dək yeni məktəb binasının tikilməsi çağdaş təhsil tariximizin ən parlaq səhifələrindən biridir. Ümumilikdə son illərdə 700 mindən çox şagird, yəni bütün şagirdlərin 50 faizi müasir tələblərə cavab verən məktəblərdə təhsil almaq imkanı qazanmışdır.

Kitabda ümumi təhsil sahəsində görülən irimiqyaslı layihələr içərisində tədrisin məzmunu sahəsində həyata keçirilən islahatlar da geniş təhlil edilmişdir. Əsərdən aydın olur ki, 2002-ci ildə Dünya Bankı ekspertlərinin iştirakı ilə Təhsil Nazirliyi tərəfindən ümumi orta təhsilin məzmununa, onun daim yeniləşdirilməsi və təkmilləşdirilməsi ilə yanaşı, təhsilalanlarda həyati bacarıq və vərdişlərin formalaşmasına daha çox diqqət yetirilməsi məqsədi ilə kurikulumların tətbiqinə başlandı. Bu sahədə ənənəvi problemlər üç istiqamətdə ümumiləşdirilmiş, əsasən qiymətləndirilmədə formalizmə üstünlük verilməsi, məzmunun ifrat nəzəri və abstrakt olması, nəhayət, bu sahədə şaquli və üfüqi inteqrasiyanın olmaması mövcud problemlər kimi qeyd edilmişdir.

Müəllifin qeyd etdiyi kimi, 30 oktyabr 2006-cı ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədi əsaslı dönüşə təkan verdi, yeni tədris standartları hazırlandı, ibtidai siniflər yeni kurikulumla fəaliyyətə başladı. Bundan sonra isə təhsilin məzmununun yeniləşdirilməsi istiqamətində fəaliyyət başlandı. Kitabın annotasiyasında da vurğulandığı kimi, kitabın əhəmiyyətli cəhətlərindən biri budur ki, Azərbaycanın təhsil tarixində ilk dəfə olaraq məzmun (kurikulum) islahatları, yeni dərslik siyasəti, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə müasir mexanizmlərin tətbiqi, təhsilin informasiyalaşdırılması, əlavə təhsil barədə geniş məlumat verilmişdir.

Qeyd edək ki, kitabda ümumi təhsil məktəblərinin dərsliklə təminatı, dərslik siyasəti sahəsində həyata keçirilən dövlət tədbirləri siyasəti ətraflı təhlil edilmişdir. Bu baxımdan Heydər Əliyevin 26 aprel 1999-cu ildə imzaladığı "Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları" və 15 iyun 1999-cu ildə imzaladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın qəbulunadək olan mərhələ birinci mərhələ hesab edilmişdir. Məqsədyönlü fəaliyyətin nəticəsidir ki, dərslik

siyasətinin birinci mərhələsində I-IV siniflər üzrə dərsliklərin 90 faizi, V-XI siniflər üzrə isə 75 faizdən çoxu məzmunca yeniləşdirilmişdir.

Dərslik islahatının ikinci mərhələsində əldə edilmiş uğurlar müqayisəli statistik təhlilə əsaslanmışdır. Bu mərhələnin ən böyük uğuru təbiət, texniki və dəqiq fənlərə aid yeni nəsil dərsliklərə keçilməsi idi. Sonralar humanitar fənlər üzrə də eyni prinsiplə dərslik hazırlığı təmin edilmişdir.

Böyük iftixar hissi ilə demək olar ki, Azərbaycan təhsili tarixində umumtəhsil məktəblərinin dərsliklərlə təmin edilməsi, ölkəmizdə dərslik siyasətinin uğurla həyata keçirilməsi sahəsində görülən işlər müstəqillik illərini dərslik inqilabı dövrü kimi xarakterizə etməyə imkan verir. Qısa bir zaman kəsiyində onlarla fənlər üçün yeni təfəkkür tərzinə, Azərbaycan dövlətinin qarşıda qoyduğu tələblərə, milli idealogiyamıza, dövlətçilik və azərbaycançılıq fəlsəfi konsepsiyasına, tarixi keçmişimizə, soykökümüzə uyğun dərsliklər hazırlamaq, onları çap etmək və məktəblərimizi təmin etmək olduqca böyük problem idi.

Sevindirici haldır ki, Azərbaycan dövləti, Təhsil Nazirliyi bu mühüm işin öhdəsindən müvəffəqiyyətlə gəldi. 2003-2009-cu illərdə 701 adda dərslik hazırlandı. 34.256.600 tirajla nəşr edilən bu dərsliklər pulsuz olaraq məktəblərə verildi. Həmçinin dərsliklərdən əlavə Heydər Əliyev fondunun yaxından köməyi ilə ayrı-ayrı fənlər üzrə 140 adda 1,4 milyon tirajla tədris-əyani vəsait hazırlanıb məktəblərə göndərilmişdir.

Belə bir cəhəti də qeyd etmək yerinə düşər ki, möhtərəm Prezidentimiz İlham Əliyev ulu öndər tərəfindən əsaslandırılmış “Müstəqil Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının vətənidir” ideyasını həyata keçirmək üçün Gürcüstandakı, Dağıstandakı Azərbaycandilli məktəblər, MDB ölkələrində, habelə Almaniya, Polşa, Macarıstan, Kanada, Böyük Britaniya və ABŞ-dakı təhsili ana dilində olan bazargünü məktəblərinə və s. Azərbaycan dilində dərsliklərin göndərilməsini zəruri hesab etmişdir.

Bütün dünyada analoqu olmayan bu siyasətin həyata keçirilməsi dövlətimizin təhsil siyasətinin bütün dünyada ən humanist, ən demokratik siyasət olmasının bariz sübutudur.

Əsərdə professor M.Mərdanovun ciddi diqqət yetirdiyi sahələrdən biri də ümumi təhsil sistemində biliyin qiymətləndirilməsidir. Məlum olduği kimi, beynəlxalq təcrübədə təhsilalanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir. Planlı sovet təhsil sistemində keyfiyyət yox, kəmiyyət önə çəkildiyindən orta və ali məktəblərdə bütün məzunların attestat və diplom almaları təbii hesab edilirdi. Ona görə də bu sahədə ənənəvi psixoloji baryeri aşmaq hələ də çətindir və təpkilərlə qarşılanır. Bu sahədə ən ciddi vəzifə beynəlxalq təcrübənin təbliğidir ki, burada da başlıca məqsəd onun mahiyyətinin təhsilin müasir inkişaf

tendensiyalarına uyğunlaşdırılmasıdır. Yeni kurikuluma uyğun tətbiq edilən standartlarda təsbit olunmuş biliklər daşıdıqları mahiyyətə görə 3 kateqoriyaya (deklarativ, prosedural və kontekstual) bölündüyündən onların reallaşdırılması üçün tələb edilən bacarıqlar da fərqli müəyyən edilir.

Əsərdə 2008-2009-cu dərs ilində ölkənin təhsil tarixində ilk dəfə olaraq bütün ümumi təhsil məktəblərində mərkəzləşdirilmiş imtahan formasının tətbiqi bu sahədə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

Azərbaycan təhsilinin salnaməsi hesab edilən bu əsərdə eyni zamanda ali və orta ixtisas təhsili sahəsində görülən işlərin çox geniş elmi-praktik mənzərəsi yaradılmışdır. Müəllifin haqlı olaraq vurğuladığı kimi, müstəqillik əldə edildikdən sonra ölkədə baş verən siyasi-tarixi proseslər bu sahəyə də öz təsirini göstərmiş, onu böhran mərhələsindən ümummilli lider Heydər Əliyevin təkrar hakimiyyətə qayıdışı ilə baş verən quruculuq prosesi xilas etmişdir.

Dünya ölkələrinin təcrübəsi təsdiq edir ki, şəxsiyyət və cəmiyyətin təhsilə tələbatları əbədidir. Həmin tələbatların ödənilməsində orta ixtisas və ali təhsilin özünəməxsus rolu var. Azərbaycanın sosial-iqtisadi inkişafı, formalaşmaqda olan bazar münasibətləri şəraitində vətəndaşların peşə ixtisasına olan tələbat və istəklərinin ödənilməsində orta ixtisas təhsilinin əhəmiyyəti danılmazdır. Kitabın tarixi fakt və təcrübə əsasında hazırlanmış bu fəslində orta ixtisas təhsili təbəqəsini dövlət və özəl təhsil müəssisələrinin statistikası əsasında şərh edən müəllif bu sahənin məqsədlərini ətraflı şəkildə açıqlamışdır.

Əsərdən məlum olur ki, hazırda ölkəmizdə orta ixtisas təhsili müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. İndi 57 dövlət, 3 özəl orta ixtisas təhsili müəssisəsi 117 ixtisas üzrə kiçik mütəxəssis hazırlayır.

Sürət və intensiv dəyişilmə ilə səciyyələnən müasir zamanda sosial-iqtisadi və mədəni sahələrdə davamlı inkişafa təkan verən real qüvvə hesab olunan ali təhsil: cəmiyyətin ahəngdar inkişafında, cəmiyyətin intellektual potensialının formalaşmasında, maddi sərvətlərin insan kapitalına çevrilməsində müstəsna əhəmiyyət kəsb edir, mühüm rol oynayır. Təsadüfi deyil ki, respublikada Dünya Bankının dəstəyi ilə aparılan islahatların mühüm sahəsi ali təhsili əhatə edir.

Kitabdakı "Ali təhsilin inkişafı" adlı fəsil məzmun zənginliyi, beynəlxalq qurumlarla bağlı görülən işlərin genişmiqyaslı təhlili ilə diqqəti cəlb edir. Buradan bəlli olur ki, 24 dövlət ali məktəbində çalışan professor-müəllim heyətinin pedaqoji fəaliyyətinin məqsəd və vəzifələrinin aydınlaşdırılması, dövlət büdcəsindən təhsilə ayrılan vəsaitin həcminin başqa ölkələrdəki rəqəmlərlə müqayisəli təqdimi, tədrisin məzmunu və sair məsələlərin elmi-nəzəri şərhi fəslin pedaqoji, sosial-ictimai dəyərini artırır.

Kitabın ayrı-ayrı fəsillərində dünyanın seçilən ali məktəblərinin siyahısı, ölkə məktəblərinin reytinqi, ali məktəblərin maddi-texniki durumunu əks etdirən çoxşaxəli diaqramlar, sxemlər və s. kimi köməkçi aparatların verilməsi əsərin əhəmiyyətini xeyli yüksəldir.

Elmi təhlil, publisistik şərh və fakt, hadisə bölümü ilə seçilən kitabdakı "Əlavə təhsil", "Ali məktəb elmi" fəsilləri də maraq doğurur. Bu istiqamətdə ölkədə görülən işlərin sistemli şərhi verilərək qeyd edilir ki, Azərbaycan vətəndaşları bu gün dünyanın müxtəlif ölkələrinin ən tanınmış ali məktəblərində yüksək ixtisaslı kadrlar kimi hazırlanırlar. Son zamanlar bağlanılmış müqavilələrin, qazanılmış uğurların analitik təhlili ölkəmizdə təhsilin inkişaf səviyyəsini bütün aydınlığı ilə dərk etməyə imkan verir.

Beləliklə, kitab haqqında mülahizələrimizi yekunlaşdıraraq professor Misir Mərdanovun "Ön söz"də yazdığı bəzi fikirlərə də öz münasibətimizi bildirmək istəyirik. Müəllif 2009-cu ildə qələmə aldığı bu sətirlərdə yazır: "Artıq 11 ildir ki, Azərbaycan Respublikasının təhsil naziriyəm. Bu illər ərzində təhsil sahəsində görülən işlərin bilavasitə iştirakçısı olmuş, bütün səylərimi problemlərin, çətinliklərin aradan qaldırılmasına yönəltmişəm. Hər zaman istəmişəm və çalışmışam ki, təhsilin bütün pillələrində effektli yeniliklər olsun, Azərbaycanın təhsili yeniləşsin, milli və bəşəri dəyərlərə əsaslansın, Avropa və dünya təhsil sisteminə uğurla inteqrasiya olunsun. Bu istiqamətdə müəyyən addımlar atılıb." Hörmətli müəllifin bu haqlı fikirlərini təsdiqləməklə yanaşı, ədalət naminə qeyd etməyi lazım bilirik ki, indiyə qədər Azərbaycanda təhsil sahəsinə rəhbərlik etmiş nazirlər arasında "Xalq adamı" titulunu qazanmış 2 nəfərin xidmətlərini xüsusilə dəyərləndirmək lazım gəlir. Onlardan biri Azərbaycan pedaqogika elminin korifeylərindən olan akademik Mehdi Mehdizadədir. Azərbaycan təhsilinə 20 ildən artıq rəhbərlik etmiş Mehdi müəllim əsl el ağsaqqalı, Azərbaycan təhsilinin ən ləyaqətli qurucularından biri kimi, xalqımızın sevimli elm və təhsil xadimi kimi böyük şöhrət qazanmışdı.

Belə şəxsiyyətlərdən biri də müstəqillik illərində respublikamızda böyük təhsil islahatlarının aparıldığı olduqca mürəkkəb və məsuliyyətli dövrdə ulu öndər Heydər Əliyevin xeyir-duası ilə təhsilimizin rəhbərliyinə gətirilmiş, 13 ildən artıq müstəqil dövlətimizin təhsil strategiyasının hazırlanmasında və həyata keçirilməsində böyük zəhməti və layiqli uğurları olan professor Misir Mərdanovdur.

Tam səmimiyyətlə qeyd etməyi lazım bilirik ki, bütün şüurlu həyatını milli təhsilimizin inkişafına həsr etmiş Miris müəllim hazırda tutduğu vəzifəyə layiq olan ən hörmətli ziyalımızdır.

Bu fikirləri ifadə edərkən Azərbaycanın görkəmli xalq şairi Bəxtiyar Vahabzadənin aşağdakı misaraları yada düşür.

**Bəli, əziz dostum, bunu yaxşı bil,**
**Şöhrət də zəhmətlə yaşa dolmalı!**
**Vəzifə insana şan-şöhrət deyil,**
**İnsan vəzifəyə şöhrət olmalı!**

Görkəmli təhsil təşkilatçısı professor Misir Mərdanov tərəfindən yazılmış "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" adlı əsəri müstəqillik illərində Azərbaycanda təhsilin inkişafı sahəsində əldə edilən böyük nailiyyətləri konkret faktlar və rəqəmlər əsasında ümumiləşdirən, Azərbaycan dövlətinin təhsil siyasətini, onun fəlsəfəsini tutarlı elmi dəlillərə söykənərək acan qiymətli tədqiqat əsəridir. Bu qiymətli əsər təhsil tədqiqatçıları, mədəniyyət tarixçiləri və bütövlükdə çoxminli təhsil işçiləri üçün qiymətli hədiyyədir.

Bu kitabın ingilis və rus dillərində nəşri müstəqil Azərbaycan Respublikasının təhsil siyasətinin beynəlxalq aləmdə yayılmasına müsbət təsir göstərə bilər.

Bütövlükdə bu fundamental kitab müasir dövrdə müstəqil respublikamızda milli təhsilin hazırkı vəziyyəti, təhsil quruculuğu, inkişaf perspektivləri kimi mühüm məsələlərə aydınlıq gətirən aktual bir əsər kimi çox böyük əhəmiyyətə malikdir. Əminik ki, bu mühüm əsər Azərbaycan təhsil sistemində özünün layiqli yerini tutacaqdır.

## FORMATION OF AZERBAIJAN AT A NEW STAGE OF DEVELOPMENT

**A.A.KHALAFOV**
***axelefov@mail.ru***
**K.ASLAN**
***knyazaslan@mail.ru***

***SUMMARY***

***Keywords:*** *Education in Azerbaijan since independence of the Azerbaijan Republic, a new stage of development, the main directions of the national education policy, higher education*

*This article analyzes the book "Azerbaijan in the new stage of development of education" of Professor Misir Mardanov. The authors note that in this fundamental work has clarified the main directions of the strategy of the national educational policy in the period of independence of the Azerbaijan Republic.*

*Articles have been devoted professor Misir Mardanov to analysis of the book of "Azerbaijan educational development in newly stage". Article authors note that commentary of the development directions of the politics of national educational have been given in the time of independence of the Azerbaijan Republic.*

## ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ НА НОВОМ ЭТАПЕ РАЗВИТИЯ

**А.А.ХАЛАФОВ**
***axelefov@mail.ru***
**К.И.АСЛАН**
***knyazaslan@mail.ru***

### *РЕЗЮМЕ*

***Ключевые слова:*** *образование в Азербайджане, период независимости Азербайджанской Республики, новый этап развития, основные направления стратегии национальной образовательной политики, высшая школа*

*Статья посвящена анализу книги профессора Мисира Марданова. Авторы статьи отмечают, что в этой фундаментальной книге была внесена ясность основным направлениям стратегии национальной образовательной политики в период независимости Азербайджанской Республики.*

*UNUDULMAZ ZİYALILARIMIZ*

# GÖRKƏMLİ BİBLİOQRAF-ALİM Ə.QƏHRƏMANOV –100

**Nadir İSMAYILOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent***
***kafedra_bibliqraf@mail.ru***

**Xuraman AĞAYEVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, fəlsəfə doktoru***
***kafedra_bibliqraf@mail.ru***

*Məqalədə Azərbaycanda biblioqrafik fəalliyyətin nəzəri və praktiki məsələlərinin, kitabxanaçı-biblioqraf kadrlarının hazırlanmasında müstəsna xidmətləri olan Əliheydər Qəhrəmanovun şərəfli yoluna nəzər salınmış, onun əldə etdiyi ən mühüm nailliyyətlər ümumiləşdirilmişdir.*

***Açar sözlər:*** *Əliheydər Qəhrəmanov, dövlət biblioqrafiyası, sahəvi biblioqrafiya, biblioqrafiyaşünaslıq, kitabxanaçı-biblioqraf kadrlarının hazırlanması.*

Azərbaycan xalqının kitabxana-biblioqrafiya və informasiya mədəniyyəti əsrlər boyu formalaşmış, milli mənəvi dəyərlərimizi mühafizə edərək, nəsillərdən nəsillərə ötürülərək zəmanəmizə qədər gəlib çatmışdır. Təbii ki, xalqımızın yaratdığı mənəvi abidələr, o cümlədən biblioqrafik ənənələr ayrı-ayrı görkəmli şəxsiyyətlər, elm adamları, ziyalılar tərəfindən işlənib hazırlanmışdır.

XX əsr Azərbaycan biblioqrafiyası tarixində xüsusi yeri olan belə görkəmli biblioqraf alimlərdən biri də Əliheydər Qəhrəmanovdur. Onun adı və fəaliyyəti Azərbaycanda həm əməli biblioqrafik fəaliyyətin inkişafı sahəsində, həm də kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında həmişə hörmətlə yad edilir. Bu yaxınlarda görkəmli biblioqraf, müəllim, dövlət biblioqrafiyası və ədəbiyyatşünaslıq sahəsində gözəl mütəxəssis, kitabxanaşünas-biblioqraf kadrların hazırlanması sahəsində bacarıqlı təşkilatçı, indi də kitabxanaçılıq ictimaiyyəti tərəfindən daim hörmətlə yad edilən Ə.Qəhrəmanovun 100 illiyi tamam olmuşdur. Bu kiçik məqalə də onun yubileyinə böyük hörmət və minnətdarlıq hissi ilə yazılmışdır. Şübhəsiz ki, bir məqalədə bu böyük ziyalının nəzəri və təcrübi fəaliyyətini, çoxcəhətli

yaradıcılığını əhatə etmək mümkün deyil. Buna baxmayaraq yenə də onun ömür yolunu bir daha varaqlamağı qaşıya məqsəd qoyduq.

Əliheydər Qəhrəmanov 1911-ci ildə Bakının Biləcəri kəndində anadan olmuşdur. 1925-ci ildə 50 saylı məktəbi bitirdikdən sonra BXMŞ-nin Pedaqoji Texnikumuna daxil olmuş və 1929-cu ildə təhsilini başa vurmuşdur. Bu illərdən başlayaraq kitaba və ədəbiyyata olan həvəs və məhəbbət Ə.Qəhrəmanovun gələcək həyat yolunu müəyyənləşdirmişdir. O, texnikumda təhsil aldığı illərdə və texnikumu qurtardıqdan sonra A.Səhhət adına Kitabxanada kitabxanaçı vəzifəsində işləmiş və 1933-ci ildən 1940-cı ilə qədər bu kitabxananın direktoru vəzifəsində çalışmışdır (27,128).

Azərbaycan ədəbiyyatına xüsusi həvəs göstərən Ə.Qəhrəmanov 1932-ci ildə ADPİ-nun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuş və 1936-cı ildə oranı bitirmişdir.

1940-cı ildən Bakı Mədəni-Maarif Texnikumunda müəllimlik etməyə başlayan Ə.Qəhrəmanov 1942-ci ildən 1948-ci ilə kimi texnikumun direktoru vəzifəsində çalışmışdır. 1944-cü ildən başlayaraq o, həm BDU-da, həm də APU-da müəllimlik etmişdir.

1947-ci ildən Azərbaycan Dövlət Univesitetinin filologiya fakültəsinin nəzdində kitabxanaşünaslıq şöbəsi açılmış və və həmin ildən Ə.Qəhrəmanov orada biblioqrafiya kursu üzrə mühazirələr oxumağa başlamışdır. O, 1948-ci ildən ömrünün sonuna qədər BDU-nun Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına rəhbərlik etmişdir.

Beynəlxalq İnformasiyalaşdırma akademiyasınını akademiki, Əməkdar Elm xadimi, Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor A.Xələfov yazır: "1947-ci ildə kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının ilk müdiri Əliheydər Bala oğlu Qəhrəmanov olmuşdur. İxtisasca filoloq olan Ə.Qəhrəmanov uzun illər Bakının kütləvi kitabxanalarında kitabxanaçı, kitabxana müdiri işləmiş, N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunun direktoru olmuşdur. Kitabxanaşünaslıq kafedrasına müdir təyin edilənə qədər isə Respublika Dövlət Kitab Palatasının direktoru idi. 1955-ci ildə "Rus – Azərbaycan ədəbi əlaqələrinə dair" dissertasiya müdafiə edib filoloji elmlər namizədi adını almışdı. Azərbaycan biblioqrafiyasına dair bir çox qiymətli biblioqrafik göstəricilərin, ilk elmi əsərlərin müəllifidir. Ə.H.Qəhrəmanovun respublikada Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının təşkilində, ali və orta ixtisas kitabxanaçılıq təhsilinin inkişafında xidmətləri böyükdür. Ə.H.Qəhrəmanov 1947-ci ildən ömrünün axırına qədər (1959) Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına başçılıq etmiş, kitabxanaşünaslıq və biblioqrafiyanın ayrı-ayrı sahələrinə dair mühazirələr oxumuş, kitabxanaçılıq şöbəsində tədris prosesinin təşkilində, tədris planlarının, proqramlarının tərtibində yaxından iştirak etmişdir. O,

kitabxanaşünaslıq və biblioqrafiyanı sevən, ali kitabxanaçılıq təhsilinin inkişafında canla-başla xidmət edən bir alim idi".(1,s.27-28)

Onun tələbələrindən bir çoxu hazırda yüksəkixtisaslı kitabxanaşünas-biblioqraf alim kimi ali məktəblərdə, respublikanın bir sıra elmi və kütləvi kitabxanalarında müvəffəqiyyətlə çalışır.

Azərbaycanın görkəmli kitabxanaşünas-biblioqrafı, ədəbiyyatşünas alimi Ə.Qəhrəmanov ali məktəblərdə pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı, Azərbaycan Dövlət Kitab Palatasında cari və retrospektiv biblioqrafiya sahələrində geniş fəaliyyət göstərirdi.

Hələ 1937-ci ildən Ə.Qəhrəmanov Kitab Palatasında işləməyə dəvət edilmiş, həmin vaxtdan etibarən onun adı Azərbaycan dövlət biblioqrafiyası ilə ayrılmaz surətdə bağlı olmuşdur. Ə.Qəhrəmanov bütün qüvvəsini Kitab Palatasının və kitabxanaçı kadrlarının hazırlanması işinə sərf etmişdir. Dövlət biblioqrafiyası sahəsində işləməklə yanaşı 1932-ci ildən Bakıda kitabxanaçılıq kurslarında biblioqrafiya fənnindən dərs demişdir.

1937-ci ildən Kitab Palatasında çalışan Ə.Qəhrəmanov 1942-ci ildə elmi katib, (25, 11). 1941-42-ci illərdə palatanın çapdan buraxdığı "Azərbaycan kitab letopisi", "Azərbaycan qəzet məqalələri letopisi"nin tərtibçisi, 1943-cü ildən palatanın direktoru (25, 11). 1946-cı ildən başlayaraq ömrünün axırına kimi müntəzəm olaraq Kitab Palatasının çapdan buraxdığı letopislərin redaktoru olmuşdur.

Məlum olduğu kimi, mətbuat salnamələri yalnız elmi işçilər üçün deyil, həm də ali və orta məktəb müəllimləri, tələbələr, kitabxanaçılar, elmi-məlumat müəssisələrinin əməkdaşları, kitab ticarəti işçiləri, təbliğatçılar, eyni zamanda kitab fondlarının komplektləşdirilməsi üçün də mühüm əhəmiyyət kəsb edirdi. Xalqın mənəvi sərvətinin qiymətli inciləri sayılan kitabları və dövri mətbuat materiallarını geniş oxucu kütləsinə çatdırmaq məqsədilə Respublika Kitab Palatası tərəfindən çap olunan "Azərbaycan kitab letopisi" və "Azərbaycan qəzet məqalələri letopisi"nin 1941-ci il 8, 9, 10, 11, 12-ci nömrələrində, 1942-ci il 1, 2, 3-cü nömrələrində Ə.Qəhrəmanov Azərbaycan dilində gedən materialların tərtibçisi, 1941-ci ildə oxuculara təqdim edilən "Azərbaycan SSR-nin kitab məhsulu illliyi"nin redaktoru olmuşdur (27, 130).

Müharibə illərində letopislərin nəşri müvəqqəti olaraq dayandırılsa da, 1946-1947-ci illərdən müntəzəm çap olunmağa başlamışdır.(24, 8).

Ə.Qəhrəmanov Kitab Palatasının çapdan buraxdığı nəşrlərin redaktoru olarkən Ümumittifaq Kitab Palatasının salnamələrində olan dəyişiklik və yenilikləri öz vaxtında və xüsusi bacarıqla yerli nəşrlərə tətbiq edə bilmişdir. Məsələn, 1957-ci ildən etibarən "Kitab letopisi" Azərbaycan ədəbiyyatı bölməsində müəlliflərin və kitabların adlarının rus dilinə tərcüməsi verilməyə başlamışdır. Bu da həmin letopislərdən rusdilli oxucuların da istifadə etməsinə imkan verirdi.

Digər bir misal, 1957-ci ilə kimi müəllıflərin adlar göstəricisi ildə bir dəfə letopislərin yalnız axırıncı nömrəsində verilirdisə, 1957-ci ildən isə letopislərin hər bir nömrəsinin sonunda “müəlliflərin adlar göstəricisi” köməkçi aparatı verilmişdir ki, bu da oxucuların ondan istifadəsini və biblioqrafik axtarışı asanlaşdırırdı, vaxt itkisinin qarşısını alırdı.

1956-ci ildən başlayaraq onun təşəbbüsü ilə kitab letopisinin axırıncı nömrəsində notların təsviri də öz əksini tapmışdır.

Ə.Qəhrəmanov Azərbaycan Dövlət Kitab Palatasının salnamələrindən başqa həm palatanın, həm də digər nəşriyyatların müxtəlif müəlliflərin tərtibi ilə çapdan buraxdıqları bir neçə göstəricini də pedaktə etmişdir. S.Əliyevin tərtibi ilə Pespublika Kitab Palatası tərəfindən çapdan buraxılan “Azərbaycan kitabı” (1951) adlı ümumi petrospektiv biblioqrafik göstəricinin və Ə.Əliyevin tərtib etdiyi “Nə oxumalı?” (1949) biblioqrafik göstəricisinin pedaktoru Ə.Qəhrəmanov olmuşdur. Eyni zamanda S.Əliyevin tərtib etdiyi “Azərbaycan kitabı” biblioqrafik göstəricisinə giriş məqaləsini də Ə.Qəhrəmanov yazmışdır. Həmin məqaləsində müəllif Azərbaycan oxucularının kitaba, ədəbiyyata olan tələbatının artmasından, respublika nəşriyyatlarının çapdan buraxdığı kitabların get-gedə çoxalmasından və bununla əlaqədar olaraq çap əsərlərini oxucularımıza çatdırmaq üçün biblioqrafik vəsaitlərin tərtib edilməsinin əhəmiyyətindən və həmin biblioqrafik göstəricinin quruluşundan bəhs etmişdir (27, 131).

Ə.Qəhrəmanovun fəaliyyəti yalnız Respublika Kitab Palatasının salnamələrini və bəzi biblioqrafik göstəriciləri redaktə etməklə məhdudlaşmır. Onun bilavasitə iştirakı və təşəbbüsü ilə Respublika Kitab Palatası tərəfindən bir çox nəzəri-metodiki əsərlər, retrospektiv biblioqrafik göstəricilər də çap olunmuşdur.

Ə.Qəhrəmanovun biblioqrafiyaşünas alim kimi fəaliyyəti geniş və çoxcəhətlidir. O, bir tərəfdən biblioqrafiyanın nəzəriyyəsi, metodikası və tədrisinə dair əsərlər yazır, digər tərəfdən də nəzəri biliyi təcrübi olaraq tətbiq etməklə biblioqrafik göstəricilər tərtib edirdi. Belə ki, Ə.Qəhrəmanovun həm Azərbaycan, həm rus, həm də digər keçmiş sovet xalqlarının ədəbiyyatları sahələrində tərtib etdiyi biblioqrafik göstəricilər sahə üzrə ədəbiyyatın vaxtlı-vaxtında oxuculara çatdırılmasında mühüm əhəmiyyət kəsb edirdi.

Müharibədən sonrakı dövrdə geniş oxucu kütləsinin, elmi işçilərin və onlara xidmət edən kitabxanaların biblioqrafik göstəricilərə tələbatı günü-gündən artırdı. Kitab fondlarının komplektləşdirilməsində və onların daha da təkmilləşdirilməsində, istifadəçilərin informasiya təminatında biblioqrafik göstəricilər kitabxanaçılarımız üçün mühüm vasitəyə çevrilirdi. Bu ehtiyacın ödənilməsində görkəmli biblioqraf Ə.Qəhrəmanovun böyük xidmətləri vardır.

Belə ki, 40-cı illərdən başlayaraq Ə.Qəhrəmanovun tərtib etdiyi bədii ədəbiyyata, görkəmli ədəbi simaların bədii irsinə aid bir sıra retrospektiv və şəxsi biblioqrafik göstərici oxuculara çatdırılmışdır. Bunlar aşağıdakılardır: "Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı (22 iyun 1941-ci il-3 sentyabr 1945-ci il)", "Böyük yazıçı A.M.Qorki", "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" "Qardaş xalqların ədəbiyyatı", "Aleksandr Sergeyeviç Puşkin", "Rus ədəbiyyatı biblioqrafiyası", "Sovet xalqları ədəbiyyatı biblioqrafiyası" və s.

Müharibə dövründə, 1942-1946-cı illərdə Respublika Kitab Palatası salnamələrinin nəşri müvəqqəti olaraq dayandırıldığından bu illərdə dövrü mətbuatda, dərslik və məcmuələrdə dərc edilən bədii, ədəbi-tənqidi və publisistik əsərləri toplu halında oxuculara təqdim etmək məqsədilə Ə.Qəhrəmanov "Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı (22 iyun 1941-ci il-3 sentyabr 1945-ci il)" (12) sahəvi biblioqrafik göstəricini çap etdirdi.

Biblioqrafik göstəricinin giriş məqaləsində müəllifin də qeyd etdiyi kimi, Böyük Vətən müharibəsi illərində xalqımız və ədəbiyyatımız ağır imtahandan şərəflə çıxmışdır. Ədib və şairlərimiz xalqımızın qəhrəmanlıq, mərdlik və vətənpərvərliyini əks etdirən, Vətənə, xalqa olan sonsuz məhəbbət və sədaqətini tərənnüm edən gözəl əsərlər yaratmışlar.

Böyük Vətən müharibəsi illərində yaranan Azərbaycan ədəbiyyatı ədəbiyyat tarixində müəyyən bir dövr təşkil edir. Buna görə də göstərici mühüm bir mövzuya həsr olunmuş və şübhəsiz ki, öz dövründə böyük rol oynamışdır. Bu biblioqrafik göstərici Böyük Vətən müharibəsi illərində çap olunan bədii ədəbiyyatı tam əhatə edən petrospektiv əsər kimi ədəbiyyatşünaslar, mühazirəçilər, müəllimlər və geniş oxucu kütləsi üçün çox qiymətli bir mənbə olmuşdur.

Göstəricidə yazıçılarımızın Böyük Vətən müharibəsi illərində kitab halında çapdan buraxılmış əsərləri və həmçinin qəzet, jurnal və məcmuələrdə dərc edilən şeir, hekayə, oçerk və romanları əhatə edilmişdir. Göstəricidə materiallar düzgün olaraq janrlar üzrə 5 əsas bölmədə qruplaşdırılmış, bölmələr daxilində isə əlifba sırası gözlənilmişdir. Biblioqrafik vəsaitə 3500-ə yaxın kitab, qəzet və jurnal məqaləsi daxil edilmişdir. Əhatə olunan ədəbiyyatın miqdarından və mənbələrdən aydın olur ki, müəllif kitablarla yanaşı, onlarca mənbəni araşdırmış, ciddi axtarışlar aparmışdır.

Müharibədən sonrakı dövrdə Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası sahəsində Ə.Qəhrəmanovun "Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı" adlı retrospektiv biblioqrafik göstəricisi mütəxəssislərin və ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş və onun haqqında mətbuatda müsbət rəylər, mülahizələr söyləmişlər (3;4;6). Məsələn, tanınmış kitabxanaşünas-biblioqraf alim R.Kazımov Ə.Qəhrəmanovun

"Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı" (1946) adlı biblioqrafik göstəricisinin təhlilini verərkən onu müəyyən dövrdə (1941-1945) Azərbaycan ədəbiyyatını əks etdirən ümumi petrospektiv biblioqrafik göstərici hesab etməklə bədii ədəbiyyat və ədəbiyyatşünaslığın mövzu biblioqrafiya göstəricilərinin yaradılması ideyasını doğuran və irəli sürən ilk biblioqrafik əsər kimi qiymətləndirir."(23, 122).

Azərbaycan Dövlət Universitetində və Azərbaycan Pedaqoji İnstitutunda Azərbaycan ədəbiyyatı ilə yanaşı, keçmiş sovet xalqları ədəbiyyatından da mühazirələr oxuyan zaman Ə.Qəhrəmanov rus dilində olan materiallardan geniş istifadə edirdi.

Azərbaycan xalqı ilə keçmiş sovet xalqları arasındakı ədəbi əlaqələr günün aktual məsələsi kimi Ə.Qəhrəmanovu xeyli düşündürmüş və bunun nəticəsində o, keçmiş sovet xalqları ədəbiyyatına həsr olunmuş biblioqrafik göstəricini tərtib etmək qərarına gəlmişdir.

Həmin illərdə keçmiş sovet xalqları ədəbiyyatından Azərbaycan dilinə tərcümə olunmuş əsərlərin sayı daha da artırdı və qardaş xalqlarının bədii irsi oxucularımız tərəfindən böyük maraq və məhəbbətlə oxunurdu.

Elə buna görə də keçmiş sovet xalqları ədəbi simalarının dilimizə tərcümə olunmuş əsərlərini toplayıb biblioqrafik vəsait tərtib etmək və onu geniş oxucu kütləsinin istifadəsinə vermək mühüm vəzifə kimi qarşıda dururdu. Ə.Qəhrəmanov bu şərəfli vəzifəni yerinə yetirmək üçün "Qardaş xalqların ədəbiyyatı" adlı(13) biblioqrafik göstəricini tərtib etmiş və onu 1948-ci ildə oxucuların istifadəsinə vermişdir.

Göstəricidə 1926-1947-ci illərdə keçmiş sovet xalqları (rus ədəbiyyatından başqa) yazıçılarının əsərlərini əks etdirən 1100-ə yaxın kitab, məcmuə, qəzet və jurnal məqalələri əks etdirilmişdir.

Bildiyimiz kimi, 1956-cı ilə qədər "Qardaş xalqların ədəbiyyatı" biblioqrafik göstəricisindən başqa, keçmiş sovet xalqları ədəbiyyatını Azərbaycan dilində əks etdirən heç bir müntəxəbat və dərsliyin olmaması göstəriciyə tələbat və ehtiyacı daha da artırırdı. Bu ehtiyac ali məktəblərdə, kitabxanalarda və nəşriyyat idarələrində daha tez-tez özünü biruzə verirdi. Ə.Qəhrəmanov oxucularımızın keçmiş sovet xalqları ədəbiyyatına olan maraq və ehtiyacını nəzərə alaraq yenidən bu mövzuya qayıtmış, əvvəlki göstəricinin daha da təkmilləşdirilmiş, tamamlanmış, məzmun etibarı ilə zənginləşdirilmiş ikinci nəşrini tərtib etmişdir. "Sovet xalqları ədəbiyyatı biblioqrafiyası"(19) adlanan bu göstərici 1956-cı ildə çapdan çıxmışdır.

Göstəriciyə yazdıgı müqəddimədə müəllif Azərbaycanla başqa qardaş xalqların ədəbi əlaqələrindən, bu ədəbi əlaqələrin möhkəmlənməsində mühüm rol oynayan tərcümə əsərlərindən və biblioqrafik vəsaitin quruluşundan bəhs etmişdir.

"Sovet xalqları ədəbiyyatı biblioqrafiyası" göstəricisinin tərtibi metodikası əvvəlki göstəricidə olduğu kimidir. Burada hər bir xalqın ədəbiyyatı respublikanın adını daşıyan bölmə altında təsvir edilmişdir.

Biblioqrafik vəsaitdə Ukrayna, Belarus, Özbək, Qazax, Gürcü, Litva, Latviya, Tacik, Türkmən, Eston və Dagıstan yazıçılarının əsərləri öz əksini tapmış və buraya 1927-1956-cı illərdə nəşr olunmuş ədəbiyyat daxil etmişdir.

Biblioqrafik informasiya mənbəyinə rus ədəbiyyatından başqa bütün keçmiş SSRİ xalqları ədəbiyyatı daxil edilmişdir.

Görkəmli biblioqraf rus ədəbiyyatına ayrıca biblioqrafik vəsait həsr etmiş "Rus ədəbiyyatı biblioqrafiyası" adlı biblioqrafik göstərici 1953-cü ildə Azərbaycan Kitab Palatası tərəfindən nəşr edilmişdir. Ə.Qəhrəmanov hələ yaradıcılıgının ilk illərindən Rus-Azərbaycan ədəbi əlaqələri ilə maraqlanmış, rus ədəbiyyatının Azərbaycan ədəbiyyatına təsirini tədqiq etmiş, rus yazıçılarının bədii irsinin Azərbaycan dilinə tərcüməsinə aid külli miqdarda mənbələr əldə etmiş, böyük rus klassiklərindən A.S.Puşkin və M.Qorki əsərlərinin biblioqrafik göstəricilərini, uzun müddətli yaradıcılıq axtarışlarından sonra isə "Rus ədəbiyyatı biblioqrafiyası"() kimi sahəvi retrospektiv biblioqrafik göstəricisini tərtib etmişdir.

"Qardaş xalqların ədəbiyyatı" göstəricisindən fərqli olaraq bu göstəricidə hər bir bölmənin əvvəlində həmin xalqın ədəbiyyatı haqqında bir neçə səhifəlik informasiya verilir.

Biblioqrafik vəsaitin əsas hissəsi Ukrayna ədəbiyyatı ilə başlayır. "Ukrayna ədəbiyyatı haqqında qısa biblioqrafik qeydlər"də Azərbaycan-Ukrayna ədəbi əlaqələri tarixi işıqlandırılmışdır. Sonrakı "Ukrayna ədəbiyyatından" adlı əsas rubrikada yazıçılar yaşadıqları dövrlərin xronologiyasına, onların əsərləri də nəşr tarixinə görə verilmişdir.

Hər bir yazıçıya həsr olunmuş yarımbölmədə mənbələr aşağıdakı kimi sistemləşdirilmişdir: Əsərləri; məsələn: "T.Q.Şevçenko", "Şevçenko haqqında", "Azərbaycan yazıçı və şairləri Şevçenko haqqında".

Ukrayna ədəbiyyatı klassikləri haqqında biblioqrafik məlumatdan sonra "Müasir Ukrayna yazıçıları" adlı əsas bölmə verilmişdir ki, burada da ədəbiyyat yuxarıda adlarını qeyd etdiyimiz kimi yarımbölmələr altında qruplaşdırılmışdır. Biblioqrafik göstəriciyə köməkçi aparatın tərtib edilməməsi onun nöqsan cəhətlərindəndir.

Bir sıra elmi-tədqiqat əsərlərində göstərici haqqında müsbət rəylər söylənilmişdir (3;4;23).

"Qardaş xalqların ədəbiyyatı" göstəricisindən fərqli olaraq həcm etibarilə seçilən bu biblioqrafik vəsaitdə ədəbiyyatın geniş əhatəliliyi, biblioqrafiyalaşdırmanın metodikası baxımdan materialların cografi prinsip əsasında sistemləşdirilməsi və hər bir respublikanın ədəbiyyatı haqqında verilən "Qısa biblioqrafik qeydlər" onun əhəmiyyətini və elmi dəyərini artıran əsas

amillərdəndirdir. İri həcmli bu biblioqrafik tədqiqat əsəri ədəbiyyatşünaslar, ədəbiyyat müəllimləri, kitabxanaçılar, jurnalistlər, tələbələr və bədii ədəbiyyatla maraqlanan bütün oxucu qrupları üçün qiymətli informasiya mənbəyidir. Ə.Qəhrəmanova qədər rus bədii ədəbiyyatından Azərbaycan dilinə tərcümə olunub nəşriyyatlarımız tərəfindən çapdan buraxılan əsərlərə dair biblioqrafik göstəricilər tərtib olunmadığı üçün respublika kitabxanalarının və oxucuların belə biblioqrafik vəsaitlərə böyük ehtiyacı var idi.

Məhz buna görə də Ə.Qəhrəmanov hələ yaradıcılığının ilk illərindən Rus-Azərbaycan ədəbi əlaqələri ilə maraqlanmış, rus ədəbiyyatının Azərbaycan ədəbiyyatına təsirini tədqiq etmiş, rus yazıçılarının bədii irsinin Azərbaycan dilinə tərcüməsinə aid külli miqdarda material toplamış, böyük rus klassiklərindən A. S. Puşkin və M.Qorki əsərlərinin biblioqrafik göstəricilərini, uzun müddətli yaradıcılıq axtarışlarından sonra isə “Rus ədəbiyyatı biblioqrafiyası”(16) kimi sahəvi retrospektiv biblioqrafik göstəricisini tərtib etmişdir.

1953-cü ildə oxuculara təqdim edilən bu göstərici Azərbaycan biblioqrafiyasının inkişafında əlamətdar bir hadisə oldu. Bu ümumi xarakterli retrospektiv biblioqrafik göstəricidə 87 rus klassiki və yazıçısının 1952-ci ilə qədər Azərbaycan dilində ayrıca kitab şəklində, məcmuə və dərsliklərdə, qəzet və jurnal səhifələrində çap olunmuş əsərlərinin və onların haqqında yazılan ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Bu göstərici Azərbaycan dilində rus ədəbiyyatının ümumi biblioqrafiyasını əks etdirən ilk iri həcmli elmi tədqiqat əsəridir. Müəllif oxucularda hər bir yazıçının yaradıcılığı haqqında tam təsəvvür oyatmaq üçün onun bədii irsindən başqa publisistik yazıları, məqalələri, tənqidi əsərləri, çıxış və nitqləri də göstəricidə öz əksini tapmışdır.

Göstərici giriş və iki bölmədən ibarətdir:

1. Rus klassikləri və inqilabdan əvvəlki yazıçılar
2. Rus sovet yazıçıları.

Bölmələr daxilində müəlliflər yaşadıqları dövrlər, əsərləri isə çap olunduqları illər üzrə, xronoloji prinsip əsasında yerləşdirilmişdir. Burada əvvəlcə yazıçının kitablarının, sonra isə qəzet və jurnallarda çap olunan əsərləri haqqında biblioqrafik informasiya verilir.

Göstəriciyə daxil edilən kitabların mündəricatları açılmışdır. Vəsait köməkçi göstəricilərlə də təmin edilmişdir. Göstərici öz dövründə rus ədəbiyyatını tam əhatə etdiyinə və ilk təşəbbüs kimi təqdirəlayiq biblioqrafik tədqiqat əsəridir.

Aparılan araşdırmalardan aydın olur ki, Ə.Qəhrəmanovun yaradıcılığında rus ədəbiyyatının tədqiqi xüsusi bir xətt kimi keçmiş, səmərəli əməyi nəticəsində o, 1955-ci ildə “XIX əsr rus və Azərbaycan ədəbi əlaqələrindən” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri

namizədi elmi adına layiq görülmüşdür. Dissertasiyasının ikinci hissəsində XIX əsr rus ədəbi simalarının əsərlərini əks etdirən biblioqrafik göstərici verilmişdir.

Azərbaycan xalqının görkəmli biblioqraf alimi Ə.Qəhrəmanovun vəfatından sonra onun dissertasiya işinin birinci hissəsi 1962-ci ildə Azərnəşr tərəfindən "Rus-Azərbaycan ədəbi əlaqələrinə dair" adı altında çapdan buraxılmışdır. Ə.Qəhrəmanovun 1954-cü ildə Azərbaycan Dövlət Kitab Palatası tərəfindən çapdan buraxılan "Azərbaycan ədəbiyyatı biblioqrafiyası" (8) göstəricisində də mütəxəssislərə, elmi işçilərə, kitabxanaçı və biblioqraflara geniş ictimaiyyətə biblioqrafik informasiya verilmişdir.

Müqəddimə, 8 bölmə və köməkçi aparatdan ibarət olan bu retrospektiv biblioqrafik göstəriciyə 1924-cü ildən 1953-cü ilin dekabr ayınadək, yəni 29 il ərzində respublikanın nəşriyyatları tərəfindən Azərbaycan və rus dillərində yalnız kitab şəklində çap olunmuş bədii və publisistik əsərlər daxil edilmişdir. Bu göstərici Azərbaycan bədii ədəbiyyatı və ədəbiyyatşünaslığı sahəsində çap əsərlərinin bir yerə toplanmış biblioqrafik icmalını əks etdirir.

Ə.Qəhrəmanov rus və Azərbaycan ədəbiyyatı klassiklərinə həsr olunmuş üç şəxsi biblioqrafik göstərici də tərtib edərək oxucuların istifadəsinə verilmişdir. Onun tərtib etdiyi "Böyük yazıçı A. M. Qorki"(11), "Aleksandr Sergeyeviç Puşkin"(7) və " Böyük Azərbaycan şairi Nizami Gəncəvi" (10) adlı şəxsi biblioqrafik vəsaitlər sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

Görkəmli biblioqraf-alim Ə.Qəhrəmanov yalnız biblioqrafik göstəricilər tərtib etməklə kifayətlənməmiş, eyni zamanda tarixi və əlamətdar günlər, yazıçıların yubileyləri münasibəti ilə dövri mətbuatda fəal çıxış edərək respublikada biblioqrafik fikrin təbligində, geniş yayılmasında böyük xidmətlər göstərmişdir.

"Sabirin əsərlərinin nəşri", "Ukrayna xalqının böyük yazıçısı" (İ. Frankonun anadan olmasının 100 illiyi münasibəti ilə) (20), "Великий Украинский писатель", Azərbaycan SSR-də mətbuatın inkişafı" (9), Respublikamızda kitab nəşri" (15), "Sənətkarı xatırlarkən" (M. Müşfiq haqqında xatirə) (18) və s. məqalələri onun qələmindən çıxan dəyərli əsərlərdəndir.

Görkəmli alim-biblioqraf Ə.Qəhrəmanov Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi yanında 1947-ci ildə açılmış Kitabxanaçılıq şöbəsinin müdiri olmuş və orada ixtisas üzrə mühazirələr oxumuşdur. Biblioqrafiyanın tədrisində Azərbaycan dilində proqram və dərsliklərin olmaması Ə.Qəhrəmanovu bir mütəxəsis kimi çox narahat etmiş və bu sahəyə olan tələbat və ehtiyacı təmin etmək üçün bir sıra proqram və dərs vəsaitləri tərtib etmişdir. Onun tərtib etdiyi "Ümumi biblioqrafiyadan müxtəsər məlumat" (21) adlı metodik vəsait 1953-cü ildə çap olunmuşdur. Biblioqrafiyanın

nəzəri və metodiki məsələlərini əks etdirən bu kitab Kitabxanaçılıq şöbəsinin, Kitabxanaçılıq Texnikumunun tələbələrinin və o dövrdə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən açılan qısa müddətli kurslarda oxuyanların bu sahəyə olan ehtiyaclarını təmin etmək məqsədini güdmüşdür.

Əməkdar Mədəniyyət işçisi, Azərbaycan biblioqrafiyaşünaslığının tanınmış nümayəndəsi, professor Z.H.Əliyev yazır: ”Biblioqrafiya kursu üzrə ilk mühazirələr Azərbaycanda biblioqrafik işin təşkilində, idarə olunmasında, inkişafında, ali təhsilli peşəkar biblioqrafların yetişdirilməsində xüsusi rolu və yeri olan Ə.B.Qəhrəmanov tərəfindən oxunmuşdur. Biblioqrafiya üzrə ilk dərs vəsaitləri də məhz Ə.Qəhrəmanov tərəfindən yazılmış və çapdan buraxılmışdır. Onun “Ümumi biblioqrafiyadan müxtəsər məlumat” (1953), Ümumi biblioqrafiyanın əsasları” adlı dərs vəsaitləri uzun müddət ali kitabxanaçılıq təhsili alan tələbələrin biblioqrafiya sahəsində bəhrələndikləri əsas mənbə olmuş və onların biblioqrafik peşəyə yiyələnmələrinə xeyli kömək etmişdir”(5. 39).

Vəsaiti yazarkən Ə.Qəhrəmanov V.N.Denisyevin 1947-ci ildə rus dilində çapdan buraxılan “Ümumi biblioqrafiya” kitabını əsas götürmüş və ondan istifadə etmişdir.

Biblioqrafiyaya aid bütün məsələləri həcmcə kiçik olan bu əsərdə vermək mümkün olmadıgından, burada biblioqrafiyanın ən mühüm nəzəri, metodiki məsələləri müxtəsər surətdə şərh olunmuş və onlara aid yerli materiallardan nümunələr verilmişdir.

Ə.Qəhrəmanovun ikinci əsəri “Ümumi biblioqrafiyanın əsasları” (22) adlı 252 səhifəlik əsərdir. Azərbaycan dilində çap olunan bu kitab vaxtilə biblioqrafiyanın elmi, nəzəri və metodik məsələlərinə həsr edilmiş qiymətli bir dərs vəsaiti kimi tədris edilirdi. Ə.Qəhrəmanov “Ümumi biblioqrafiyanın əsasları” əsərini yazarkən yuxarıda adını qeyd etdiyimiz kitabı əsaslı surətdə işləmiş və təkmilləşdirmişdir. Müəllifin vəsaitə yazdıgı “Bir neçə söz” adlı giriş məqaləsində qeyd etdiyi kimi “bu kitabın əsas materiallarını Kitabxanaçılıq şöbəsində oxudugu mühazirələrinin yenidən işlənilmiş konspektləri təşkil edirdi”. Lakin müəllif yalnız bu “mühazirələrin konspektləri” ilə kifayətlənməmiş, ümumi biblioqrafiyanın elmi-metodik məsələləri haqqında görkəmli rus biblioqrafı V.N.Denisyevin kitabxanaçılıq texnikumu tələbələri üçün dərs vəsaiti kimi çapdan buraxılan “Ümumi biblioqrafiya” (1954) adlı əsərindən və kitab haqqında mətbuat səhifələrində dərç edilən rəyləri nəzərə almaqla və biblioqrafiyanın elmi-nəzəri kursunu öyrənən Kitabxanaçılıq şöbəsinin tələbələri üçün kollektiv müəlliflər tərəfindən yazılan ”Ümumi biblioqrafiya” (1957) kitabından geniş istifadə etmişdir.

“Ümumi biblioqrafiyanın əsasları” (22) dərs vəsaitinə “Kütləvi kitabxanalarda məlumat-biblioqrafiya işləri” adlı xüsusi bölmə də daxil

edilmişdir. Müəllif bu kitabı həm dərs vəsaiti kimi, həm də respublikada ildən-ilə genişlənən kütləvi kitabxanalar şəbəkəsinin təşkilinə metodik kömək məqsədilə kitabxanaçıların istifadəsinə verməyi lazım bilmişdir.

"Ümumi biblioqrafiyanın əsasları" dərs vəsaiti haqqında mətbuatda rəylər dərc olunmuşdur. Əməkdar Elm xadimi, tarix elmləri doktoru, prof. A. Xələfov 1959-cu ildə yazdığı "Qiymətli tədris vəsaiti" adlı məqaləsində həmin əsərə yüksək qiymət vermişdir. (2).

Dosent R.Kazımov "Azərbaycan Respublika Kitab Palatası" (24) adlı kitabçasında Kitab Palatasının çapdan buraxdıgı nəşrlər sırasında Ə.Qəhrəmanovun "Ümumi biblioqrafiya haqqında müxtəsər məlumat" kitabını "biblioqrafiyaya aid ilk dərs vəsaiti" adlandırmış, "Ümumi biblioqrafiyanın əsasları" əsərini isə "ali məktəb tələbələri üçün mükəmməl dərslik" kimi qiymətləndirmişdir (24). Şübhəsiz ki, bu kitab öz dövründə tələbələrin ehtiyacını tə'min edən əsas vəsait olmuşdur.

Ə.Qəhrəmanovu bir mütəxəssis kimi kitabxana-biblioqrafiya terminləri məsələsi də düşündürmüş və bu sahəyə olan ehtiyacı tə'min etmək üçün hələ 40-cı illərin sonlarında "Kitabxana-biblioqrafiya terminləri lügəti" nin əlyazmasını sona çatdırmışdır. Ölümündən bir neçə il qabaq o, təkrarən bu mövzuya qayıdaraq, onu yenidən işləmiş və daha da mükəmməlləşdirilmişdir. Ə. Qəhrəmanovun hazırladıgı "Kitabxana-biblioqrafiya terminləri lügəti"ni onun oglu, Kitab Palatasının keçmiş əməkdaşı F.Ə.Qəhrəmanov sona çatdıraraq çap etmiş və əsər 1964-cü ildə kitabxana ictimaiyyətinə təqdim edilmişdir (26).

Lügətin Azərbaycan dilində çapdan buraxılması bu sahədə ilk təşəbbüs kimi təqdirəlayiqdir. Lügətdə üç minə qədər əsasən kitabxanaçılıq və biblioqrafiya terminləri öz əksini tapmışdır. Lakin kitabxanaçılıq, biblioqrafiya işi elmin bütün sahələri ilə, xüsusən ədəbiyyatşünaslıq, dilçilik, nəşriyyat və poliqrafiya sahələri ilə əlaqədar oldugundan buraya müştərək terminlər də daxil edilmişdir ki, onlardan həm kitabxana-biblioqrafiya sahəsində, həm də elmin başqa sahələrində istifadə olunur. Məsələn. janr növləri, qara şrift, jurnal, başlıq, sərlövhə, dövri mətbuat, seçilmiş əsərlər, sitat, tiraj, mətn, klassik, təsnifat, klişe, kitab nəşriyyatı, kitab ticarəti, kitabça, müxbir, abzas və s. Terminlər lügətdə əlifba sırası ilə əvvəl ruscası, sonra Azərbaycan dilində qarşılıgı verilmişdir.

İstedadlı alim-biblioqraf Ə.Qəhrəmanov retrospektiv biblioqrafiya sahəsində görəcəyi işlərin geniş planını hazırlamışdı. Elə buna görə də o, Azərbaycanın çap əsərlərinin ümumi biblioqrafiyasını yaratmaq işində fəal iştirak edirdi. Təəssüflə qeyd edilməlidir ki, Ə.Qəhrəmanov yaradıcılığının püxtələşdiyi bir dövrdə -1959-cu il martın 23-də 48 yaşında vəfat etmişdir.

"Советская библиография" jurnalının 1959-cu il 3-cü nömrəsində Ə. Qəhrəmanov haqqında çap olunan nekroloqda deyilir: "Görkəmli biblioqraf

və pedaqoq, dövlət biblioqrafiyası sahəsində, kitabxana və biblioqrafiya kadrlarının hazırlanmasında istedadlı təşkilatçı yaradıcılığının çiçəkləndiyi bir dövrdə sıramızdan getdi" (28, 108).

Görkəmli biblioqraf-alim Ə.Qəhrəmanovun xidmətləri dövlət mükafatına layiq görülmüşdür. O, "Böyük Vətən müharibəsində əmək igidliyinə görə" medalı və "Əla işinə görə" keşmiş SSRİ Mədəniyyət Nazirliyinin döş nişanı ilə təltif edilmişdir.

Öz sənətinin peşəkarı və vurğunu olan, ömrünü kitablar arasında keçirən Ə. Qəhrəmanov az ömür sürsə də Azərbaycan biblioqrafiyasının nəzəri və praktiki məsələlərinin həlli sahəsində öz dövrünə görə çox iş gördü. Görkəmli alimin respublikada bədii ədəbiyyat və ədəbiyyatşünaslığın retrospektiv biblioqrafiyasının yaranması və inkişafında inkaredilməz xidmətləri vardır. Onun tərtib etdiyi nəzəri və təcrübi biblioqrafik nəşrlərdən kitabxanaçı-biblioqraflar çox istifadə etmiş, bəhrələnmiş və yüksək qiymətləndirmişlər. Bu nəşrlər öz dövründə elmi işçilərin, mütəxəssislərin, tələbələrin və kitabxana işçilərinin stolüstü kitabına çevrilmiş və indi də öz əhəmiyyətini itirməmişdir. Alimin bütün elmi yaradıcılığına əsaslanmaqla onun Azərbaycan biblioqrafiyaşünaslıq məktəbinin əsasını qoyanlardan biri kimi tarixdə qalacağını cəsarətlə söyləmək olar.

Ömrünü kitablar arasında yaşadı, varlığını kitablara bağladı, istirahətini kitabxanalarda axtardı, Azərbaycanda biblioqrafiyanın inkişafı üçün çalışdı. Onun həyat və fəaliyyəti xalqa fədakarlıqla xidmətin və kitaba olan məhəbbətin nümunəsidir. O, bütün mənalı həyatını və yaradıcılıq qüvvəsini Azərbaycanda biblioqrafiyanın inkişafına sərf etdi. Azərbaycanın ilk görkəmli biblioqraf-alimi, müəllimi, tanınmış ziyalı, dövlət biblioqrafiyası və ədəbiyyat sahəsində gözəl mütəxəssis, kitabxanaçı-biblioqraf kadrlarının hazırlanması işində qayğıkeş və bacarıqlı təşkilatçı kimi tanınan Əliheydər Qəhrəmanovun əziz xatirəsi respublikanın kitabxana-biblioqrafiya ictimaiyyəti və ədəbiyyatşünasları tərəfindən həmişə hörmətlə yad ediləcəkdir.

## ƏDƏBİYYAT

*1. Xələfov A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı.*

*2. Xələfov A.Qiymətli tədris vəsaiti // Bakı, 1959, 16 fevral.*

*3. Əliyev Z.H. Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişafı tarixindən.-B., 1960.-s.22.*

*4. Əliyev Z.H. Biblioqrafiyanın nəzəriyyəsi və metodikası: Biblioqrafiyanını ümumi kursu üzrə dərs vəsaiti.-B.,1973, s. 56.*

*5. Əliyev Z.H. Kitabxanaçılıq fakültəsində biblioqrafiya fənlərinin tədrisi // Kitabxanaçılıq-informasiya:elmi-nəzəri və təcrübi jurnal.-1997, №1.-s.38-44.*

*6. Əziz M. Biblioqrafiya göstəricilərimiz haqqında // Kommunist qəz., 1949, 30 iyul.*

*7. Qəhrəmanov Ə. Aleksandr Sergeyeviç Puşkin.-B.,1949.-124 s.*

*8. Qəhrəmanov Ə. Azərbaycan ədəbiyyatı biblioqrafiyası.-B.,1954, 98 s.*

*9. Qəhrəmanov Ə.Azərbaycan SSR-də mətbuatın inkişafı.-B.,*

*10. Qəhrəmanov Ə.Böyük Azərbaycan şairi Nizami Gəncəvi.-B,*

*11. Qəhrəmanov Ə. Böyük yazıçı A.M.Qorki.-B.,1946.-48 s.*

*12. Qəhrəmanov Ə. Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı.-B.,1946.-160 s.*

*13. Qəhrəmanov Ə. Qardaş xalqların ədəbiyyatı.-B.,1948.-95 s.*

*14. Qəhrəmanov Ə.M.Ə.Sabirin əsərlərinin nəşri // Azərbaycan gəncləri, 1951.*

*15.Qəhrəmanov Ə. Respublikamızda kitab nəşri//Ədəbiyyat və incəsənət,1958,7 noyabr, s.3.*

*16. Qəhrəmanov Ə. Rus ədəbiyyatı biblioqrafiyası.-B.,1963.-101 s.*

*17. Qəhrəmanov Ə. Rus-Azərbaycan ədəbi əlaqələrinə dair.-B.,1962.-124 s.*

*18. Qəhrəmanov Ə. Sənətkarı xatırlarkən: M.Müşfiq haqqında // Azərbaycan müəllimi, 1969, 24 yanvar.*

*19. Qəhrəmanov Ə. Sovet xalqları ədəbiyyatı biblioqrafiyası.-B.,1956.-132 s.*

*20.Qəhrəmanov Ə.Ukrayna Xalqının böyük yazıçısı İ.Frankonun 100 illiyi münasibətilə//Azərbaycan,1956,№8.-s.*

*21. Qəhrəmanov Ə. Ümumi biblioqrafiyadan müxtəsər məlumat.-B.,1953.-80 s.*

*22. Qəhrəmanov Ə. Ümumi biblioqrafiyanın əsasları.-B.,1958.-252 s.*

*23. Kazımov R. Azərbaycan bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası.1920-1965.-B.,1971.-s.122*

*24. Kazımov R. Azərbaycan Respublikası Kitab Palatası:Yaddaş.-B.,1965, s.8.*

*25. Kitabxana işçisinə kömək, 1971, № 4, s.11.*

*26. Kitabxana-biblioqrafiya terminləri lüğəti /Tərtib edəni Ə.Qəhrəmanov; ped. F.Ə.Qəhrəmanov.-B.,1964.-96 s.*

*27.Nəcəfova M.Y. Respublikanın görkəmli biblioqrafı Əliheydər Qəhrəmanov //M.F.Axundov adına Azərbaycan Respublikası Dövlət Kitabxanası:Elmi əsərlər. Bur.1.-B.,1980.- s.127-145.*

*28. А.Г.Каграманов:Некролог // Сов.библиогр.,1959,№3.-с.108*

# FAMOUS BIBLIOGRAPHER OF THE ALIGEIDAR KAGRAMANOV

**N.I.ISMAILOV**
**X.T.AGAYEVA**
***kafedra_bibliqraf@mail.ru***

***SUMMARY***

***Key words:*** *A. Kagramanov, state bibliography, branch bibliography, bibliographical science, training of librarian-bibliography cadre.*

*The prominent bibliographer of Azerbaijan A. Kagramanov has great services in the creation of state bibliography and bibliography of fiction and history of literature of our republic. His activity as a scientist and a bibliographer is great and many-sided.*

*Kagramanov's role in this sphere is considered in the article, information about theoretical and practical works of a scientist-bibliographer is given.*

*A.Kagramanov prepared and published bibliographical text-books on Azerbaijan, Russian literature and literature of the peoples of the USSR.*

*From the 40-s readers widely use retrospectives and personal bibliographical indexes.*

*Kagramanov is the author of theoretical works"The short information about general bibliography" and "The bases of general bibliography" in Azerbaijani.*

*A.Kagramanov's activity as a teacher who trained a great number of specialists and as a manager of Book Chamber is widely illuminated in the article.*

# ВЫДАЮЩИЙСЯ УЧЕНЫЙ-БИБЛИОГРАФ АЛИГЕЙДАР КАГРАМАНОВ-100

**Н.И.ИСМАЙЫЛОВ**
**Х.Т.АГАЕВА**
***kafedra_bibliqraf@mail.ru***

***РЕЗЮМЕ***

***Ключевые слова****: А. Каграманов, государственная библиография, отраслевая библиография, библиографоведение, подготовка библиотечно-библиографических кадров.*

*Велики заслуги видного библиографа Азербайджана А.Каграманова в создании Государственной библиографии и библиографии художественной литературы и литературоведения в нашей республике. Его деятельность как ученого и библиографа велика и многогранна.*

*В статье рассматривается роль А. Каграманова в этой области, даны сведения о теоретических работах ученого-библиографа.*

*А.Каграманов подготовил и опубликовал библиографические пособия по азербайджанской, русской литературе и народов бывшего союза. Начиная с 40-х годов читатели широко пользуются ретроспективными и персональными библиографическими указателями.*

*Каграманов является автором теоретических работ: «Краткие сведения по общей библиографии», «Основы общей библиографии» на азербайджанском языке.*

*В статье широко освещена деятельность А. Каграманова как педагога подготовившего большое количество специалистов и его работа на посту директора Азербайджанской Книжной Палаты.*

**M Ü N D Ə R İ C A T**


| | | |
|---|---|---|
| **A.A.XƏLƏFOV** | **KİTABXANAŞÜNASLIĞIN MÜASİR PROBLEMLƏRİ (rus dilində)………………….............** | **7** |
| **A.QURBANOV<br>K.ASLAN** | **BAKI DÖVLƏT UNİVERSİTETİ KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ İNKİŞAF YOLLARINDA.............** | **30** |
| **İ.JURAVLEVA** | **UKRAYNA ALİ MƏKTƏB KİTABXANALARINDA MƏDƏNİ İRSİN QORUNMASI (PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ)** | **47** |
| **P.F.KAZIMİ** | **TÜRKMƏNİSTANDA KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİ.............** | **56** |
| **M.Ə.MƏMMƏDOV** | **RESPUBLİKA ELMİ TEXNİKİ KİTABXANALARINDA MÜTƏXXƏSİSLƏRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ...** | **64** |
| **P. F.KAZIMİ<br>N. HÜSEYNOVA** | **QAZAXISTANDA KİTABXANA İŞİNİN ƏSAS İNKİŞAF MƏRHƏLƏLƏRİ.............** | **68** |
| **R.ƏSƏDOVA<br>B. ƏLƏSGƏROV** | **KİTABXANA FƏALİYYƏTİNİN MODERNLƏŞDİRİLMƏSİ.............** | **73** |
| **S.P.İSMAYILOVA<br>F.F.ABDULLAZADƏ** | **ƏDƏBİYYATŞÜNASLIQ BİBLİOQRAFİYASININ SORAQ-MƏLUMAT NƏŞRLƏRİ……..** | **79** |
| **Ş.İ.İSLAMOVA** | **MÜASİR İNTEQRASİYA ŞƏRAİTİNDƏ KİTABXANA-İNFORMASİYA SİSTEMİNİN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ…………….** | **86** |
| **R. MEHDIYEVA** | **S. VURĞUN ADINA SUMQAYIT ŞƏHƏR MKS-DƏ OXUCULARA KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ……** | **92** |
| **G.BAXŞİYEVA** | **AZƏRBAYCANDA KİTABXANA İŞİNƏ DAİR QƏBUL EDİLMİŞ RƏSMİ SƏNƏDLƏR VƏ** | **97** |

| | | |
|---|---|---|
| | ONLARIN ELMİ METODOLOJİ ƏHƏMİYYƏTİ............. | |
| S.H.KƏRIMOVA | ELEKTRON KİTABXANALARIN İNKİŞAFI: DÜNYA TƏCRÜBƏSİ........................................ | 104 |
| E. ƏJDƏROV | NİKOLAY ALEKSANDROVİÇ RUBAKİNİN BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİNDƏ ŞƏXSİ TƏHSİL FƏALİYYƏTİNİN OXUCU ŞƏXSİYYƏTİNƏ UYĞUNLAŞDLRILMASI…. | 111 |
| A.A.XƏLƏFOV<br>K.ASLAN | AZƏRBAYCAN TƏHSİLİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ........................................ | 118 |
| N.İSMAYILOV<br>X.AĞAYEVA | GÖRKƏMLİ BIBLİOQRAF-ALİM Ə.QƏHRƏ-MANOV –100............. ............. ............. .............. | 129 |

# C O N T E N T S


| | | |
|---|---|---|
| **A.A.KHALAFOV** | **PROBLEMS MODERN LIBRARY SCIENCE.............. .............. .............. ..............** | **7** |
| **A.KURBANOV<br>K.ASLAN** | **LIBRARY AND INFORMATION IN THE DEVELOPMENT OF** | **30** |
| **I.JURAVLEVA** | **PRESERVATION OF CULTURAL IN THE LIBRARIES OF HIGHER EDUCATIONAL ESTABLISHMENTS OF UKRAINE (PROBLEMS AND SALUTIONS)** | **47** |
| **P.F.KAZIMI** | **MANUSCRIPT BOOK OF THE TURK PEOPLE AND HIS SPREAD AREAL……….** | **56** |
| **M.A.MAMMADOV** | **LIBRARY AND INFORMATION SERVICES PERSONNEL IN SCIENTIFIC AND TECHNICAL LIBRARY OF THE REPUBLIC** | **64** |
| **P.F.KAZIMI<br>N.HUSEYNOVA** | **THE MAIN STAGES OF DEVELOPMENT OF LIBRARY WORK IN KAZAKHSTAN…..** | **68** |
| **R. ASADOVA<br>B. ALESGEROV** | **MODERNIZATION OF LIBRARY…………...** | **73** |
| **S.P.ISMAYILOVA<br>F.F.ABDULLAZADE** | **DIRECTORY EDITIONS OF LITERARY CRITICISM'S BIBLIOGRAPHY....................** | **79** |
| **Sh.I.ISLAMOVA** | **THE MAIN DIRECTION DEVELOPMENT OF INFORMATON OF LIBRARY SYSTEM IN MODERN INTEGRATION CONDITION** | **86** |
| **R.MEHTIEVA** | **THE FORMATION OF LIBRARY INFOR-MATION SERVICE FOR THE READERS OF CENTRALİSED LİBRARY NAMED AFTER S.VURGUN İN SUMQAİT.............** | **92** |

| | | |
|---|---|---|
| **G. BAKHSHIYEVA** | **THE OFFICIAL DOCUMENTS ABOUT THE LIBRARY SCIENCE OF AZERBAIJAN AND THE IMPORTANCE OF THEIR SCIEN-TIFIC METHODOLOGY.............** | **97** |
| **S. H.KARIMOVA** | **DEVELOPMENT OF ELECTRONIC LIBRARIES: WORLD EXPERIENCE………** | **104** |
| **E.L.AZHDAROV** | **A PROBLEM SELF-EDUCATION AND ITS ADAPTATIONS TO THE PERSONALITY" IN THE THEORY OF A BIBLIPSYCHO-LOGY OF N.A.RUBAKIN……………………** | **111** |
| **A.A.KHALAFOV**<br>**K.ASLAN** | **AZERBAIJANI EDUCATION IN THE NEW STAGE OF DEVELOPMENT** | **118** |
| **N.I. ISMAILOV**<br>**X. T. AGAYEVA** | **FAMOUS BIBLIOGRAPHER OF THE ALIGEIDAR KAGRAMANOV............. ...........** | **129** |

## С О Д Е Р Ж А Н И Е


| | | |
|---|---|---|
| **А.А.ХАЛАФОВ** | **СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ БИБЛИОТЕКОВЕДЕНИЯ............. ............. ..............** | **7** |
| **А.КУРБАНОВ К.АСЛАН** | **БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ В ПУТИ РАЗВИТИЯ………..** | **30** |
| **И. ЖУРАВЛЕВА** | **СОХРАНЕНИЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ В БИБЛИОТЕКАХ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ УКРАИНЫ: ПРОБЛЕМЫ И ИХ РЕШЕНИЕ............. .............** | **47** |
| **П.Ф.КАЗЫМИ** | **КНИЖНАЯ БИБЛИОТЕЧНАЯ КУЛЬТУРА ТУРКМЕНИСТАНА............. ..............** | **56** |
| **М.А.МАМЕДОВ** | **БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ ОБСЛУЖИВАНИЕ СПЕЦИАЛИСТОВ В НАУЧНО-ТЕХНИЧЕСКОМ БИБЛИОТЕКИ РЕСПУБЛИКИ** | **64** |
| **П.Ф.КАЗЫМИ Н.ГУСЕЙНОВА** | **ОСНОВНЫЕ ЕТАПЫ РАЗВИТИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА В КАЗАХЫСТАНЕ** | **68** |
| **Р. АСАДОВА Б. АЛЕСКЕРОВ** | **МОДЕРНИЗАЦИЯ ДЕЯТЕЛЬНОСТИ БИБЛИОТЕК............. ............. ............. ........** | **73** |
| **С.П.ИСМАИЛОВА Ф.Ф.АБДУЛЛАЗАДЕ** | **ИЗДАНИЯ СПРАВОЧНОЙ ИНФОРМАЦИИ О БИБЛИОГРАФИИ ЛИТЕРАТУРОВЕДЕНИЕ............. ............. ............. ..............** | **79** |
| **Ш.И.ИСЛАМОВА** | **ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ БИБЛИОТЕЧНО- ИНФОРМАЦИОННОЙ СИСТЕМЫ В УСЛОВИЯХ СОВРЕМЕННЫХ ИНТЕГРАЦИОННЫХ ПРОЦЕССОВ............. ............. .............** | **86** |
| **Р.МЕХТИЕВА** | **ФОРМИРОВАНИЕ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ИНФОРМАЦИЯ ДЛЯ** | **92** |

| | | |
|---|---|---|
| | ЧИТАТЕЛЕЙ ЦЕНТРАЛИЗОВАННАЯ БИБЛИОТЕКА ИМЕНИ С. ВУРГУНА В СУМГАИТЕ............. ............. ............. ........... | |
| Г. БАХШИЕВА | ПРИНЯТИЕ ОФИЦИАЛЬНЫХ ДОКУМЕНТОВ АЗЕРБАЙДЖАНА ПО БИБЛИОТЕЧНОМУ ДЕЛУ И ИХ НАУЧНО-МЕТОДИЧЕСКАЯ ЗНАЧИМОСТЬ........... | 97 |
| С. Г.КЕРИМОВА | РАЗВИТИЕ ЭЛЕКТРОННЫХ БИБЛИ-ОТЕК: МИРОВОЙ ОПЫТ............. ............. | 104 |
| Э.Л.АЖДАРОВ | «ПРОБЛЕМА САМООБРАЗОВАНИЯ И ЕЕ АДАПТАЦИИ К ЛИЧНОСТИ» В ТЕОРИИ БИБЛИОПСИХОЛОГИИ Н.А.РУБАКИНА............. ............. ............. | 111 |
| А.А.ХАЛАФОВ<br>К.АСЛАН | АЗЕРБАЙДЖАНСКОЕ ОБРАЗОВАНИЕ В НОВОМ ЭТАПЕ РАЗВИТИЯ. | 118 |
| Н. ИСМАЙЫЛОВ<br>Х. АГАЕВА | ВЫДАЮЩИЙСЯ УЧЕНЫЙ-БИБЛИОГ-РАФ АЛИГЕЙДАР КАГРАМАНОВ-100…. | 129 |

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

***"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr göstərilən qaydalar əsasında tərtib edilməlidir:***

***1) Format – A4; Sətirlərarası interval – 1,0;***
***Yuxarıdan 2,5 sm; Aşağıdan 2,5 sm; Soldan 3,5 sm; Sağdan 1,5 sm.***
***Məqalələrin həcmi 1 çap vərəqindən artıq olmamalıdır.***
***2) Şrift dəsti:***
***Azərbaycan dilində – Times New Roman***
***İngilis dilində – Times New Roman***
***Rus dilində – Times New Roman***
***Şriftlərin ölçüsü 12 (Word 2003).***
***3) Hər bir elmi məqalənin ingilis və rus dillərində xülasələri olmalı, burada məqalənin ingilis və rus dillərində adı da öz əksini tapmalıdır.***
***4) Elmi məqalələr və xülasələr kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunmalıdır. Disklər geri qaytarılmır.***
***5) Müəllif haqqında aydın məlumat verilməli, adı, atasının adı, soyadı açıq yazılmalı, işlədiyi və ya oxuduğu müəssisənin adı tam şəkildə yazılmalıdır.***
***6) Hər bir elmi məqaləyə 2 mütəxəssis rəy verməlidir.***

***Nəşriyyat redaktorları:***
***Məryəm Qədimova***
***Afiqə Cəfərova*** *(Azərbaycan mətni)*
***Nərgiz Əliyeva*** *(İngilis mətni)*
***Yafəs Quliyev*** *(rus mətni)*

*Jurnal Azərbaycan Respublikası*
*Ədliyyə Nazirliyində qeydə alınmışdır.*
*Şəhadətnamə № 3135. 16.03.2010.*

*Yığılmağa verilmişdir: 15.01.2012.*
*Çapa imzalanmışdır: 15.03.2012.*
*Formatı 70x100⅛*
*Həcmi 10 ç.v.*

---

*Bakı şəhəri, Az1148., Z.Xəlilov küçəsi, 23*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi*